BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

Azərbaycan Milli Elmlər Akademiyası

Azərbaycan Yaradıcılıq Fondu

Multikulturalizm

Ədəbi-bədii, elmi-publisistik jurnal

4 (8) 2017

oktyabr-noyabr-dekabr

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,
Azərbaycan Milli Elmlər Akademiyası
və Azərbaycan Yaradıcılıq Fondunun
birgə nəşri

BAKI
2017

Redaksiya heyəti

Aleksandr İşein
Allahşükür Paşazadə
Anar Rzayev
Aytən Mustafayeva
Aytən Qəhrəman
Azərpaşa Nemətov
Etibar Babayev
Etimad Başkeçid
Firdovsiyyə Əhmədova
İsa Həbibbəyli
Kamal Abdulla
Kamran İmanov
Qismət Rüstəmov
Lidiya Qranovskaya
Mehman Qaraxanoğlu
Milix Yevdayev
Natiq Rəsulzadə
Nəriman Qasımoğlu
Paşa Əlioğlu
Rəhilə Qeybullayeva
Rəşad Məcid
Robert Mobili
Sevda Sultanova
Sərdar Fərəcov

Beynəlxalq redaksiya şurası

Aleksandr Nesterov *(Rusiya)*
Aleksandr Qriç *(ABŞ)*
David Qotsiridze (*Gürcüstan)*
Didye Frankfurt *(Fransa)*
Eero Tarasti *(Finlandiya)*
İrma Ratiani (*Gürcüstan)*
Klaus Volf *(Almaniya)*
Maija Burima *(Latviya)*
Ramazan Qorxmaz *(Türkiyə)*
Sandro Teti *(İtaliya)*
Sudha Svarnakar *(Braziliya)*
Takayuki Yokota Murakami *(Yaponiya)*
Tereza Damasio *(Portuqaliya)*
Valeri Pines (ABŞ)
Vidas Kavalyauskas *(Litva)*
Yeva-Mariya Aux *(Almaniya)*

Baş redaktor
Fəxri Uğurlu

Baş redaktorun müavini
Tahir Kazımlı

Redaktorlar
Azər Qaraçənli
Sərraf Balaxan
Qismət Rüstəmov

Məsul katib
Taleh Eminoğlu

Texniki direktor
Fuad Cəfərov

Texniki redaktor
Əliş Mirzallı

Dizayner
Mətanət Qaraxanlı

Korrektor
Kəmalə Cəfərli

Üz qabığının 1-ci səhifəsi – Multikulturalizm monumenti (Kanada, Toronto, müəl. Fransisko Pirelli). Dörd oxşar abidə dünyanın müxtəlif yerlərində – Buffalo (CAR), Çançun (Çin), Sarayevo (Bosniya və Herseqovina), Sidney (Avstraliya) şəhərlərində yerləşir.

Üz qabığının 4-cü səhifəsi – Bakıda yerləşən 1896-1899-cu illərdə inşa edilmiş "Xilaskar kilsəsi". Kilsənin memarı Adolf Eyxlerdir.

Redaksiyanın ünvanı:
Az1001, Bakı şəhəri, N.Rəfibəyli küç., 6
tel.: (+994 12) 492 33 29
e-mail: multikulturalizmjurnali@gmail.com
facebook: Multikulturalizm jurnalı

Jurnal ildə 4 dəfə nəşr olunur.
Qeydiyyat: 05/ƏN11-5-5946

Materiallardan istifadə edərkən jurnala istinad vacibdir.

© "Multikulturalizm" jurnalı, 2017

İÇİNDƏKİLƏR

RƏSMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" münasibətilə Azərbaycan xalqına müraciəti 6

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında çıxışı 8

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda çıxışı 10

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeninin təqdimetmə mərasimində çıxışı 19

HESABAT

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci ilin yekunlarına dair hesabatı 22

MULTİKULTURALİZM VƏ ONUN TƏDRİSİ

Лейли ГУЛИЕВА – Мультикультуральное образование – как важный фактор политики мультикультурализма в Азербайджане 33

ÇOXMƏDƏNİYYƏTLİLİK

Афет МУСАЕВА – Мультикультурализм в постколониальных странах и кросскультурная литература 38

TARİXİMİZ, BUGÜNÜMÜZ

Mübariz C. XƏLİLOV – Albaniyanın tarixi, etno-mədəni hüdudları: qərb istiqaməti **43**

AZƏRBAYCAN ƏCNƏBİLƏRİN GÖZÜ İLƏ

Villi DEŞ – Alman əsirin gündəliyi **54**

HÖTE ZALI

Xorxe Luis BORXES – Borxes & Borxes 61

AXUNDOV ZALI

Kamal ABDULLA – Adaşlar..... 67

TƏNDİQ VƏ ESSEİSTİKA

Qismət – Üz-üzə güzgülər..... 76

MM – MULTİKULTURALİZM MOZAİKASI..... 84

REGİON

"MULTİKULTURALİZM" təqdim edir: Qərb bölgəsinin rəngi..... 100



Azərbaycan İslam aləmində çox böyük hörmətə malik bir ölkədir. Baxın, İslam Əməkdaşlıq Təşkilatının rəhbərləri bizim ölkəmizə necə yüksək qiymət verirlər. Bəzən bir-biri ilə yola getməyən müsəlman ölkələri də bizə böyük hörmətlə yanaşırlar. Nəyə görə? Çünki bizim siyasətimiz səmimidir, düzgündür, ədalətlidir, prinsipialdır və cəsarətlidir. Bax, budur bizim siyasətimiz.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə Azərbaycan xalqına müraciəti

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli Lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi

İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 25 dekabr 2017-ci il

İslam Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında Prezident İlham Əliyevin çıxışı

2017-ci ilin dekabr ayının 13-də Türkiyənin İstanbul şəhərində İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda nitq söyləyib. Həmin çıxışın mətnini diqqətinizə çatdırırıq.



Bismillahir-rəhmanir-rəhim.

Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan.

Hörmətli baş katib.

Zati-aliləri.

Zirvə görüşünün iştirakçıları.

İlk növbədə fövqəladə İslam Zirvə görüşünün təşkilinə görə Prezident Ərdoğana təşəkkür edirəm. Prezident Ərdoğanın təşəbbüsü ilə keçirilən bu Zirvə görüşü Türkiyənin İslam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürüdür.

Amerika Birləşmiş Ştatları Prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı bizdə böyük narahatlıq yaradır. Bu qərar Fələstin-İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara gətirib çıxara bilər. Hesab edirik ki, Amerika Birləşmiş Ştatları bu qərara yenidən baxmalıdır.

Azərbaycan ardıcıl olaraq Fələstin-İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla iki dövlət prinsipi əsasında həllini dəstəkləyir. Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə

yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyul ayında Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair komitənin, BMT-nin Humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfə verir, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Azərbaycanın təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi və İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası yaradılmışdır.

2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilib. Azərbaycan islamofobiyaya qarşı fəal mübarizə aparan ölkələrin ön sırasındadır. 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilib. Bu möhtəşəm idman, dostluq, qardaşlıq bayramı bir daha bütün dünyaya göstərdi ki, İslam sülh, mərhəmət, bərabərlik dinidir.

Əməkdaşlığı və qarşılıqlı dəstəyi gücləndirmək üçün digər bir imkan bu ay Bakıda keçiriləcək "İslam Həmrəyliyi İli"nin qeyd olunması ilə bağlı beynəlxalq konfrans olacaqdır.

Fürsətdən istifadə edərək, İƏT-ə, onun üzv dövlətlərinə və dünyadakı müsəlman cəmiyyətlərinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə təşəkkürümü ifadə etmək istərdim. İyirmi ildən artıqdır ki, Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla 20 faiz torpaqlarını işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpaqlarıdır. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalmış və talan edilmişdir. Ermənistan məscidlər və İslam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv etmişdir.

Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişdir. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq, münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Təşəkkür edirəm.

“2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfrans

Dekabrın 21-22-də Heydər Əliyev Mərkəzində “2017 – İslam Həmrəyliyi İli: Dinlər və mədəniyyətlərarası dialoq” mövzusunda beynəlxalq konfrans keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə elan edilən “İslam Həmrəyliyi İli”nin yekunlaşması ilə əlaqədar keçirilən tədbir Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunub.



Beynəlxalq konfransda 40-a yaxın ölkədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumət, ictimaiyyət və parlament üzvləri, diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Konfrans müqəddəs “Qurani-Kərim”dən ayələrin oxunması ilə başlayıb.

Konfransda İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin, Konstantinopol Patriarxı I Varfolomeyin, Moskva və bütün Rusiyanın Patriarxı Kirillin və Ümumgürcüstan Katolikos-Patriarxı II İliyanın konfrans iştirakçılarına müraciətləri oxunub. Daha sonra Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının İslam ilə dialoq departamentinin rəhbəri Xaled Akaşe, ISESCO-nun baş direktoru Əbdüləziz əl-Tuveycri və Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şuranın həmsədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edib.

Beynəlxalq konfransın iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubu ünvanlayıb, digər dövlət başçılarına, beynəlxalq təşkilatlara və dini liderlərə müraciət qəbul ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev beynəlxalq konfransın açılış mərasimində iştirak edib və nitq söyləyib. Həmin çıxışın mətnini diqqətinizə çatdırırıq.

Prezident İlham Əliyevin nitqi



Hörmətli din xadimləri!

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. İl ərzində Azərbaycanda və bir çox ölkələrdə beynəlxalq konfranslar, tədbirlər keçirilmişdir. Sonuncu beynəlxalq konfrans isə bu gün Bakıda öz işinə başlayır. Mən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayır, onlara "Xoş gəlmisiniz!" deyirəm. Qeyd etməliyəm ki, bu gün konfransda 40-a yaxın ölkədən 150-dək xarici qonaq iştirak edir. Hörmətli qonaqlarımızın iştirakı bu konfransın və bu mövzunun əhəmiyyətini bir daha göstərir.

Azərbaycan İslam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlər boyu öz milli mənəvi dəyərlərini yaşatmış, qorumuşdur. İslam dəyərləri isə milli mənəvi dəyərlərimizin

tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə məscidi bizim böyük sərvətimizdir. Bu məscid onu göstərir ki, Azərbaycan qədim müsəlman diyarıdır. Bizim digər tarixi dini abidələrimiz də milli sərvətimizdir.

Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilmişdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT-də və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilmiş və Kontakt Qrupu yaradılmışdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilmişdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılmışdır. Eyni zamanda, Azərbaycan ISESCO-nun da fəal üzvüdür. ISESCO İslam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, ISESCO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl ISESCO tərəfindən Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan İslam mədəniyyəti paytaxtı adına layiq görülübdür.

Ölkə daxilində İslam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımları atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işinə münasibətimiz bir daha göstərir ki, İslam həmrəyliyi bizim üçün, sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.

Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu, bizim böyük sərvətimizdir.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında BMT-nin

Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunu qeyd edə bilərəm. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter alan Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da, ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası dialoqa həsr edib. Belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi təbiidir. Çünki ilk növbədə, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rolunu oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni, bu gün isə siyasi baxımdan həm də bir körpü rolunu oynayır. Digər tərəfdən, Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, heç bir – hətta kiçik bir anlaşılmazlıq yoxdur. Əksinə, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır və ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər. Ona görə də məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ölkə daxilində bu məsələlər ən yüksək səviyyədə həllini tapıbdır. Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik – dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi, əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir. Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Eyni zamanda, əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir.

Azərbaycan keçən ili "Multikulturalizm İli" elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər – islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də ən yüksək səviyyədə. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək. Multikulturalizm hər bir ölkə üçün adi hala çevrilməlidir.

Qeyd etdiyim kimi, Azərbaycanın İslam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Eyni zamanda, bizim Avropa ölkələri ilə də sıx əlaqələrimiz var. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalamışdır. Yəni bu

da Avropa İttifaqının üzvlərinin üçdəbir hissəsidir. Avropa İttifaqı ilə də bizim çox sıx əlaqələrimiz var. Bir sıra məsələlər ətrafında çox ciddi iş gedir və bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək saziş üzərində iş başlamışdır. Bu, bir daha ölkəmizin həm beynəlxalq gündəlikdə duran məsələlərə münasibətini, eyni zamanda bizim siyasətimizi əks etdirir. Azərbaycan xalqı öz milli mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Həm coğrafi yerləşməyimiz, həm də bizim tariximiz, sivilizasiyaların Azərbaycan ərazisindəki keçmişi və rolu, əlbəttə ki, Azərbaycanı dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və aparılacaq. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.

Bu il biz İslam Həmrəyliyi Oyunlarını yüksək səviyyədə keçirmişik. IV İslam Həmrəyliyi Oyunları Bakıda keçirilmişdir. Əllidən artıq ölkədən 3 mindən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu, həm böyük idman yarışı idi, eyni zamanda, bu, bir dostluq bayramı, qardaşlıq bayramı idi. Bütün İslam ölkələrinin aparıcı idmançıları Bakıda idilər. Əlbəttə, biz fəxr edirik ki, Azərbaycan milli komandası bu yarışların qalibi oldu, birinci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu Oyunlar bir daha göstərdi ki, İslam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin.

İki il bundan əvvəl isə Bakıda tarixdə ilk dəfə olaraq Avropa Oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa Oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdi. İlk Avropa Oyunları Azərbaycanda keçirildi və Avropadan 5 mindən çox idmançı burada yarışırdı, minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu Oyunlarda ikinci yerə layiq görüldü.

Yəni bu iki hadisə özlüyündə bir göstəricidir. Əlbəttə ki, bunlar böyük, möhtəşəm idman tədbirləri idi. Amma eyni zamanda, həm Avropa, həm İslam Oyunlarının iki il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm İslam aləminin bizə olan münasibətini göstərir, həmçinin onu göstərir ki, bir daha dediyim fikirlərə qayıdıram – Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.

Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan, eyni zamanda, Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının mədəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda

görüşdülər. Çox səmərəli görüş keçirildi, çox səmimi fikir mübadiləsi aparıldı. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, yəni bu, sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə "Bakı Prosesi" adı verildi. Bu gün "Bakı Prosesi" yaşayır, inkişaf edir. Gələn il biz "Bakı Prosesi"nin on illik yubileyini qeyd edəcəyik. "Bakı Prosesi" bütün mötəbər beynəlxalq təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası arasında əlaqələrin inkişafı üçün dünya miqyasında nadir bir platformadır. Yenə də təşəbbüs Azərbaycan tərəfindən gəldi.

Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaq.

Azərbaycan gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 26 yaşı var. Müstəqilliyin ilk illəri çox ağır keçmişdir, çox faciəvi hadisələr baş vermişdir. 1993-cü ilə qədər Azərbaycan, demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü, inflyasiya min faizlərlə ölçülürdü, bütün sənaye müəssisələrimiz, demək olar ki, fəaliyyətsiz qalmışdı və ölkənin inkişafı üçün perspektivlər çox qaranlıq idi. Bundan əlavə, o vaxtkı hakimiyyət Azərbaycanda vətəndaş müharibəsinə start verdi və qardaş qanı axıtdı. Mənfur qonşu Ermənistan bundan istifadə edərək torpaqlarımızın bir hissəsini işğal etmişdir. Yəni Azərbaycan, demək olar ki, uçurumun kənarında idi. Belə vəziyyətdə Azərbaycan xalqı özünə xas olan müdriklik göstərərək böyük lider Heydər Əliyevi hakimiyyətə dəvət etdi və 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf və tərəqqi yolu ilə gedir. 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi, vətəndaş müharibəsinin dayandırılması, yeni Konstitusiyanın qəbul edilməsi və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarlar xalqımızı ağır vəziyyətdən çıxara bildi və bu gün də Azərbaycan uğurla inkişaf edir. Eyni zamanda, müstəqilliyin ilk illərində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər də, demək olar ki, pozulmuşdu. Yumşaq desək, bu sahədə çox böyük səhvlər, dəqiq desək, cinayətlər törədilmişdi. Məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu sahədə də dönüş yarandı, dövlət-din münasibətləri lazımi səviyyədə quruldu. Bu gün dövlət-din münasibətlərinin səviyyəsinə və mahiyyətinə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər.

Bu gün 26 ildir müstəqil dövlət kimi yaşayan Azərbaycan ayaqda möhkəm dayanır. Əlbəttə ki, bizim əsas problemimiz Ermənistan-Azər-

baycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan bir milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıb. Ermənilər qanlı cinayət – Xocalı soyqırımını törədiblər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq qətlə yetirilib. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıb.

BMT münaqişə ilə bağlı dörd qətnamə qəbul etmişdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz geri çəkilməlidir. Ancaq bu qətnamələr kağız üzərində qalıb. Bu qətnamələri qəbul edənlər bu məsələyə biganə qalırlar. Ermənistan da bundan istifadə edərək öz işğalçı siyasətini davam etdirir. İşğal edilmiş torpaqlarımızda bütün binalar dağıdılıb. Bizim tarixi, dini abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu dağılmış məscidlərin fotoşəkilləri indi internetdə kifayət qədər dərc edilib, bunu hər bir insan görə bilər. Bütün infrastruktur dağıdılıb. ATƏT işğal edilmiş torpaqlara iki dəfə faktaraşdırıcı missiya göndərmişdir. O missiyalar dediyim mənzərə ilə üzləşmiş və öz məruzələrində bunu əks etdirmişlər.

Münaqişə ilə bağlı Azərbaycan dövlətinin mövqeyi tam beynəlxalq hüquqa əsaslanır. İlk növbədə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, tarixi torpağıdır, digər tərəfdən, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Belə olan halda münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri, – bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur, – tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək.

O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi məsələsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Qeyd etdiyim kimi, dünyanın əksər ölkələri çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Ermənistan xalqı öz müqəddəratını təyin edib, onların öz dövlətləri var. İkinci erməni dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılmasına Azərbaycan heç vaxt imkan verməyəcək. Bu, əslində, çox zərərli, təhlükəli və xəstə bir məntiqdir. Ermənilər bir çox ölkələrdə yaşayırlar. İndi əgər onlar yaşadıqları bütün ölkələrdə Azərbaycandakı kimi öz müqəddəratını təyin etmək arzusuna düşərlərsə və aqressiv separatizmə əl atarlarsa, onda baxarıq o ölkələrin siyasəti necə olacaq.

Bu gün dünyada gedən proseslər bizim mövqeyimizi dəstəkləyir və gücləndirir. Qeyd etdiyim kimi, həm beynəlxalq hüquq, həm tarix, həm potensial baxımından bizim mövqeyimiz kifayət qədər güclüdür. Ancaq bu

gün Avropa da separatizmlə üzləşir. Görün Avropa ölkələrində separatizmə qarşı hansı addımlar atılır. Bizim problemimiz aqressiv separatizmdir. Əli silahlı erməni quldur dəstələri soyqırımı törətmiş, zor gücü ilə torpaqlarımızı işğal etmiş, günahsız insanları bu torpaqlardan qovmuşlar və bu gün bu torpaqlarda qanunsuz fəaliyyətlə məşğuldurlar. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bunun üçün bütün imkanlar var və son hadisələr – keçən ilin hadisələri bunu bir daha göstərir. Ölkəmizin ərazi bütövlüyü bütün başqa ölkələrin ərazi bütövlüyü qədər qiymətlidir və dəyərlidir.

Bu böyük və çətin problemə baxmayaraq, ölkəmiz uğurla inkişaf edir. Biz beynəlxalq arenada çox etibarlı tərəfdaşa çevrildik, bir neçə il bundan əvvəl 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu, bizim böyük siyasi qələbəmiz idi. Çünki o vaxt Azərbaycan cəmi 20 il idi ki, müstəqil ölkə kimi yaşayırdı və bu illər ərzində beynəlxalq ictimaiyyətin rəğbətini qazana bilmişdir. Ölkədə çox ciddi iqtisadi islahatlar aparılır. İqtisadi inkişaf baxımından Azərbaycan son 14 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. İqtisadiyyatımız, ümumi daxili məhsul 3 dəfədən çox artmışdır.

Biz, eyni zamanda, çox ciddi sosial siyasət aparırıq və bunun nəticəsində Azərbaycanda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. İnsan kapitalına böyük sərmayə qoyulur. Son 14 il ərzində ölkəmizdə üç mindən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilmiş və ya təmir edilmişdir, 12 min kilometr yol inşa edilmişdir və digər lazımi sosial infrastruktur yaradılır. Beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Sadəcə bir rəqəmi demək kifayətdir ki, bu barədə təsəvvür olsun: Ümumdünya Davos İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliyinə görə 35-ci yerə layiq görüb. Yəni bu, çox böyük göstəricidir və biz bu göstəriciyə enerji resursları hesabına çatmamışıq. Əlbəttə ki, Azərbaycanın zəngin enerji resursları var və bu resurslardan biz səmərəli şəkildə istifadə edirik. Amma ölkələrin rəqabətqabiliyyətliyi digər parametrlər üzərində hesablanır və bu göstərici bizi dünya miqyasında 35 ən rəqabətqabiliyyətli iqtisadiyyatlar arasına daxil edir.

Məndə və bilirəm ki, cəmiyyətdə də ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər var. Bu gün reallaşan nəhəng enerji layihələri, 40 milyard dollar dəyəri olan "Cənub Qaz Dəhlizi" və bizim digər layihələrimiz ölkəmizin uzunmüddətli uğurlu, dayanıqlı inkişafını dəstəkləyəcək.

Azərbaycan bölgədə çox önəmli nəqliyyat mərkəzinə çevrilir. İki ay bundan əvvəl istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu qitələri – Asiyanı Avropa ilə ən qısa yolla birləşdirdi. Hazırda biz Şimal-Cənub nəqliyyat dəhlizi üzərində işləyirik. Bu istiqamətdə də çox önəmli nəticələr var. Biz ilin sonuna qədər növbəti nəticələri gözləyirik ki, qısa müddətdə – bəlkə də iki-üç il ərzində bu yolu da qonşu ölkələrlə birlikdə istifadəyə

verək. Beləliklə, bundan sonra həm Şərqdən Qərbə və əks istiqamətə, həm də Şimaldan Cənuba və əks istiqamətə dəmir yolları Azərbaycan ərazisindən keçəcəkdir. Bu, bizə əlavə iqtisadi mənfəət və əlbəttə ki, siyasi dividendlər gətirəcək. Bu, regional əməkdaşlığa da çox ciddi müsbət təsir göstərəcək. Eyni zamanda, əminəm ki, bu, bizim bugünkü konfransımızın burada yazılan mövzusuna da öz müsbət təsirini göstərəcək. Çünki millətlərarası, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün, hesab edirəm ki, sadəcə olaraq söz danışmaq kifayət deyil. Konkret layihələr, konkret maraqlar olmalıdır, maraqların uzlaşması, balansı və qarşılıqlı asılılıq olmalıdır. Bizim regionda icra etdiyimiz layihələr bu qarşılıqlı maraqları təmin edir.

Əlbəttə ki, bütün bu nailiyyətləri biz qonşularımızla birlikdə əldə etmişik. Tranzit olmaq istəyən hər bir ölkə gərək öz qonşuları ilə yaxın münasibətlər qursun. Bizdə də belədir. Biz qonşularımızla çox sıx əlaqələr qurmuşuq. Əlbəttə ki, bu, regional təhlükəsizliyə və sabitliyə də öz müsbət təsirini göstərir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında və İslam həmrəyliyinin güclənməsi işində öz rolunu oynayıb. Biz bundan sonra da bu yolla gedəcəyik.

Fürsətdən istifadə edərək sizə – bütün qonaqlara Bakıya gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm və konfransa uğurlar arzulayıram. Sağ olun!

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya Moskvada Müqəddəs Mələksima Knyaginya Olqa ordeni təqdim edilib

Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanı Rus Pravoslav Kilsəsinə göstərdiyi köməyə və Həştərxan şəhərinin abadlaşdırılmasına qayğısına görə II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edib. Dekabrın 26-da Moskvadakı Xilaskar İsa Məbədində ordenin təqdim edilməsi mərasimi keçirilib.

Əvvəlcə patriarx Kirill Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif olunması haqqında fərmanı oxuyub, sonra orden Mehriban Əliyevaya təqdim edilib.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edib. Həmin çıxışın mətnini diqqətinizə çatdırırıq.



Birinci vitse-prezident Mehriban Əliyevanın nitqi

Sağ olun, Zati-müqəddəsləri. Belə fəxri mükafata və fəaliyyətimi bu cür yüksək qiymətləndirdiyinizə görə Sizə minnətdarlığımı bildirirəm. Bu ordeni mənə Siz təqdim etdiyinizə görə xüsusi fərəh duyuram. Sizə səmimi qəlbdən təşəkkür edirəm, Sizə və Sizin yüksək missiyanıza sonsuz hörmətimi ifadə edirəm. Siz insanlara dini və mənəvi, düzgünlük və ədalət, humanizm və şəfqət, yaxşılıq etmək, adamlara kömək göstərmək kimi funda-

mental bəşəri dəyərləri çatdırırsınız. Biz Azərbaycanda Sizin ölkəmizə səfərinizi çox yaxşı xatırlayırıq. Biz Sizin mədəni və mənəvi irsin qorunmasındakı xidmətlərinizi, cəmiyyətdə qarşılıqlı anlaşmanın, qarşılıqlı hörmətin və həmrəyliyin bərqərar olmasına yönələn fəal sülhpərvər və maarifçilik fəaliyyətinizi yüksək qiymətləndiririk. Paytaxtımıza son səfəriniz zamanı Siz Təzəpir məscidini ziyarət etdiniz və Bakıdakı Müqəddəs Sülhdaşıyan kafedral kilsəsində ibadət etdiniz. Bununla da Siz bir daha vurğuladınız ki, istənilən etiqad, istənilən din insanları birləşdirməyə və barışdırmağa xidmət edir.

Azərbaycan çoxmillətli və çoxkonfessiyalı dövlətdir. Multikulturalizm, qarşılıqlı hörmət xalqımızın dünyagörüşünün və Azərbaycan hökumətinin dövlət siyasətinin əsasını təşkil edir. Azərbaycan torpağında müxtəlif konfessiyaların, müxtəlif sivilizasiyaların və mədəniyyətlərin nümayəndələri əsrlər boyu sülh və həmrəylik şəraitində yaşayıblar. Ölkəmizin ərazisində yaşayan bütün xalqların bu mədəni müxtəlifliyi, heç şübhəsiz, bizim sərvətimizdir. Bu sözlər rus pravoslav icmasına da bütünlüklə aiddir. Bu gün Azərbaycanda Rus Pravoslav Kilsəsinə mənsub olan dindarların sayı 100 mindən çoxdur.

Son illər Azərbaycan dünyada tanınmış millətlərarası, dinlərarası və sivilizasiyalararası dialoq mərkəzlərindən birinə çevrilib. Ölkəmizin paytaxtında müntəzəm surətdə qarşılıqlı anlaşmaya və qarşılıqlı hörmətə nail olmağa yönəlmiş nüfuzlu beynəlxalq forumlar keçirilir. 2010-cu ildə bizim vətənimizin paytaxtında Sizin də fəal iştirakınızla Dünya Dini Liderlərinin Ümumdünya Sammiti keçirildi. 2016-cı ildə Bakıda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu baş tutdu. Bu il dekabrın 21-də "İslam Həmrəyliyi İli"nin yekunlarına həsr edilmiş beynəlxalq konfrans keçirildi və bu konfransın mövzusu yenə də xalqlar arasında, müxtəlif dinlərin nümayəndələri arasında dialoqun qurulması idi. Fürsətdən istifadə edib bu konfransa göndərdiyiniz məktuba və Rus Pravoslav Kilsəsinin yüksək səviyyədə təmsil olunmasına görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

Biz öz köklərinə, öz ənənələrinə, öz tarixinə çox hörmət edən ölkəyik. Lakin bununla bərabər, Azərbaycan dünyaya açıq ölkədir. Biz başqa dövlətlərlə, başqa ölkələrlə dostluq münasibətləri qurmaq istəyirik və bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər mehriban qonşuluq, qarşılıqlı hörmət və dostluq əsasında qurulur. Azərbaycan və Rusiya strateji tərəfdaşlardır və əlbəttə ki, bizim humanitar sahədə əməkdaşlığımız bu tərəfdaşlığın çox mühüm hissəsidir. Bizim çox böyük ortaq mədəni irsimiz var və humanitar sahədə əməkdaşlığımız hələ Azərbaycan və Rusiya eyni dövlətin tərkibində olduğu illərdə formalaşıb. Çox sevindirici haldır ki, Azərbaycan öz müstəqilliyini bərpa edəndən sonra bu potensialı nəinki itirməyib, hətta əksinə, çoxaldıb. Bu gün Azərbaycanda böyük rus ədəbiyyatına və mədəniyyətinə tükənməz maraq var. Məktəblərdə rus dilinin

öyrənilməsi tam həcmdə saxlanılıb. Bizim ölkəmizdə təhsil prosesinin tamamilə rus dilində olduğu 300 məktəb, hətta 300-dən çox məktəb fəaliyyət göstərir. Paytaxtda Azərbaycan Dövlət Rus Dram Teatrı, Slavyan Universiteti fəaliyyətdədir. Rusiyanın aparıcı ali məktəblərinin Azərbaycanda filiallarının açılması meyli yaranıb – bizdə Lomonosov adına Moskva Dövlət Universitetinin filialı, Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialı çox uğurla fəaliyyət göstərir. Bu, bizim uğurlu əməkdaşlığımızın daha bir nümunəsidir.

Həştərxan vilayəti ilə bizim çox səmimi dostluq münasibətlərimiz var. Bu vilayət bizim dostumuz, qonşumuzdur və burada uğurlu əməkdaşlıq nümunələri çoxdur. 2013-cü ildə Müqəddəs Mələksima Knyaz Vladimirə abidə ucaldılması, bu abidənin açılışı bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Bu abidənin yaradılması üzərində Azərbaycanın ən yaxşı rəssamları və memarları çalışıb. Onlar bir il ərzində bizim Rus Pravoslav Kilsəsinə dərin hörmət və ehtiramımızı ifadə edən möhtəşəm monument yaratdılar.

Zati-müqəddəsləri, səmimiyyətinizə, mehribanlığınıza görə Sizə bir daha ürəkdən təşəkkür etmək, öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Fürsətdən istifadə edib, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sizə səmimi salamını və ölkəmizə yenidən səfər etməyə dəvətini çatdırmaq istəyirəm. Sizə əmin-amanlıq, firavanlıq, möhkəm cansağlığı və xoşbəxtlik arzu edirəm. Çox sağ olun!

Redaksiyadan:

Xatırladaq ki, 1988-ci ildə Rusiyada xristianlığın qəbul edilməsinin 1000 illiyi ilə əlaqədar təsis olunmuş Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə kilsə, dövlət və ictimai həyatın müxtəlif sahələrində böyük xidmətləri olan qadınlar təltif edilirlər.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə yekun vurub

Dekabrın 22-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) 2017-ci il üçün illik fəaliyyətinin nəticələrinə həsr olunan müşavirə keçirilib.

Tədbiri BBMM-in Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullayev açaraq 2017-ci ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti, həyata keçirdiyi layihələr, multikulturalizm sahəsində görülən işlər barədə məlumat verib. Bildirib ki, Mərkəz Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan vəzifələr üzrə xeyli işlər görüb. Hədəflər isə bəllidir: xarici ölkə universitetlərində Azərbaycan multikulturalizmi fənninin tədrisi və genişləndirilməsi, qış və yay multikulturalizm məktəblərinin keçirilməsi, Azərbaycan universitetlərində multikulturalizm fənni üzrə tədrisin təşkili və onun davamı, eyni zamanda, "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının davamı kimi "Azərbaycan multikulturalizminin elmi-ictimai əsasları" kitabının hazırlanması, bununla yanaşı, Ulu Öndər Heydər Əliyevin 95 illik yubileyi ilə bağlı "Heydər Əliyev 95: multikulturalizm və tolerantlıq ideyaları" mövzusunda beynəlxalq konfransın təşkili.

Kamal Abdullayev deyib ki, bir çox ölkələrin universitetlərində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi ilə yanaşı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin filialları da fəaliyyət göstərir. Gələn ilin aprelində bir sıra xarici universitetlərdə beynəlxalq konfransın bölmə iclasları keçiriləcək. Bu iclaslarda Azərbaycandan da nümayəndələr iştirak edəcəklər. May ayında isə Bakıda "Ulu Öndər Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideyaları" beynəlxalq konfransının yekun toplantısı təşkil ediləcək. Bu iclasa həmin xarici universitetlərdən nümayəndələr də qatılacaqlar.

Kamal Abdullayev multikulturalizm və tolerantlıq sahəsində tədbirlərin təşkilində ölkəmizdə yaşayan müxtəlif dini icmaların yaxından iştirakını xüsusi vurğulayıb.

Sonra Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktor əvəzi Rəvan Həsənov 2017-ci ildə görülən işlər barədə hesabat məruzəsi ilə çıxış edib.

Rusiya Mədəniyyət Mərkəzinin Azərbaycanın ictimai, humanitar, qeyri-hökumət təşkilatları ilə çoxtərəfli mədəni əlaqələrindən danışan Milli Məclisin deputatı Mixail Zabelin əlaqələrin inkişafının vacibliyini vurğulayıb. O deyib ki, Azərbaycan və Rusiyanın dayanıqlı dövlətlərarası münasibətlərinin möv-

cudluğu ölkələrin dinamik münasibətlərinə mühüm təsir göstərir. M.Zabelin uğurlu əməkdaşlığın nümunəsi kimi Azərbaycan Dillər Universiteti və Rusiyanın Puşkin adına Rus Dili İnstitutu arasında imzalanan yaradıcı birlik haqqında müqaviləni xatırladıb.

Azərbaycandakı Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev Azərbaycan xalqının yaşam standartlarının təbliğini genişləndirməyin vacibliyini qeyd edib. ABŞ-ın Arizona ştatının nümayəndə heyətinin Azərbaycana uğurlu səfərindən danışan Milix Yevdayev səfərin əhəmiyyətini ayrıca vurğulayıb. O, həmçinin bildirib ki, ABŞ mediası Azərbaycandakı multikulturalizm və tolerantlıq ənənələri ilə bağlı bir sıra maraqlı məqalələr yayıb.

Azərbaycanlı alimlərin Auqsburq şəhərinə səfərinin nəticələrindən danışan Bakı lüteranları dini icmasının rəhbəri Vera Nesterova aparıcı alman tədris mərkəzləri ilə yaradıcı və elmi münasibətlərin genişləndirilməsinin vacibliyini vurğulayıb. O, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Drezden filialında keçirilən konfranslar və diskussiyalar haqqında ətraflı məlumat verib.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci ildəki fəaliyyətinə həsr olunmuş müşavirədən görüntü

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2017-ci il ərzində fəaliyyətinə dair

H E S A B A T

I bölmə
Konfranslar, Dəyirmi masalar, Seminarlar, Müsabiqələr, Təqdimatlar

Ölkə daxilində:

№	Tədbirlə bağlı məlumatlar	Təşkilatçılar	Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan	Tədbirin keçirilmə forması
	Holokost faciəsi ilə bağlı anım tədbiri	Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu (BF)	27 yanvar, BBMM	Dəyirmi masa
	"Terror multikulturalizmə qarşı: Xocalı soyqırımı-25"	BBMM	23 fevral, BBMM	Anım tədbiri
	"Azərbaycan multikulturalizmi modelinin tədqiqi, təbliği və tədrisi sahəsində qarşıda duran vəzifələr" mövzusunda müşavirə	BBMM, Təhsil Nazirliyi, Bakı Mühəndislik Universitetinin "Azərbaycan multikulturalizmi" Elm-Tədris Mərkəzi	10 mart, Bakı Mühəndislik Universiteti	Müşavirə
	Azərbaycanda səfərdə olan, antisemitizm və islamofobiyaya qarşı mübarizə aparan yəhudi və müsəlman qadınlardan ibarət "Salaam Salom Qardaşlığı" təşkilatının üzvləri ilə görüş	BBMM	13 mart, BBMM	Dəyirmi masa
	"İslam həmrəyliyi – zamanın çağırışı" adlı beynəlxalq konfrans	BBMM, Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK)	15 mart, Bakı	Beynəlxalq konfrans
	"Terror multikulturalizmə qarşı: 31 Mart-Azərbaycanlıların Soyqırımı Günü" adlı seminar	BBMM, Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondu	30 mart, BBMM	Daimi Elmi Seminar
	"İslam tarix, fəlsəfə və hüquq ensiklopedik lüğət"i kitabının təqdimatı	BBMM	21 aprel, BBMM	Təqdimat

	"Müasir Azərbaycan cəmiyyətində multikultural ənənələrin inkişafında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda seminar	BBMM	24 aprel, BBMM	Metodik seminar
Antik dövrün Albaniya–İberiya sərhədləri ilk orta əsrlərdə də müəyyən dəyişikliyə uğrayır. Albaniya tarixi torpaqlarının bir hissəsini itirir. Doğrudur, sərhəd xətti yenə də Kambisenadan keçirdi, lakin bu zaman yalnız Kambisenanın orta əsr gürcü mənbələrində Ereti (H'ereti) adlanan hissəsi (Böyük Qafqaz sıra dağları, Kür, Turdo və Alazan çayları arası) Albaniyanın ixtiyarında qalmışdı. Eretidə məskunlaşmış erlərin alban qəbilələrindən biri olması və onların yurdu Eretinin XI əsrədək Albaniyanın tərkibində qalması hətta bir sıra gürcü alimləri (G.Tsulaya, D.Musxelişvili) tərəfindən qəbul edilmiş müddəalardır.



Kürmük məbədi

İlk orta əsr sərhədlərini Albaniyanın Hnarakert qalasını və tarixi Xunan şəhərini eyniləşdirməklə müasir Tovuz rayonu ərazisinə çəkmək cəhdləri özünü doğrultmadı. Cənubi Qafqazın V-VIII əsrlərə aid mənbələri Hnarakerti İberiya–Albaniya sərhədin-

də ucalan bir qala kimi təqdim edir. Xunan şəhəri isə Tovuz rayonu hüdudlarındakı Torpaqqala abidəsi ilə əlaqədardır. Xunanın Hnarakertlə eyniliyi heç bir yazılı mənbədə göstərilmir. Xunanda (Torpaqqalada) ilk orta əsrlərə aid yaşayış izləri çox zəif qeydə alınıb. XI əsr gürcü tarixi mənbəyinin («Kartli hökmdarlarının həyatı») qədim erməni dilinə tərcüməsində bir sıra yer adlarının erməni variantları verildiyi halda həmin alban şəhəri gürcü dilində olduğu kimi qədim erməni dilində də Xunan (Xunani) adlandırılır. Halbuki qədim ermənidilli mənbələrdə Albaniya–İberiya sərhədindəki qala Hnarakert adlandırılırdı. Bütün bu dəlillər Hnarakert və Xunanın ayrı-ayrı məntəqələr olduğunu təsdiqləyir. Bu isə öz növbəsində onu göstərir ki, İberiya-Albaniya sərhədi ilk orta əsrlərdə Tovuz rayonunun içərilərinə kimi nüfuz edə bilməzdi. Mütəxəssislər Hnarakerti Xrami çayının Kürə qovuşduğu yer yaxınlığındakı Qız qalası ilə eyniləşdirirlər. Başqa sözlə desək, sərhəd qalası müasir Qazax rayonu ilə Gürcüstan arasında idi. Bu həm də o deməkdir ki, sərhədyanı Qazax rayonu ərazisindəki abidələr, o cümlədən, xristian məbədləri alban qəbilələrinə məxsus olub.

Eyni sözləri Ereti ərazisindəki ilk orta əsr xristian məbədləri haqqında da demək olar. Bunu sübut edən bir sıra dəlillər var. Məsələn, Saqareco rayonu ərazisində yerləşən məşhur Ninotsminda xristian məbədinin divarı üzərindəki 3 sətirlik naməlum yazını şərh edən görkəmli gürcü dilçi alimi A.Şanidze həmin epiqrafika nümunəsinin «gürcülər tərəfindən «her» adlandırılan, şərq tərəfdə gürcülərlə qonşuluqda məskunlaşaraq alban dövləti birliyi tərkibinə daxil olan xalqın dilində» həkk edildiyini bildirir.

Eyni sözləri son vaxtlar adı tez-tez hallandırılan Kürmük məbədi haqqında da demək olar. Kürmük çay adı iki hissədən ibarətdir: «kür» və «mük». Bu hidronimin hər iki komponenti tarixi yazılı mənbələrdə öz əksini tapıb. Tədqiqatlar göstərir ki, «kür» sözü «dəlisov (coşqun)» mənasını verir. İkinci komponent olan «mük» qədim Azərbaycan tayfalarından biri olan müklərin (=miklərin, muqların) adını əks etdirir. Bu qəbilənin adı ilk dəfə qədim yunan müəllifi Miletli Hekatey tərəfindən çəkilir. «Kartli hökmdarlarının həyatı» adlı XI əsrə aid gürcü yazılı mənbəyində bu tayfa movakan adlanır və göstərilir ki, Movakan ölkəsi Kiçik Alazan (Qabırrı, İori) çayının mənsəbindən başlayaraq dənizə (Xəzər) kimi uzanır. Ərəb tarixçisi Məsudi Movakanı nəzərdə tutaraq yazırdı ki, Mukaniyə hökmdarlığı Qəbələ hökmdarlığı ilə həmsərhəddir və bu Mukaniyəni Kür çayından cənubdakı məşhur Muğanla eyniləşdirmək olmaz. Beləliklə, Kürmük çayının adı «Dəlisov (coşqun) Mük» çayı mənasını verir. Həmin çayın sahillərində ən qədim zamanlardan etibarən bizim əcdadlarımızdan biri olan müklər yaşayıb, Kürmük çayı sahillərindəki maddi mədəniyyət abidələri, o cümlədən, xristian məbədləri də onların yaradıcılıq nümunələridir. Təsadüfi deyil ki, «Kartli hökmdarlarının həyatı»nı rus dilinə çevirmiş gürcü müəllifi Q.V.Tsulaya movakanları alban qəbilələrindən biri kimi xarakterizə edir.


Müasir dövrümüzdə movakanların (müklərin, muğaniyələrin) birbaşa varisləri bizi maraqlandıran bölgədə məskunlaşmış, azərbaycanlıların etnoqrafik

qrupunu təşkil edən muğallar hesab olunur. Muğallarla bağlı nümunə kimi Azərbaycanda yerləşən Qax-muğal kəndini göstərmək olar.

Tarixin bizə təqdim etdiyi həqiqətlər bunlardır. Bu həqiqətləri müəyyən məqsədlərə çatmaq naminə başqa cür mənalandırmaq sərhədləri dəyişmək qədər çətin bir işdir.

Tarixi mənbələrdən seçmələr

Strabon İberiya və Albaniya haqqında («COĞRAFİYA» əsərindən)



Strabon

XI kitab, III fəsil

1. Həqiqətən də, İberiyanın böyük hissəsi şəhər və qəsəbələrlə o qədər yaxşı abadlaşdırılıb ki, orada hətta kirəmitli damlar, bazar meydanları və memarlıq qaydalarına uyğun inşa edilmiş digər tikililər də var.

2. Bu ölkənin bir hissəsini Qafqaz dağları əhatə edir. Yuxarıda göstərdiyim kimi, dağların qolları cənub istiqamətində ayrılır; onlar bitki örtüklüdür, Ermənistana və Kolxidaya dirənməklə bütün İberiyanı əhatə edir. İberiyanın ortasında düzənlik var. Buradan ən böyüyü Kir (*Kür*) olan çaylar axır. Mənbəyi Ermənistanda olan Kir dərhal həmin düzənliyə çıxır, Qafqazdan axan Araq və digər çay qollarını qəbul edir, sonra dar vadidən Albaniyaya axır; həmin vadi ilə Ermənistan arasından keçərək otlaqlarla çox zəngin olan düzənliklərdən gur axır, daha çox çay, o cümlədən, hamısı gəmiçiliyə yararlı olan Alazoniy, Sandoban, Retak, Xanı qəbul edir və nəhayət, Kaspi (*Xəzər*) dənizinə tökülür. Əvvəllər o, Kor adlanırdı.

3. İberiya düzənliyində məskunlaşmış əhali əkinçiliyə və dinc həyata daha çox meyilli olub, ermənilər və midiyalılar kimi geyinir; əksinə, ölkənin dağlıq hissəsində skit və sarmatların qonşuları və qohumları olan, onların adət-ənənələrinə uyğun ömür sürən sadə insanlar və döyüşçülər qərar tutublar; lakin onlar həm də əkinçiliklə məşğul olurlar. Hər hansı bir təhlükəli şərait yarandıqda onlar həm öz aralarından, həm də skit və sarmatların sıralarından on minlərlə döyüşçünü irəli çıxarırlar.

4. Ölkəyə 4 giriş var. Onlardan biri kolxların istehkamı olan Sarapandan və onun yaxınlığındakı dərədən keçir. Dolanbac olduğu üçün üzərində 120 körpü salınmış Fasis çayı gur və iti sellə həmin dərədən Kolxidaya axır. Leysan yağışlar yağanda həmin yerdə çoxsaylı dağ selləri ucbatından çala-çuxurlar yaranır. İberiya üzərindəki dağlarda yerləşən, mənbəyinə çoxlu bulaq suyu dolan Fasis düzənliklərdə başqa çayları da, o cümlədən, Qlavk və Hippi qəbul edir. Qollarının suları ilə dolduqdan sonra gəmiçiliyə yararlı olan bu çay Ponta tökülür; çayın ağzının yanında eyniadlı şəhər və yaxınlığında göl var. Qayaların, qalaların və gur çayların maneələr yaratdığı Kolxidadan İberiyaya keçid belədir.

5. Şimal köçərilərinin diyarından üç gün ərzində qalxmaq mümkün olan çətin yoxuş, ondan sonra Araq çayı boyu dar vadi gəlir, həmin vadidən bir adamın dörd günə qət edə biləcəyi yol keçir. Yolun qurtaracağı alınmaz istehkamla müdafiə olunur. Albaniyadan keçid əvvəlcə qayalarda çapılmış cığırla gedir, sonra isə Qafqazdan axan Alazoniy çayının yaratdığı subasar sahəni adlayır. Ermənistandan keçid – Kir və Araq çaylarının dərəsindədir. Bu çayların qovuşduğu yerdən yuxarıdakı qayalarda, bir-birindən təqribən 16 stadiy aralı istehkamlı şəhərlər – Kirdə Harmozika, digər çayda Sevsamora yerləşir. Bu keçidlərdən əvvəlcə Ermənistandan hərəkət edən Pompey, sonra isə Kanidiy istifadə edib.

6. Bu ölkədə 4 təbəqəyə məxsus insanlar məskunlaşıb. Birinci təbəqə ən yüksəkdir: bu təbəqədən hökmdarlar nəslinə mənsub olan ən qocaman şəxs hökmdar seçilir; ondan sonrakı əhəmiyyətli şəxs – ali hakim və sərkərdədir. İkinci təbəqəni kahinlər təşkil edir; onlar əlavə olaraq qonşuların iddialarına baxırlar. Üçüncü təbəqə döyüşçülərdən və əkinçilərdən ibarətdir. Nəhayət, dördüncüsü – sadə xalqdır; bunlar yaşamaq üçün zəruri şeylərin əldə edilməsindən ötrü bütün işləri görən və hökmdara məxsus olan qullardır. Onların nəslində əmlak ümumidir və hər belə əmlakı yaşca ən böyük adam qoruyur. İberlər və onların ölkəsi belədir.

XI kitab, IV fəsil

1. Albanlar maldarlığa daha çox meyillidirlər və köçərilərə yaxındırlar; lakin onlar vəhşi olmadıqları üçün o qədər də döyüşkən deyillər. Onlar iberlərlə Kaspi (Xəzər) dənizi arasında yaşayırlar; şərqdə onların ölkəsi dənizə çatır, qərbdə isə iberlərlə həmsərhəddir. Digər tərəflərinə gəldikdə, şimal tərəfi Qafqaz dağları ilə hüdudlanır, bu dağlar düzənliklərin üzərində yüksəlir və onların dənizə yaxın hissələri Keravn dağları adlanır. Sonuncu tərəfi onunla həmsərhəd olan Ermənistan təşkil edir; Ermənistanın bir hissəsi düzənlikdir, digər hissəsi isə ermənilərin iberlər və albanlarla eyni zamanda həmsərhəd olduqları Kambisenadakı kimi dağlıqdır.

2. Albaniyadan axan Kir (*Kür*) çayı və onu dolduran digər çaylar torpağın münbitliyini artırır, lakin əvəzində dəniz tərəfə keçidi çətinləşdirir. Həqiqətən də, böyük miqdarda çay çöküntüləri oraya düşərək keçidi elə tutur ki, yanaşı adacıqlar materiklə birləşərək hər tərəfdə nəzərə çarpan saylar əmələ gətirir; onlardan mühafizə olunmaq çətindir. Sayların bu daimi dəyişkənliyi dənizin çəkilməsi zamanı dalğaların sahilə çarpması ilə daha da artır. Doğrudan da, deyirlər ki, çayın mənsəbi 12 çıxışa ayrılır; bunların bir qismi bağlıdır, digər qismi isə ləpədöyənə yaxındır və gəmilərin yan alması üçün yararsızdır. Sahil hər tərəfdən 60 stadiy məsafədə dəniz və çaylarla yuyulursa da, onun hər hansı bir hissəsinə keçmək çətindir; çöküntülər hətta 500 stadiy məsafəyə kimi uzanır və sahili qumlu edir. Ermənistandan axıb gələn gur Araks (*Araz*) yaxınlıqda dənizə tökülür. Araks çöküntüləri öz mənsəbinə doğru sıxışdırıb gətirməklə yatağını gəmiçiliyə yararlı edirsə də, onlar elə həmin miqdarda Kirə tökülür.

3. Bəlkə də belə adamlara dəniz heç lazım deyil. Axı onlar bəlli olan bütün bostan məhsulları, hər cür bitki yetişən torpaqdan da layiqincə istifadə etmirlər; həqiqətən də, bu torpaqda hətta həmişəyaşıl bitkilər yetişir. Bu zaman torpaq cüzi qulluq belə tələb etmir, bütün yer nemətləri, bu tərəfə yürüşə çıxanların onların «kiklop» həyat tərzindən bəhs edərkən dedikləri kimi, «şumlanmadan və əkilmədən yetişir» (Homer. Odisseya, IX, 109). Bu yazıçıların sözlərinə görə, bir dəfə əkilən torpaq çox yerlərdə 2 və ya 3 dəfə məhsul verir və ilk məhsul əkiləndən əlli dəfə artıq olur; özü də tarla herik altında qalmır və dəmir kotanla yox, ağac xışla şumlanır. Bu düzənlik bütünlüklə öz çayları və digər suları ilə Babilistanda və Misirdə olduğundan daha yaxşı suvarılır və həmişə öz yaşıl görkəmini qoruyub saxlayaraq otlaqlarla zəngin olur. Bundan əlavə, iqlim də burada o ölkələrə nisbətən daha əlverişlidir.

Üzüm tənəklərinin dibi axıradək bellənmir, onları yalnız beş ildən bir budayırlar. Cavan tənəklər artıq ikinci il bar verir, yetkinliyə çatdıqda isə o qədər çox salxım gətirir ki, onların böyük hissəsi dərilmədən budaqlarda qalır. Eynilə həm ev heyvanları, həm də vəhşi heyvanlar onların ölkəsində çox artımlı olur.

4. Oranın adamları yaraşıqları və hündür boyları ilə seçilirlər, həm də ürəyiaçıq olub xırdaçı deyillər. Özlərinin kəsilmiş sikkələri yoxdur, 100-dən o yana rəqəm tanımırlar, yalnız mal mübadiləsi ilə məşğul olurlar. Digər həyati məsələlərə münasibətdə də etinasızlıq göstərirlər. Dəqiq ölçülər və çəki onlara məlum deyil. Müharibə, dövlət quruculuğu və əkinçilik məsələlərinə laqeyd münasibət bəsləyirlər. Ancaq onların yüngül və ağır silahlı piyadaları da, atlıları da ermənilər kimi döyüşürlər.

5. İberlərə nisbətən onların daha böyük ordusu var. Onlar 60 000 piyada, 22 000 atlı silahlandıra bilirlər, Pompeyə qarşı da belə çoxsaylı qoşunla çıxmışdılar. Yadellilərə qarşı müharibədə köçərilər iberlərə olduğu kimi, albanlara da eyni səbəblərə görə kömək edirlər. Ancaq köçərilər tez-tez onlara (*albanlara*) hücum edərək əkinçiliklə məşğul olmalarına maneçilik törədirlər. Albanlar cida və kamanla silahlanıblar; onların iberlər kimi zirehli geyimləri, iri, uzunsov qalxanları, habelə heyvan dərisindən hazırlanmış dəbilqələri var. Albanların ölkəsinə Kaspiana vilayəti də daxildir ki, adını indi yoxa çıxmış qəbilənin adından götürüb; qəbilənin adı ilə dəniz də elə adlandırılıb. İberiyadan Albaniyaya keçid susuz və daş-kəsəkli Kambisena vilayətindən Alazoniy çayına doğru gedir. Albanların özləri də, itləri də ovçuluğa çox meyillidir, həm də bacarıqdan daha çox bu məşğuliyyətə qızğın həvəsləri olduğu üçün.

6. Onların hökmdarları da görkəmlidir. Əgər əvvəllər öz dili olan hər qəbilə öz hökmdarı tərəfindən idarə olunurdusa, indi onlarda bir hökmdar bütün qəbilələri idarə edir. Onlarda 26 dil olduğu üçün bir-birləri ilə çətin ünsiyyət qururlar. Bu ölkədə bir para zəhərli sürünənlər, həmçinin əqrəblər və zəhərli hörümçəklər var. Bəzi zəhərli hörümçəklərin sancması adamları gülə-gülə, bəzisinin də sancması həlak olmuş qohumlarının həsrətindən ağlaya-ağlaya ölməyə məcbur edir.

7. Tanrılardan onlar Heliyə, Zevsə və Selenaya, xüsusilə də ibadətgahı İberiya sərhədləri yaxınlığında yerləşən Selenaya sitayiş edirlər. Onlarda kahin vəzifəsini hökmdardan sonra ən hörmətli adam icra edir: o, böyük və əhalisi sıx olan müqəddəs vilayətin başçısıdır və bir çoxu tanrı divanəsi kimi gələcəkdən xəbər verən məbəd qullarını idarə edir. Kahin onlara tanrı divanəsi olub meşələrdə tənha dolaşanları tutmağı və müqəddəs zəncirlə bağlayıb tam bir il dəbdəbə ilə saxlamağı əmr edir; sonra ilahəyə qurban verilməyə hazır olana ətirli yağ sürtürlər və digər qurbanlarla birlikdə kəsirlər. Qurbankəsmə belə icra edilir: camaat arasından bu işə yaxşı bələd olan bir nəfər əlində, adətən, insan qurbanlığı üçün nəzərdə tutulan müqəddəs nizə ilə irəli çıxır və onu yan tərəfdən qurbanın ürəyinə sancır. Qurban yerə yıxılanda onun yıxılmaq üsulunda gördükləri xüsusi əlaməti hamıya elan edirlər. Sonra cəsədi məlum yerə gətirirlər və hamı təmizlənmə ayinini icra edərək onu ayaqları ilə tapdalayır.

8. Qocalar albanlarda fövqəladə hörmət sahibidirlər, özü də yalnız valideynlər yox, başqaları da. Ölülərə qayğı və hətta onların xatırlanması belə günah sayılır. Ölənlərlə birlikdə onların bütün əmlakını torpağa basdırdıqları üçün ata varidatından məhrum olaraq kasıb yaşayırlar. Albanlar haqqında mənim məlumatım bu qədər. Rəvayətə görə, İason fessaliyalı Armen ilə birlikdə kolxlara tərəf səyahət edərkən Kaspi dənizinə kimi gedib çıxıb, İberiyada, Albaniyada, Ermənistanın və Midiyanın böyük hissəsində olub; oralardakı İason ibadətgahları və bəzi digər abidələr də bunu sübuta yetirir.

Klavdiy Ptolemey
Albaniya–İberiya sərhədi haqqında
(«COĞRAFİ TƏLİMNAMƏ» əsərindən)

V kitab, 8-ci fəsil
Asiya Sarmatiyasının mövqeyi
II Asiya xəritəsi



Klavdiy Ptolemey

11. Ondan sonra [təmas xətti] İberiya sərhədi üzrə *gedir*; burada Sarmat Qapıları – 77° – 47° aralığında yerləşir; sonra sərhəd Albaniya boyunca Hirkan dənizinə kimi (*davam edir*)...

V kitab, 10-cu fəsil
İberiyanın mövqeyi. III Asiya xəritəsi

1. İberiya... şərqdə göstərilən sərhədləri 77°-dən 47°-dək birləşdirən xətt üzrə Albaniya ilə həmsərhəddir.

Leonti Mroveli Cənubi Qafqazda sərhədlər haqqında («KARTLİ HÖKMDARLARININ HƏYATI» salnaməsindən)

Hər şeydən əvvəl xatırladaq ki, ermənilərin və kartlilərin (*gürcülərin*), ranların (*aranların*) və movakanların, erlərin və leklərin, meqrellərin və kavkasianların – bütün [bu xalqların] Tarqamos adlı ümumi bir atası olub...

...Onun oğulları arasında səkkiz qardaş öz gücü və qəhrəmanlığı ilə fərqlənib; onların adları belədir: birincisi – Haos, ikincisi – Kartlos, üçüncüsü – Bardos, dördüncüsü – Movakan, beşincisi – Lek, altıncısı – Eros, yeddincisi – Kavkas, səkkizincisi – Eqros...

...Tarqamos torpaqları bölüşdürdü...

...Kartlosa pay verdi və [onun] sərhədlərini təsdiqlədi: şərqdə – Ereti və Berduci çayı; qərbdə – Pont dənizi; cənubda – Berduci çayının mənbəyindən uzanan dağ, suları şimala istiqamətlənərək Klarceti və Tao dağları arasından dənizədək axan Kür çayına tökülən, qərbə gedən dağ; və şimalda sərhəd Qado və Qadonun qurtaracağına dirənən, Qafqazın bir qolu olan, indi Lixi adlanan Kiçik Dağdır. Onların arasındakı bütün [torpaqları Tarqamos] Kartlosa verdi.

Bardosa Berduci çayından Kürlə Raxsinin (*Arazın*) qovuşuğuna kimi Kürdən cənubdakı [torpaqları] verdi. Həmin Bardos Bardavi (*Bərdə*) şəhərini tikdi və orada bərqərar oldu.

Movakana Kiçik Alazanın (*İori, Qabırrı*) mənsəbindən dənizə kimi Kürdən şimaldakı [torpaqları] verdi. O, Movakneti şəhərini tikdi və orada bərqərar oldu.

Erosa Kiçik Alazanın mənsəbindən indi Qulqula adlanan Tketbaya kimi Kürdən şimaldakı ölkəni verdi. Həmin Eros hər şeydən əvvəl iki Alazanın (*Qabırrı və Qanıx*) qovuşduğu yerdə şəhər tikdi və onu öz adı ilə Ereti adlandırdı. Ona görə də [bu ölkə] Ereti adlanır. İndi həmin yer Xoranta adlanır...

Qeydlər

1. Strabon (təqribən e.ə. 64/63 – e. 23/24-cü illər) — qədim yunan tarixçisi və coğrafiyaçısı. Bizə gəlib çatan, qədim dünyanın coğrafiyasının öyrənilməsi üçün ən yaxşı mənbə sayılan 17 kitabdan ibarət "Coğrafiya" əsərinin müəllifidir.
2. Xeroneyalı Plutarx (təqribən 46 – 127-ci illər) — qədim yunan filosofu, bioqrafı, moralisti.
3. Solin QayYuli – III əsrdə yaşamış Roma yazıçısı. Bizim zəmanəyədək gəlib çatan "Xatırlanmağa layiq olanların toplusu" əsərinin müəllifidir. "Aralıq dənizi" terminini ilk dəfə Solinin əsərində rast gəlinib.
4. Makedoniyalı İsgəndər (e.ə. 356 – 323-cü illər) – e.ə. 336-cı ildən Makedoniya hökmdarı, ölümündən sonra parçalanan cahan dövlətinin qurucusu. Qərb tarixçiliyində daha çox Böyük İsgəndər kimi tanınır.

5. Tiflis Müsəlman Əmirliyi (654-1122-ci illər) – mərkəzi Tiflis şəhəri olan müsəlman dövləti. IX əsrin ortalarından bu əmirliyin ərazisində qalan yeganə müsəlman şəhəri Tiflis idi. O zaman Tiflis Dərbənddən sonra Qafqazın ikinci ən böyük şəhəri idi və müsəlman şəhəri üslubunda qurulmuşdu. 1122-ci ildə baş vermiş Didqori döyüşü nəticəsində Tiflis Müsəlman əmirliyi ləğv edilərək Gürcüstan hökmdarlığının tərkibinə qatıldı. Tiflis əmirliyi dövründə hakimiyyət ardıcıl olaraq 3 nəslin (sülalənin) – Şüeybilər, Şeybanilər və Cəfərilərin əllərində cəmləşmişdi.
6. Klavdiy Ptolemey, bəzi hallarda Ptolomey (təqribən 100-170-ci illər) – astronom, astroloq, riyaziyyatçı, mexanik, optik, musiqi nəzəriyyəçisi və coğrafiyaçı. Ellinizmin ən böyük isimlərindən biri. Ptolemeyin mühüm əsəri sayılan "Coğrafi təlimnamə" (səkkiz kitab) antik xalqlara bəlli olan bütün dünya coğrafiyası haqqında biliklər toplusudur. Bu risalələrdə Ptolemey riyazi coğrafiya və xəritəçəkmənin əsasını qoyub, Skandinaviyadan Misirə və Atlantikadan Hind-Çinə qədər səkkiz min məntəqənin koordinatlarını, eləcə də yer səthinin 27 xəritəsini dərc edib. Bütün qeyri-dəqiqliklərinə baxmayaraq, bu məlumat və xəritələr yerin məskun sahələrinin genişliyini və onlar arasında əlaqə olduğunu göstərən ilk mənbələrdir.
7. Sarmat qapıları (indiki Krestovı aşırımı) – Dəryal dərəsi, Terek çayı vadisindədir; Dağ keçidi olaraq qədimdən məlumdur, müxtəlif zamanlarda Qafqaz, Sarmat, İveriya (Gürcüstan) Qapısı adlandırılıb. Farsdilli qaynaqlarda bu yer "Dəri-alan" ("Alan qapısı") adlanır. Rusca "Daryal", osetincə "Dayran" adı da bundan əmələ gəlib.
8. Böyük Pliniy (24 – 79-cu illər) – Qədim Roma tarixçisi. Antik çağın "Təbii tarix" adlı ən böyük ensiklopedik əsərinin müəllifidir.
9. Okazan-Ksani – Gürcüstan və onun bir vilayəti olan Cənubi Osetiyada çay, Kürün sol qolu.
10. Givi Tsulaya – sovet tarixçisi, tarix elmləri doktoru, tarix, mənbəşünaslıq, filologiya, etnoqrafiya və onomastika üzrə mütəxəssis, orta əsrlər və qədim dövr gürcü yazılı mənbələrinin rus dilinə bir sıra tərcümələrinin müəllifi.
11. David Musxelişvili – Gürcüstan Milli Elmlər Akademiyasının akademiki, EA Tarix, Arxeologiya və Etnologiya Komissiyasının sədri, Tarix, Etnologiya və Dinin Öyrənilməsi və Təbliği üzrə Elmi Mərkəzin sədri, Gürcü Kilsəsi yanında Beynəlxalq Xristian Araşdırmalar Mərkəzi idarə heyətinin sədri.
12. "Kartli hökmdarlarının həyatı" xronikası – bu qaynaqların tərtibinə XII əsrdən başlanıb və yəqin ki, Cənubi Qafqaza monqol yürüşünün doğurduğu fasilədən sonra, XIVəsrdə bu iş yenidən bərpa olunub.
13. Xrami (azərbaycanca Anaxatır) – Gürcüstanın şərq və qismən Azərbaycanın qərb hissəsində çay, Kürün sağ qolu.
14. Kür (rusca Kypa, gürcücə Mtkvari; lap yuxarı axarında – Karasu) – Cənubi Qafqazın ən iri çayıdır. Xəzər dənizinə tökülür, üç dövlətin – Türkiyə, Gürcüstan və Azərbaycanın ərazisindən axır, Gürcüstan və Azərbaycanın əsas çayıdır. Kür hövzəsinin bir qismi (başlıcası da, onun ən böyük qolu Araz) Ermənistan və İran ərazisindədir. Kürün uzunluğu1364 km, hövzəsinin sahəsi 188 min km²-dir.
15. Akaki Şanidze (1887 – 1987) – gürcü filoloqu (dilçi, ədəbiyyat tarixçisi, folklorçu), SSRİ EA-nın müxbir üzvü (1939), N.Y.Marrın şagirdi.
16. Kürmük – Qax rayonunda yerləşən qədim alban məbədi, həm müsəlmanlar, həm də xristianlar tərəfindən ziyarət olunur.

17. Miletli Hekatey (təqribən e.ə. 550 - 490) – qədim yunan tarixçisi və coğrafiyaçısı, Herodotun sələflərindən biri. “Yerin təsviri” coğrafi əsərini yaradarkən həm öz müşahidələrindən, həm də o vaxtlar İoniyada yayılmış naviqasiya üzrə praktik vəsaitlərin materiallarından istifadə edib. Miletli Anaksimandrın tərtib etdiyi ilk yunan coğrafiya xəritəsindən surəti çıxarılan xəritələrlə tamamlanan bu qaynaq Aralıq dənizi və Qara dəniz ölkələrini, xalqlarını və şəhərlərini təsvir edir.
18. Əbül-Həsən Əli ibn əl-Hüseyn əl-Məsudi (896 – 956) – ərəb tarixçisi, coğrafiyaçısı və səyyahı. Əvvəllər pərakəndə olan tarixi və coğrafi müşahidələri ensiklopedik xarakterli böyük həcmli əsərdə birləşdirən ilk ərəb müəllifi. “Ərəblərin Herodotu” kimi tanınır. İbn Xəldun onu bütün tarixçilərin “imamı” (rəhbəri) adlandırıb.

AZƏRBAYCAN ƏCNƏBİLƏRİN GÖZÜ İLƏ

Redaksiyadan:

Məlum olduğu kimi, 2017-ci ildə Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi tamam olur. Azərbaycan xalqının tarixində və mədəniyyətində dərin iz qoymuş bu hadisə UNESCO-nun "2016–2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilib. Bununla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 avqust 2016-cı ildə imzaladığı sərəncamda deyilir: "Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində buraya köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurması üçün əlverişli zəmin yaratmışdır. Məskunlaşdıqları və qaynayıb-qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək lazımınca qoruyub saxlamışdır. Bir-birinin milli dəyərlərinə qarşılıqlı hörmət və ehtiram Azərbaycan və alman xalqlarının mədəni əlaqələrini səciyyələndirən başlıca cəhətdir. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər".

Bu əlamətdar tarixi hadisənin ildönümünə öz töhfəsini vermək məqsədilə "Multikulturalizm" jurnalı 5 il sovet hərbi əsirliyində olmuş alman zabiti Villi Deşin xatirələrindən parçaları dərc edir.

7 aprel 1925-ci ildə Reyn sahilindəki Vorms şəhərində doğulmuş Villi Deş 1945-ci ildə əsir düşəndən ta vətəninə yola salınana qədər gündəlik yazıb. Azərbaycan ərazisindəki əsir düşərgəsində saxlanmış, Mingəçevir şəhərinin və buradakı su bəndinin tikintisində iştirak etmiş alman zabitinin maraqlı müşahidələri həmin gündəliklərdə əksini tapıb. Villi Deş qeyd dəftərçələrində müxtəlif peyzajlar da çəkib, adı bizə məlum olmayan azərbaycanlıların portretlərini kağız üzərinə köçürüb. Villi Deşin gündəliyində Mingəçevirin hələ tikilməmişdən əvvəlki fotosu, Kür çayı üstündən salınan körpünün və digər obyektlərin çertyojları da təsvir olunub. Qeydlərində yerli əhali haqqında müsbət fikirlər yazan Villi Deş müstəqillik dönəmində Azərbaycana gəlib, Mingəçevirdə olub. Keçmiş hərbi əsir ölkəmizdə olarkən almanların dəfn edildiyi qəbiristanlığın necə abad və səliqəli saxlandığından çox təsirlənib.

Villi DEŞ

Alman əsirin gündəliyi*

(ixtisarla)

Müəllifdən

Mənim 1945-50-ci illər arası sovet hərbi əsirliyində olduğum dövrdən bəhs edən qeydlərim düşərgədə yazdığım və vətənimə böyük risk altında, gizli şəkildə keçirdiyim gündəliyin xeyli hissəsini əhatə edir.

Əsirlikdə müntəzəm aparılan yoxlamalar zamanı sovet hərbçiləri bütün yazılı qeydləri zorla əlimizdən alırdılar. Sonuncu belə axtarış mən evə qayıdarkən Brest-Litovskda aparıldı. Yoxlamadan çılpaq şəkildə keçdiyimizə, olan-qalan əşyalarımızı qolumuzun üstündə daşıdığımıza baxmayaraq, üzərimizdə yenidən hərtərəfli axtarış aparıldı. Burada hərbi əsirlərin hamısına qarşı eyni münasibət vardı. Bütün çətinliklərə baxmayaraq, mən öz gündəliyimi gözdən yayındırmağı bacardım.

Burada yazılanlar sovet hərbi əsirliyində olduğum zaman sağ qalmaq üçün apardığım çətin mübarizədə yaşadıqlarımın əksidir. Başıma gələnləri bacardığım qədər obyektiv təsvir və şərh etməyə çalışmışam.

Düşünürəm ki, mənim yaşadıqlarımın tarixi əhəmiyyəti var, bunları qorumağa dəyər. Mən öz qeydlərimin surətini Almaniyanın İlava, Thorn, Breslau-Hundsfeld düşərgələrində, eləcə də Azərbaycanda, Mingəçevirdə mənimlə birlikdə əsirlikdə olmuş dostlarıma da göndərmək fikrindəyəm. Onlardan bu qeydləri nəzərdən keçirməyi və öz əlavələrini mənə göndərməyi xahiş edirəm. Hər birinin xatirələrini öz adı, imzası altında yazılarıma əlavə etmək niyyətindəyəm.

Aprel, 1992-ci il

1991-ci ildə SSRİ dağılandan bir müddət sonra Azərbaycana səfər etmək imkanı yarandı. Mən və yoldaşlarımdan bəziləri artıq bu fürsətdən yararlanmağı nəzərdə tutmuşduq.

Geri dönmək, sovet əsirliyində aclıq, distrofiya və malyariyadan həlak olmuş, həyatı vətəndən uzaqda puça çıxmış 2000-ə yaxın əsir yoldaşımı xatırlamaq istəyirdim...

1946-cı ilin iyul ayında Mingəçevirdə 9000 hərbi əsir vardı. Ölənlərin sayı dəqiq bilinmirdi; onları yalnız təxmin etmək olardı.

Veydmana görə, 1946-cı ilin oktyabr ayının 24-ü üçün düşərgədə 625, 1947-ci ilin iyun ayının əvvəli üçünsə 1051 əsir qəbri olub.

Hans Ştürmer daha böyük rəqəmlər gətirir. Mən ümumilikdə 2000-2300 hərbi əsirin öldüyünü güman edirəm. Başqa sözlə, 9000 məhbusun dörddəbiri ölmüşdü. Bu, çox kədərli nəticə idi.

* *Əvvəli ötən saylarımızda*

Mən 1945-ci ilin 8 mayından 1950-ci ilin 5 yanvarınadək sovet əsirliyində olmuşam. 1946-cı ilin 20 yanvarından 1949-cu ilin 17 dekabrınadək Mingəçevirdəki 7444 saylı əsir düşərgəsində qalmışam. Mən və düşərgə dostlarım Hans Ştürmer, Alfred Pilars, Qöts Bernklau və Manfred Kensler 50 ildən də artıq müddətdən sonra keçmişimizə aid həmin məkanlara turist kimi qayıtdıq.

1998-ci ilin may-iyun aylarında Azərbaycan haqda söhbət edərkən məlum oldu ki, Qötsün Bakı ilə təmasları var. Hans Bruxzaldakı "Erka-Reisen" şirkətinin vasitəsilə səfər üçün lazımi sənədləri hazırladı, ABŞ-da olan Alfredi, həmçinin Manfred, Ludviq və məni məlumatlandırdı. Qötz, Hans və mən səfər müddətini, Bakı və Şəkidə (Nuxa) gecələmək üçün yerləri müəyyənləşdirdik. Qöts viza, Hans isə Bakıda yerləşmə, uçuş və sığorta məsələlərini həll etdi. Qötsün Bakıda dostları vardı, o, Almaniyanın Bakıdakı səfirliyini də məlumatlandırmışdı.

1998-ci il, 8 sentyabr, çərşənbə axşamı. Uçuş müddəti: 18:00-18:55 FRA-ZRH (Frankfurt-Sürix). Manfredlə birlikdə Sürixdə Hans, Qöts və Alfredlə görüş.

Uçuş müddəti: 20:45-04:20 ZRH-BAK (Bakı vaxtı).

9 sentyabr, çərşənbə. Hava limanında bizi "Avis" şirkətinin rəhbəri, Qötsün dostu Fuad qarşıladı. 9 nəfərlik "Ford Transit" avtomobili ilə sürətlə Bakıdakı "Azərbaycan" mehmanxanasına çatdıq. Saat 06:00. Xəzər dənizi sahilindəki bulvarın 150 metrliyində qalırdıq. Hans ilə 915 nömrəli otaqda yerləşdik. Hamı bizim yanımıza yığışdı. Mərtəbənin xanım qulluqçusu bizə çay hazırladı.

Saat 12:00. Mehmanxana. Fuad bizə tərcüməçi Yozefi və sürücü Romanı təqdim etdi. Avtobusla "Avis" şirkətinin İçərişəhərdəki ofisinə getdik. Şirvanşahlar sarayını bələdçinin köməyi ilə gəzdik. Xalça bazarında, Qız qalasında olduq. Sonra çay fasiləsinə çıxdıq. Almaniya səfirliyini ziyarət etdik. Dr.Viek səfərimizlə maraqlanırdı. Bizə Azərbaycandakı alman məskənlərinin şəkillərini göstərdi. Sonra vaxtilə Kirovun abidəsi qoyulmuş yerə getdik. Buradan liman və şəhər çox möhtəşəm görünürdü.

Karvansaradakı restoranda bizimlə yanaşı tərcüməçi də oturmuşdu. Keçmişdə bu karvansarada büxur və mirra kimi ətirli maddələri Qərbə aparan və ya İpək yolu ilə Çinə səyahət edən tacirlər qalarmış. Karvanlar darvazadan içəri, daş hasarlı həyətə daxil olar, səyahətçilər dəvələri birinci mərtəbədə saxlayar, yükü də burada qoyub, özləri yuxarı mərtəbədəki hücrələrdə dincələrmişlər.

Saat 17:30. Mehmanxanada asudə vaxt.

Saat 19:00. Təqribən 20 kilometr aralıdakı milli Azərbaycan restoranına gediş. Fuad, Yozef və Roma da yanımızda idilər. Daha sonra göbək rəqsini izlədik. Saat 23:00-da mehmanxanaya qayıtdıq.

10 sentyabr, cümə axşamı. Şəkiyə (Nuxa) yola düşdük. Ağsudan Şəkiyə qədər olan ərazi Alpların dağətəyi yerlərinə oxşayır. 320 kilometr məsafə qət etdikdən sonra saat 16:00-da Şəkiyə çatdıq. Hans, Alfred, Manfred və mən

1947-48-ci illərdə Nuxadakı istirahət düşərgəsində olmuşduq. İndi isə yuxarı karvansarada 5 gün gecələməyi planlaşdırırdıq. Restoranla birgə çox romantik istirahət məkanı idi. Karvansaranın həyəti də möhtəşəm idi. Bizə xoş üz göstərən yerli əhalinin köməyilə, nəhayət ki, Şəki xan sarayının mühafizə divarının aşağı hissəsində vaxtilə düşərgə yerləşmiş ərazini və uşaq evini tapdıq. Köhnə bazarı tapmadıq. İndi yalnız yeni bazar var və biz ora da baş çəkdik. Yenidən düşərgə ərazisinə getdik. Yaşlı adamlar bizi məlumatlandırırdılar.

11 sentyabr, cümə. Saat 08:30. Mingəçevirə yollandıq. Keçmiş düşərgəyə 70 kilometr məsafə vardı. Əvvəlki çöllüklər indi yaşıllaşdırılmış və iqtisadi baxımdan inkişaf etmişdi. Yol boyu xeyli qoyun-quzu, mal-qara vardı. Suvarma kanalları görünürdü. 50 ildən sonra yenidən Mingəçevirdə. Bizə yaxşı tanış olan dəmiryol körpüsünə tərəf istiqamət götürdük, sonra su bəndinə və Boden gölü boyda su anbarına doğru getdik. Çox təsirli mənzərə idi. Şəhərə tərəf irəliləyib bizim düşərgənin yerləşdiyi ərazini axtarmağa başladıq. Su bəndinin arxasında düşərgənin yanından keçən yolu tapdıq. 3 kilometrlik yol boyunca keçmiş düşərgə ərazisində, məzarlıq yerində heç bir tikiliyə rast gəlmədik, buralarda yalnız yaşıllıqlar vardı.

Mehriban sakinlər düşərgə qəbiristanlığını axtarmaqda bizə kömək edirdilər. Öyrəndik ki, məzarlıq ərazisi yalnız 2-3 il öncə kol-kosdan təmizlənib, burada səliqə-sahman yaradılıb. Alman hərbi əsirlərinin məzarlarını qorumaq üçün daş hasarlama işlərinə də başlanmışdı. Həlak olmuş 2000-ə yaxın yoldaşımızın məzarı başında dayanmaq çox ağır idi.

Avtomobilə oturub 50 il qabaq tikdiyimiz dəmiryol körpüsünə getdik. Paralel salınmış adi yol körpüsündən Kür çayının qarşı sahilinə keçib, çay boyu yuxarıya, su bəndinə doğru irəlilədik. Keşikçi ilə qarşılaşdıq. Enerji meydanının yanındakı arxeoloji təpəyə çıxdıq. Su bəndi və kanallar buradan yaxşı görünürdü. Yuxarıdan çox gözəl mənzərə açılırdı: Kür çayı vadisi, Mingəçevir və su bəndi. Kürün o biri sahilindəki düşərgə məzarlığını da görmək olurdu. Saat 18:00-da Şəkiyə karvansaraya döndük. Saat 20:00-da axşam yeməyinə şəhər kənarındakı "Təbriz" restoranına getdik. İki saat orada olduq.

12 sentyabr, şənbə. Şəhərin tarixi hissəsi ilə gəzişə-gəzişə Şəki xan sarayına çatdıq. Sarayın bütün otaqlarını bizə göstərdilər. Burada italyanlar da vardı. 250 illik tarixi olan əlvan pəncərələr adama xoş təsir bağışlayırdı. Sarayın çölündə su hovuzu olan bağ və mühafizə divarı vardı. Divarın 50 metrliyində bir vaxtlar bizim istirahət düşərgəmiz yerləşirdi. Yaxınlıqdakı məktəbə gedib siniflərdən biri ilə tanış olmaq istədik. İcazə verdilər. Uşaqlar Azərbaycan himnini oxudular. Səliqəli və yaraşıqlı idilər. Sual veriləndə ayağa durdular.

Ozamankı hamam tikilisini giriş qapısından və pilləkənlərindən tanıdım. Buradakı iki yaşlı kişi hərbi əsirlərdən ibarət qrupları hələ də xatırlayırdı. Bizə qoşulan keçmiş direktor buranın Nuxanın ən gözəl hamamı olduğunu bildirdi.

Saat 12:00-da yeni bazarda günorta yeməyi, sonra gəzinti. Toyuqları, qazları ayaqlarından bağlamışdılar. Bazarın içində soğan və kartof dolu maşınlar, bıçaq itiləyənlər vardı. Orada çox şeylə rastlaşmaq olardı.

Saat 15:00-da saysız-hesabsız qoz-fındıq ağaclarının yanından ötüb şimal-qərb istiqamətinə, Zaqatalaya doğru hərəkət etməyə başladıq. 740 yaşlı qədim çinar ağacı. Böyük park ərazisi. Geri qayıdarkən yerli sakinlərlə birgə Qaxdakı milli təbiət qoruğuna istiqamətləndik. Oradan Rusiya ilə sərhədə 6 kilometr qalırdı. Geri qayıtdıq. Saat 20:00-da "Təbriz"də axşam yeməyi.

13 sentyabr, bazar günü. Bu gün bizdəki kimi, Azərbaycanda da qeyri-iş günüdür. Yağışlı havada Mingəçevirdən keçib Gəncəyə yollandıq. Bizim 50 il əvvəl yol işlərində (dəmiryol üçün torpaq tökümü) istifadə etdiyimiz xərəklə "yaraqlanmış", geyiminə M hərfi həkk olunmuş iki nəfərlə rastlaşdıq. Qoşqusunda yük daşınan çoxlu üçtəkərli motosikl gördük. 1946-48-ci illərdə dəmiryol xətti ilə birlikdə saldığımız Mingəçevir–Yevlax yolu boyunca gedirdik. Mənim işlədiyim tikinti sahəsində yerləşən oksigen zavodunun yanında indi ikiturbinli elektrik stansiyası vardı. Stansiyanın maye yanacaq və ya qazla işlədiyini öyrəndim; turbinlərdən zəhərli qaz çıxmırdı. Su elektrik stansiyası ikinci dərəcəli idi. Suqaldıran bənd suvarma üçün daha vacib idi.

Bakı–Tbilisi magistralına, İpək yolunun bir parçasına çatdıq. Saat 12:00-da Gəncədə idik. Bazar yaxınlığında yemək yedik. Məscidi ziyarət etdik. Məscidin rəhbəri bizi salamladı. Burada kişi və qadınlar üçün ayrılmış yerlərin arasından pərdə asılmışdı. Azərbaycanlıların 75 faizi şiədir. Gəncədə xristian kilsəsi də var, amma həmin gün bağlı idi. Pivəxanalara da getdik. Xanlar (Göygöl) rayonuna, keçmiş alman qəsəbəsi Helenendorfa doğru yolumuza davam etdik. 1880-1900-cü illərdə tikilmiş Simens fabriklərini asanlıqla ayırd etmək olurdu. Burada yaşayan almanlar 1941-ci ildə Qazaxıstana sürgün edilmişdilər. Bakıda alman səfirliyində olanda Helenendorfun fotolarını görmüşdük.

Gəncədə hərbi əsir qəbiristanlığında olduq. Burada dəfn olunanların çoxu rumınlar və macarlar idi. Məzarlıq daş hasara alınmışdı. Qazaxıstan sürgünündən salamat qayıtmış bir yerli adam bizi evinə dəvət etdi; muzey kimi bir ev idi. Qəribə adamdı. Radar stansiyasında çalışırdı.

Eyni yolla geri qayıtdıq. Yevlax və Mingəçevirin içinə girmədik, yanından ötdük.

Saat 19:00. "Təbriz"də axşam yeməyi. Saat 21:00, karvansara. Radioda "Doyçe Velle": Bavariyada seçkini CSU-dan (*Almaniyada "Xristian-Sosialist İttifaqı" siyasi partiyasının qısaldılmış adı – tərc.*) olan Ştoyber udur.

14 sentyabr, bazar ertəsi. Saat 09:15-də səhər yeməyi yemədən Mingəçevirə yollandıq. Günəşli bir gün idi. Tərcüməçi Yozef Azərbaycanda keçmiş hərbi əsirlər kimi bizə hörmətlə yanaşıldığını və bizim ardımızca digərlərinin də buralara gələcəyini güman etdiyinə görə Mingəçevir şəhəri ilə turizm əlaqələri yaratmağa çalışırdı. Öncədən xəbərdarlıq edilməsə də, şəhər icra hakimiyyəti başçısının müavini bizi qəbul etdi. Görüş yaxşı mühitdə keçdi; həmin il bu gənc şəhərin 50 yaşı qeyd olunurdu. Bizsə onun tikilməsində şəxsən iştirak etmişdik. İcra başçısının müavini bizə suqaldıran bəndin tikintisinə aid şəkilləri göstərdi. Şəkillərdə "öz beton fabrikimi" gördüm.

Saat 12:00-da Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı bizi böyük görüş otağında qəbul etdi. Mülayim insan idi, bizə "xoşgəldin" elədi. O bizi şəhərin 50 illik yubileyi ilə bağlı iki ay sonra – noyabrda keçiriləcək tədbirə dəvət etdi. Qəbula görə təşəkkürümüzü bildirdik, hərbi əsirlərin gördüyü işlərdən, əsasən dəmiryol üçün torpaq bəndin, Yevlaxa aparan yolun salınmasından, Samuxda sıx meşənin qırılıb təmizlənməsindən, Kür çayında kanal və körpü işlərindən, su bəndi ilə bağlı hazırlıq işlərindən, kanalın qazılmasından söz açdıq. Suqaldıran bəndlə bağlı fəaliyyətimi özümlə gətirdiyim şəkillərlə izah etdim, apardığım tədqiqatlardan danışdım. Görüş zamanı azərbaycanlıların almanlara daim yaxşı münasibət bəslədiyi vurğulandı. Günorta yeməyinə qonaqlar üçün nəzərdə tutulmuş şəhər restoranına dəvət edildik.

Su bəndi, su anbarı və enerji təchizatı qurğuları sayəsində Mingəçevir Azərbaycanın region əhəmiyyətli şəhərinə çevrilmişdi. İcra başçısı birlikdə çalışdığım azərbaycanlıların adlarını xatırlayıb-xatırlamadığımı soruşdu. Uzağı bir neçə saata onları tapıb bura gətirə bilərdilər. İcra başçısı mənə gipsdən hazırlanmış qartal heykəli və öz vizit kartını bağışladı, sonra məni Kür çayı sahilindəki restorana getmək üçün öz avtomobilinə dəvət etdi. Alfred yanımda əyləşdi, qalanları avtobusla arxamızca gəlirdilər. Restoran Kürdən 50 metr aralıda yerləşirdi. Kürün digər sahilində vaxtilə düşərgə rəisinin qaldığı "Cəfərovun evi", onun yanında isə şəhərin rəsmi qonaqları üçün nəzərdə tutulmuş mehmanxana görünürdü. İcra başçısı bizə orada qalmağı təklif etdi. Təşəkkür edərək Şəkidə qaldığımızı bildirdik.

Saat 13:00-15:00. Çaxır, "vodka", qoyun əti, balıq, təndir çörəyi, xiyar, pomidor və tərəvəzlər düzülmüş süfrənin ətrafında hamı yaxşı əhvali-ruhiyyədə idi. Səfər müddətində bu qədər dadlı yeməklər yeməmişdik. İcra başçısını sürücüsü müşayiət edirdi. Başçı bizə məzarlıq, dəmiryol körpüsü (artıq istifadə edilmir), Kür çayının axınının zəiflədilməsi, Samux meşəsinin, o cümlədən üç kəndin su altında qalması, su elektrik stansiyası, yağ və qazla işləyən ayrıca elektrik stansiyası, su bəndinə polis nəzarəti (sabotajdan ehtiyat edilir), şəhərin noyabra planlaşdırılan yubiley mərasimi və s. mövzularda həvəslə məlumat verirdi. Məlum oldu ki, icra başçısının atası Samux meşəliyində salınmış kənddən olub, özü də vaxtilə sürücü kimi hərbi əsirləri Mingəçevirə daşıyıb. Başçı bunu da dedi ki, artıq Mingəçevirin 120.000 əhalisi var (1950-ci ildə burada cəmi 10.000 nəfər yaşayırdı). Dağlıq Qarabağ münaqişəsi nəticəsində qaçqın və məcburi köçkünlərin gəlişi şəhərdə əhalinin sayını 15.000 nəfər artırıb.

Nəhayət, mehriban və səmimi şəkildə vidalaşıb onlardan ayrıldıq. Bələdçi ilə birlikdə Kür çayının həmin sahili boyunca su bəndi istiqamətində təxminən 500 metr irəlilədik. Alfreddən başqa hamımız arxeoloji təpədən ən hündür zirvəyə – 120 metr yuxarıya qalxdıq. Mənzərə çox gözəl və cümə günü olduğundan daha yaxşı idi, çünki çox yuxarı qalxmışdıq. Kür çayı vadisi, Mingəçevir (mərkəz gözlə görünmürdü), su bəndi və su anbarı.

Bələdçimizlə birgə Kürü keçib Mingəçevir şəhər muzeyinə çatdıq. Bizi əsasən su bəndinə aid sənədlər maraqlandırırdı. Amma onların sayı çox deyildi. Su anbarının altında qalmış Samux meşəsində, çay döngəsinin yaxınlığındakı çınqıl karxanasında çəkilmiş şəkillərdən birində əks olunmuş bir hərbi əsiri tanıdım. Bundan başqa, hərbi əsirlərə aid şəkil tapılmadı. Sənədlərimin bir hissəsini (gündəliyin icmalı), su bəndi üzrə hesabatı və eskiz nümunələrini muzeyin arxivinə bağışladım.

Saat 17:30-dan 19:00-dək yol gedib Şəkiyə çatdıq.

Saat 19:30-22:00. Axşam yeməyi üçün avtobusla Şəkidən yuxarıda yerləşən bir kafeyə getdik. Buradan şəhərin gözəl mənzərəsi açılırdı. Günəşin qürubu bizi çox təsirləndirdi. Bundan sonra karvansarada hamı başımıza toplaşdı. Macəra dolu, möhtəşəm və təkrarolunmaz bir gün keçirdiyimizin fərqindəydik.

15 sentyabr, çərşənbə axşamı. Saat 10:30-da Yevlax–Ağsu istiqamətində yola düşdük. Dağ aşırımından keçib Şamaxıya üz tutduq. Aşırımda açıq havada yemək yedik. Şamaxını keçəndən sonra gəldiyimiz yolla da geri qayıtdıq.

Saat 16:00-da Bakıda idik. "Avropa" mehmanxanasının yanından ötüb ABŞ səfirliyinə getdik. Səfirlik ciddi mühafizə olunurdu. Maşını yaxınlıqda saxladıq. ABŞ vətəndaşı kimi Alfred qapıda şəkil çəkdirmək istəyirdi. Yolumuza davam edib Rusiya səfirliyinin yanından ötərək "Avis"ə çatdıq. İçərişəhərdə avtobusun yoxlanışı oldu.

Saat 18:30. Mehmanxanada yeni otaqlar sifariş verdik. Bir az dincəldik.

Saat 20:15. Bakıya gəldiyimiz gün oturduğumuz restorana axşam yeməyinə yollandıq. Fuad da yanımızda idi. Musiqi təşkil olundu. Restoranın bağçasında oturub yemək yedik.

Saat 22:15. Mehmanxanaya qayıtdıq.

16 sentyabr, çərşənbə. Saat 03.30-da yuxudan oyandıq. Hamı çay içmək üçün qulluqçu xanımın yanına toplaşmışdı. Saat 04.30-da mehmanxanadan çıxdıq. Sürücü, tərcüməçi və Fuad da orada idilər. Fuad bizə bir şüşə çaxır, balaca şüşədə konyak və kiçik çay stəkanı verdi. Hamısı Azərbaycan istehsalı idi.


Saat 05:30. Bakı hava limanında səmimi yolasalınma.

Saat 06:05. Sürixə uçuş. Yerli vaxtla saat 07:55-də hava limanına endik. Alfred, Qöts və Hans Ştutqart şəhərinə, Manfredlə mən isə Frankfurt şəhərinə doğru istiqamət götürdük. Səmimi şəkildə vidalaşıb ayrıldıq.

Keçmişin izinə düşüb Azərbaycana getməyimiz bizim həyatımızda müstəsna və təkrarolunmaz bir hadisə idi. Bu səfərin təəssüratı və həyəcanı qəlbimdə hələ də qalmaqdadır.

SON

Nəsr guşəsi



Xorxe Luis BORXES
(1899-1986)

Borxes & Borxes
(hekayə)

Bu əhvalat 1969-cu ilin fevral ayında Bostonun şimalında, Kembricdə başıma gəldi. İsti-isti bu barədə yazmadım, çünki ağlımı itirməyim deyə baş verəni unutmaq istəyirdim. İndi – 1972-ci ildə isə, məncə, oxucu danışdıqlarımı onsuz da uydurma sayacaq, lap ola bilsin, ötüb-keçən illər mənim özümü də o əhvalata eyni cür münasibət bəsləməyə sövq eləyəcək.

Həmin məqamda çox şeylər yaşadım, amma sonra – yuxusuz qaldığım gecələrdə bu yaşantılar ondan da ağır oldu. Ancaq bu, heç də o demək deyil ki, başıma gələnlər barədə hekayət başqalarını da həyəcanlandıracaq.

***

Səhər saat on idi. Çarlz çayının qırağında skamyanın söykənəcəyinə yayxanıb əyləşmişdim. Sağda, məndən beş yüz metr aralıda hündür qüllə vardı – necə adlandığını heç indi də bilmirəm. Boz-bulanıq suyun üzəriylə kələ-kötür buz parçaları axırdı. Çay, şübhəsiz, zaman barədə fikirlər doğururdu; Heraklitin yaratdığı minillik obraz. Gecəni sakit yatmışdım: axşamkı mühazirəm, deyəsən, tələbələri tutmuşdu. Ətrafda ins-cins gözə dəymirdi.

Qəfildən mənə elə gəldi ki (psixoloqlar bunu ümumi yorğunluqla izah eləyirlər), artıq bir dəfə buna oxşar şeylər görüb hiss eləmişəm. Böyrümdə biri də əyləşdi. Mən tək qalmaq istəyirdim, amma qanacaqsız sayılmaqdan qorxub yerimdən qalxmadım. Yanımdakı fitlə nəsə çalmağa başladı. Bu səhərin ilk sarsıntısını yaşadım: o, Elias Requlesin yazdığı "Köhnə koma" adlı Argentina mahnısını fitdə çalır, yaxud çalmağa cəhd eləyirdi (eşitmə qabiliyyətim o qədər yaxşı deyil). Motiv məni artıq mövcud olmayan həyətə apardı, yaddaşımda lap

çoxdan ölmüş Alvaro Melian Lafinuru canlandırdı. Sonra onuncu illərdə oxunan bu mahnının sözləri də qulağımda səsləndi. Səs Alvaronun səsinə oxşamırdı, amma oxuyan açıq-aşkar onu yamsılayırdı. Bu səsi müdhiş bir həyəcanla tanıdım.

Qonşuma yaxın oturub dedim:

– Senyor, uruqvaylısınız, yoxsa argentinalı?

– Argentinalıyam, amma on dörd yaşımdan Cenevrədə yaşayıram, – dedi.

Sonra araya uzun sükut çökdü.

– Malanyu, nömrə on yeddi, rus kilsəsiylə üzbəüz?

O, başıyla təsdiqlədi.

– Onda sizin adınız Xorxe Luis Borxesdir, – dedim. – Biz 1969-cu ildə Kembric şəhərindəyik.

– Yox, – o mənim uzaqdan gələn öz səsimlə cavab verdi.

İki-üç dəqiqə sonra adam inamla dilləndi:

– Yox, mən burda, Cenevrədəyəm, Ronanın bir neçə addımlığında skamyada oturmuşam. Ən qəribəsi budur ki, bir-birimizə çox oxşayırıq, hərçənd siz məndən xeyli yaşlısız, başınız da ağarıb.

Ona cavab verirəm:

– Sübut eləyərəm ki, yalan demirəm. Mən yalnız ev adamlarının bildiyi bəzi şeylər barədə danışa bilərəm. Bizdə babamızın babasının Perudan gətirdiyi uzun burma ayaqlı gümüş mate var. Sənin otağındakı rəfə kitablar iki cərgə yığılıb. Orada Leynin qravürlərlə, hər fəsildən sonra xırda şriftli şərhlərlə tərtib elədiyi "Min bir gecə"nin üç cildi, Kişerin latın sözlüyü, həm latın dilində, həm də Qordonun tərcüməsində Tasitin "Almaniya"sı, Qarnye nəşriyyatının buraxdığı "Don Kixot", müəllifin ithafıyla Rivera İndartenin "Qanlı teatr"ı, Karleylin "Sartor Resartus"u, Amelinin bioqrafiyası, bir də o biri cildlərin arxasında gizlədilmiş, cırıq-cırıq olmuş Balkan xalqlarının seksual adətləri haqqında kitab. Plas Düburdakı evin birinci qatındakı toranlığı da unutmamışam.

– Düfur, – düzəliş verdi.

– Düfur olsun, indi inandınmı?

– Yox, – dedi, – bunlar sübut deyil. Əgər mən sizi yuxuda görürəmsə, demək, mən bilənləri siz də bilməlisiniz.

Haqlı irad idi. Dedim:

– Əgər bu səhər də, bu görüş də yuxudursa, onda hər birimiz yatanın, yuxu görənin məhz özü olduğunu düşünməkdə haqlıdır. Bəlkə oyanacağıq, bəlkə də yox. Amma bir şeyi bilirəm – biz dünyanı, yaşamağımızı, görməyimizi, nəfəs almağımızı necə real sayırıqsa, bu yuxunu da eləcə gerçəklik kimi qəbul eləməliyik.

– Bəs birdən bu yuxu uzun sürərsə?.. – o, həyəcanla soruşdu.

Onu da, özümü də sakitləşdirmək üçün ötkəm-ötkəm dedim:

– Nə olsun? Mənim yuxum artıq yetmiş ildir davam eləyir. Hər kəs keçmişinə dalanda özüylə görüşür. Bir halda ki burada iki nəfərik, demək, bizə

də belə görüş qismət olub. Bəlkə sənin gələcəyin olası keçmişimdən nəsə öyrənmək istəyirsən?

O, razılıq əlaməti kimi başını tərpətdi. Yadıma düşən hər şey barədə danışmağa başladım:

– Anam sağ-salamatdır, Buenos-Ayresdə, Çarkas və Maylu küçələrinin yaxınlığındakı evində başını girləyir; atam otuz il qabaq ürəyindən ölüb. Amma əvvəlcə iflic olmuşdu, sol tərəfi bütünlüklə qurumuşdu, sol əli sağ əlinin üstündə olanda elə bilirdin bir uşaq əlini div əlinin üstünə qoyub. O, ölümü tələsdirə-tələsdirə, ah-vay eləmədən öldü. Nənəmiz də elə həmin evdə dünyasını dəyişdi. Ölməmişdən bir neçə gün əvvəl hamımızı çağırıb dedi: "Mənim kimi günü keçmiş qocalar ləng ölürlər. Əl-ayağa düşməyin, bu ki görünməmiş bir iş deyil". Bacın Nora ərə getdi, iki oğlu var. Yeri gəlmişkən, onlar orada necə yaşayırlar?

– Çox yaxşı. Atan adəti üzrə dinə sataşır. Dünən axşam dedi ki, İsa Məsih bizim qauço kimi özünü çətinə verən olmayıb, ona görə də dolayı danışmağı üstün tutub.

O, azacıq tərəddüdlə məndən soruşdu:

– Bəs siz necə yaşayırsınız?

– Yazacağın kitabların sayını bilmirəm, ancaq bunu bilirəm ki, çox olacaq. Sənə şəriksiz sevinc bəxş eləyən şeirlər, fantastik hekayələr yazacaqsan. Atan kimi, bizim nəsildən gələn çoxları kimi müəllimlik eləyəcəksən.

Kitablarımın uğurlu olub-olmadığını soruşmaması xoşuma gəldi. Sonra başqa xətlə davam elədim:

– Tarixdən danışası olsaq… Demək olar, elə həmin düşmənlərin iştirakıyla daha bir qanlı müharibədən keçdik. Fransa tez təslim oldu, İngiltərəylə Amerika Hitler adlı alman diktatoruyla çarpışdı, sonra Vaterloo altındakı döyüş təkrarlandı. Buenos-Ayres min doqquz yüz qırx altıncı ildə bizim ilkimizə çox oxşayan ikinci Roxası dünyaya gətirdi. Əvvəllər Entre-Rios elədiyi kimi, əlli beşinci ildə də Kordova əyaləti bizi qurtardı. İndi vəziyyət çətindir. Rusiya dünyada təsirini artırır, Amerika imperiya olmağa cəsarət eləmir, mövhumata qapılıb demokratiyanın düşməni kimi ad çıxarmaqdan qorxur. Vətənimiz gündən-günə əyalətçiliyin dibinə yuvarlanır. Əyalətçilik, xudbinlik bu ölkənin gözünü pərdələyib. Əgər latın dilinin tədrisi bir vaxt quarani ləhcəsində *(Argentinada şivə –* ***red.)*** mühazirəylə əvəz olunsa, təəccüblənmərəm.

Gördüm o, demək olar, mənə qulaq asmır. Dərkolunmaz gerçəklik qarşısındakı ən adi insani qorxu onu çarmıxa çəkmişdi. Ata olmasam da, mənə oğlumdan yaxın bu yazıq uşağa qarşı içimdən şəfqətli duyğular qaynadı. Gördüm əlindəki kitabı didişdirir. Soruşdum o nə kitabdı elə.

– "Divanələr", daha dəqiqi, Fyodor Dostoyevskinin "Əcinnələr" romanıdır, – səsində azacıq qürur vardı.

– Güclə xatırlayıram. Xoşuna gəlir?

Sözümü bitirməmiş sualımın yersiz olduğunu hiss elədim.

– Rus klassikidir, – o, aydın tərzdə dedi, – slavyan qəlbinin dərinliyinə hamıdan artıq nüfuz eləyib.

Ritorik coşqunluğu mənə sakitləşmə əlaməti kimi göründü.

Bu klassikin daha hansı kitablarını oxuduğunu soruşdum.

İki-üç əsərin, o sıradan "Oxşar"ın adını çəkdi.

Soruşdum, oxuyanda personajlar ona, tutalım, Cozef Konradın kitablarında olduğu kimi aydınmı görünür, bu müəllifin bütün külliyatını oxuyub başa vura bilərmi?

Cavabı gözlənməz oldu:

– Düzünü desəm, yox.

Soruşdum nə yazır, dedi "Qırmızı surələr" adlanacaq şeirlər toplusunu çapa hazırlayır. Üstəlik, "Qırmızı ritmlər" barədə də düşünür.

– Niyə də sınaqdan keçirməyəsən? Böyük sələflərinə istinad eləyə bilərsən. Ruben Darionun mavi şeirlərini, Verlenin boz nəğmələrini yada sal.

Sözlərimi qulaqardına vurub izah elədi ki, kitabında yer adamlarının qardaşlığı vəsf olunacaq. Zəmanə şairi öz dövrünə arxa çevirə bilməz.

Fikrə getdim, sonra da soruşdum ki, doğrudanmı hamını özünə qardaş bilir? Məsələn, dəbdəbəli rəsmi dəfn mərasimi təşkil eləyənləri, məktub daşıyanları, pulla suya baş vuranları, təknömrə binaların qarşısındakı səkilərdə gecələyənləri, səsvermə haqqı olmayanları və sair və ilaxır. Dedi, kitab istismara uğrayan əzabkeş kütlələrə həsr olunacaq.

– Sənin istismar olunan əzabkeş kütlən mücərrəd anlayışdan başqa bir şey deyil. Var olan ayrı-ayrı fərdlərdir, əgər var deyilən şey doğrudan da varsa. "Sən bu gün artıq dünənki sən deyilsən", – bir yunan belə söyləyib. Bu skamyada yanaşı oturmağımızla biz – istər Cenevrədə olaq, istər Kembricdə – yəqin, elə bunu sübuta yetiririk.


Tarixin mömin lövhələrində əks etdirilənlərdən başqa bütün yaddaş faktları yaddaş sözləri olmadan keçinir. İnsan ölümündən qabaq uşaqlıqda ötəri gördüyü qravürü yadına salmaq istəyir; əsgərlər döyüşqabağı arandan-dağdan, ya öz çavuşlarından söhbət eləyirlər. Bizim görüşümüz kimi görüş indiyəcən olmamışdı, açığını desəm, biz buna hazır deyildik. Tərs kimi də ədəbiyyatdan, dildən danışırdıq – qorxuram mən ona jurnalistlərə danışdıqlarımdan fərqli bir şey deməmiş olum. Mənim "alter ego"m yeni metaforalar yaratmağın, ya da kəşf eləməyin vacibliyinə inanırdı, mən özümsə xəyallarımızın çoxdan yaratmış olduğu sözlərin mənim obrazlarıma, yaxud hamıya bəlli anlayışlara dəqiq uyğun gəldiyinə inanırdım. Adamların qocalması və çöküşü, yuxular və həyat, zamanın axarı və su. Ona bir neçə ildən sonra kitabda ifadə elədiyim fikirləri söylədim.

Demək olar, mənə qulaq asmırdı. Qəfildən dedi:

– Əgər siz mən idinizsə, 1918-ci ildə sizə özünün də Borxes olduğunu söyləyən bir ahıl senyorla görüşü unutmağınızı necə izah eləyək?

Mən bu təhlükə barədə düşünməmişdim. Ona görə bir qədər inamsız cavab verdim:

– Görünür, bu görüş məni o qədər heyrətləndirib ki, onu unutmağa çalışmışam.



O, çəkinə-çəkinə soruşdu:

– Yaddaşınız zəifləmir?

Anladım ki, iyirmi yaşına çatmamış oğlan üçün yetmiş yaşlı kişi yarımcan görünür. Odur ki, dedim:

– Belə götürəndə yaddaşım huşsuzluğa oxşayır, amma hələlik yük götürə bilir. Anqlo-sakson dilini öyrənirəm, özüm də sinfimizin götürümlü şagirdlərindən sayılıram.

Söhbətimiz artıq yuxularda olduğundan da uzun çəkirdi.

Qəfildən bir fikir beynimi işıqlandırdı.

– Bu dəqiqə sübut eləyə bilərəm ki, – dedim, – məni gerçəkdən görürsən. Sənin heç vaxt oxumadığın, amma mənim xatırlaya bildiyim bu şeirə qulaq as.

Sonra tələsmədən o heyrətamiz misranı söylədim:

– L'hudre – univers tordant son corps ecaille d'astres *(Ulduzlu-pulcuqlu gövdəsini qıvrıldan İlan-Kainat – **red.**).*

Onun heyrətdən səksəndiyini duydum. Ecazkar sözlərin hər birindən zövq ala-ala dediklərimi pıçıltıyla təkrarladı.

– Doğrudan da, – mızıldandı, – belə yazmaq mənə heç vaxt qismət olmayacaq.

Hüqo bizi birləşdirdi.

Yadıma düşür ki, bundan əvvəl o, Uolt Uitmendən kiçik bir şeir parçasını şövqlə əzbər demişdi; o şeirdə şair dəniz qırağında ikilikdə keçirdiyi xoşbəxt gecəni xəyalında canlandırır.

– Əgər Uitmen o gecəni vəsf eləyirsə, – dedim, – deməli, belə bir gecənin olmağını arzulayıb, amma heyif ki, arzuladığı olmayıb. Şeir yaşanmış anlardan qalan sevinci yox, çılğın istəyi ifadə eləyəndə təsirli olur.

O, dinməzcə mənə baxdı, sonra dilləndi:

– Siz onu tanımırsınız, Uitmen yalan deməz!

Yarım əsr havayı keçib getmir. Bizim kimi oxu səviyyəsi, mütaliə zövqü fərqli iki adamın söhbətindən anladım ki, bir-birimizi başa düşməyimiz mümkün olası iş deyil, bu da həmişə ünsiyyəti çətinləşdirir. Birimiz o birimizi gülməli şəkildə yamsılayırdıq. Vəziyyət o qədər qondarmaydı ki, ondan ötrü bunca vaxt öldürməyə dəyməzdi. Mübahisə eləməyin, məsləhət verməyin mənası yoxdu, onsuz da mənim yolum onun üçün qaçılmaz bir ömür yoluydu.

Qəfildən ağlıma Kolricin fantaziyalarından biri gəldi. Kimsə yuxusunda görür ki, cənnətə düşüb, burda ona cənnətdə olduğunun sübutu kimi gül bağışlayırlar. Adam yuxudan oyananda həmin gül də yanında olur.

Mən də belə bir hoqqa çıxarmaq istədim.

– Bura bax, – dedim ona, – nağd pulun var?

– Hə, – cavab verdi, – iyirmi frankım var. Bu axşam Simon Jaklinskini "Timsah"a dəvət eləmişəm.

– Simona çatdır, o, Karujda təbabəti öyrənəcək, çoxlu xeyirxah işlər görəcək… Yaxşı, pullarından birini mənə ver.

O, üç gümüş frank, bir az da xırda pul çıxardı. Çaşqın-çaşqın gümüş pulu mənə uzatdı. Mən dəyəri müxtəlif, forması həmişə eyni olan bu yararsız Amerika kağızını ona verdim. O, pula böyük maraqla baxdı.

– Ola bilməz, – bağırdı. – Burda buraxılış tarixi göstərilib – 1964-cü il!

(Neçə aydan sonra bir nəfər mənə deyəcək ki, kağız pulların üstünə tarix yazılmır).

– Bunlar əsl möcüzədir, – o, çətinliklə dilləndi, – möcüzə də məni üşəndirir. Lazarın dirilməsinin şahidləri burda dəhşətə gələrdilər.

Biz yerimizdən tərpənməmişik, düşündüm. Kitab söhbətləri yenə təkrarlandı.

O, kağız pulu cırıq-cırıq elədi, dəmir pulsa məndə qaldı.

Mən o pulu çaya atmağı qərara aldım. Suya uçan gümüş sikkə başıma gələn bu əhvalatda gerçəklik nişanəsi olmalıydı, amma tale başqa sərəncam verdi.

Mən ona dedim ki, əgər möcüzə təkrarlanırsa, daha qorxulu olmur. Təklif elədim, sabah elə burda – iki ayrı dövrdə, iki ayrı yerdə qərar tutmuş bu skamyanın üstündəcə görüşək.

O dərhal razılaşdı, sonra da saata baxmadan dedi ki, getmək vaxtıdır. İkimiz də yalan danışırdıq, ikimiz də bilirdik qarşıdakı adam yalan deyir. Ona dedim ki, elə indilərdə mənim də dalımca gələcəklər.

– Dalınızca gələcəklər? – təəccübləndi.

– Hə. Mən yaşa çatanda gözlərin, demək olar, heç görməyəcək. Yalnız sarı rəngi, kölgəni, bir də günəşi seçə biləcəksən. Amma həyəcanlanma. Korluğun yavaş-yavaş gəlməsi bəla deyil. Bu, yayda toranlığın azca-azca qatılaşması kimi bir şeydir.

Bir-birimizə toxunmadan vidalaşdıq. Səhəri gün ora getmədim. Yəqin, o da gəlməmişdi.

Kimsəyə danışmadığım bu görüş barədə çox düşünüb-daşındım. Elə bilirəm indi, nəhayət, həqiqətə çatmışam. Görüş gerçəkdən olmuşdu, amma o mənimlə yuxuda danışmışdı, ona görə də məni unuda bilərdi. Mənsə onunla oyaq söhbət eləmişdim, ona görə də xatirələr indiyədək canımı üzür.

O məni yuxusunda görmüşdü, amma yetərincə dəqiq, aydın görməmişdi. İndi başa düşürəm ki, dolların üzərində olmayan tarix ona daha aydın görünübmüş.

Rus dilindən çevirəni: N.Əbdülrəhmanlı

Nəsr guşəsi



Kamal ABDULLA

Adaşlar

X.L.Borxesin xatirəsinə

Yenə uzun zamandan bəri gördüyü eyni yuxunu doyunca seyr edib həmişəki kimi axşam saat 6-da ayıldı. Elə bil yuxu ilə sözləşmişdilər. Hər gün saat 2-də – gündüz saat ikidə – gecəymiş kimi soyunub yerinə girər, gözlərini yumar, saat 6-da isə gözlərini açıb yuxudan oyanardı. Eyni yuxu, eyni əhval və bir də yuxudan sonrakı eyni ovqat, ağzındakı eyni dad… Nə üçün belə bir ahəngə tabe olmuşdu – bilmirdi. Günorta yatanlara həmişə qəribə baxmışdı. İndi isə özü hər gün öhdəlik götürübmüş kimi eyni vaxtda yuxu ilə görüşə tələsirdi.

Yuxu bu idi: uşaqlıq və yeniyetməlik çağının çox qısa bir vaxtını keçirdiyi evlərində özünü görərdi. Küçəyə çıxan bağlı balkonları vardı, balkonun da düz qabağında ensiz küçənin o biri tərəfində qoşa tut ağacı, necə deyərlər, "göylərə baş vururdu". Yuxu dərinləşdikcə tut ağacları eynən ovaxtkı kimi canlanır, yarpaqlar sıxlaşır, budaq budağa calanır və bu budaqlar öz yaşıl əlləri ilə özlərini balkonun açıq pəncərəsindən içəri dürtürdü. Balkondakı əşyalar rəng almağa başlayırdı… Bu onun kiçik yazı masası, bu kətil, bu məktəb çantası, bir-iki kitab, dəftərlər…

Anası mətbəxdə olardı. Bu yuxunun özəlliyi ondaydı ki, o bu yuxunun içində öz indiki halını heç cür unutmurdu. Yuxuda adətən hər şeyi unudursan, onun isə yox, kim olduğu, hansı yaşın içində olduğu, hansı maraq və ehtirasların sahibi olduğu bir an belə yadından çıxmırdı. Həm ovaxtkı uşaq idi, həm də bugünkü ortayaşlı, həyatını artıq yaxşı-pis qurmuş qələm əhli, ədəbiyyat adamı…

Yuxunun dərin və mürəkkəb bir quruluşu yox idi. Çox sadə və sadə olduğu qədər də cazibədar idi. Onun üçün doğma idi. Əllərini yazı masasına sürtər, hətta bəzən cəhd edib adını da tozlu masa üstündə yazardı. Kitabları bir-

bir götürüb sığallayar, məhəbbətlə tut ağacının budaqlarını, yarpaqlarını tumarlayardı. Bunları etdiyi zaman o bilirdi ki, yuxunu görmək üçün eyni vaxtda yerinə girən ortayaşlı həmən o adamdır. Və birdən başlardı bu balkonda atılıb-düşməyə. Bu zaman isə ortayaşlı kişi itər, o uşaq, böyük bir coşqu və həvəslə, anası deyən tərzdə, şuluqluq eləməyə başlardı.

– A bala, bəsdi şuluq elədin də... Sakit ol. Özünə yazığın gəlmir, bizə yazığın gəlsin...

Anasının, guya ki, zəhmli səsi mətbəxdən, əslində isə uzaqlardakı illərin o tayından zəifləyə-zəifləyə, amma hələ gəldikcə, o daha böyük şövqlə ayaqlarına güc verərdi, balkondakı səs-küy ən yüksək həddinə çatanda isə anası durub məcbur olardı, mətbəxdən balkona gələrdi, üz-gözünə son dərəcə ciddi bir ifadə verib qorxulu-qorxulu pıçıldardı. Və yuxunun kulminasiyası da bu pıçıltının mahiyyətində idi. Pıçıltı bu idi:

– Bəsdi, a bala, bu qədər atdanıb-düşmə daha. Balkon uçar. Sən istəyirsən ki, balkon uçsun?!

Bax bu sonuncu sözlər idi onu hər gün günortanın oğlan çağı yuxu ilə görüşə aparmağa məcbur edən qüvvə. "Balkon uçar".

Yuxu olanda nə olar?! Möcüzə onda idi ki, anasının bu sözlərindən sonra balkon həqiqətən tut ağaclarının onu buraxmaq istəməyən budaqlarından silkinib, o boyda binadan ayrılar (ev ikinci mərtəbədə idi), vertolyot kimi dimdik göyə ucalar və burnunu dəniz tərəfə tutub uçmağa başlayardı, o da balkonun içində. Anası evin bir balkon boyda açıq qalmış ağzında durub onun ardınca baxa-baxa yenə deyinərdi: Bəsdi, a gedə, əl çək bu həngamələrindən, hara gedirsən?..

Hər dəfə axşam saat 6-ya qədər, yəni yuxudan ayılana qədər uçduqca ləzzətlə uçardı. Saat 6-da isə yuxudan ayılmaq vaxtı gəlirdi və o, gözlərini açan kimi haman eyni ovqat, o həmişəki məhrəm duyğular, narahat fikirlər yenə beyninə hakim kəsilirdi. Bu fikirlərin canı belə idi ki, bizim yaşadığımız və tanıdığımız dünya öz mövcudluğunda tək deyil. Onunla bərabər ona qismən bənzər digər dünyalar da sonsuz fəzada mövcuddurlar. Hətta bizim hər birimiz o biri paralel dünyalarda tamam başqa-başqa tərzlərdə öz yaşamağımızı davam etdiririk. O xatırlayırdı ki, nə zamansa həkim olmağı arzulamışdı. Necə oldu ki, sonralar gedib filoloq oldu – bunu artıq xatırlamır. Yəqin, indi o biri dünyaların birində həkimdir. Həkim olmağı niyyət etməsi isə – bu, yaxşı yadındadı – qonşularında yaşıdı vardı, adı Nizami idi, onun ölümündən sonra olmuşdu…

Nizami ilə bir həyətdə qonşu idilər. Həyətin böyründəki ayrıca pilləkən birbaşa onların mənzilinə aparırdı, Nizamigil isə həyətdən keçib ümumi pilləkənlə yuxarı, ikinci mərtəbədəki evlərinə qalxırdılar. Balaca həyət günün çox balaca hissəsi – bu, adətən günortaya qədər bir, ya iki saat çəkərdi – ancaq onlara məxsus olardı. Qonşular kimi işdə, kimi bazar-dükanda… Bəzən bu həyət də onlara darlıq edərdi. Nizami onu küçəyə alışdırdı. Nizami daha çox sərbəst idi, müstəqil idi və ən vacibi, nəzarətsiz idi.

O isə… Bir tərəfdən anasının yuxarıdan daim onu axtaran narahat baxışları, digər tərəfdən axşam işdən geri dönən zəhmli atasına "satılmaq"

qorxusu. Nizami bu qorxulardan azad idi. Başının üstünü qılınc kimi alan hərəkətlər, gediş-gəlişinə sərhəd qoyanlar yoxdu.

Hələ heç məktəbə də getmirdilər. Nizamiyə atası qırmızı-göy rəngdə ikiçarxlı velosiped almışdı. Bu, o zaman üçün əsl "Mersedes" idi. Əlbəttə ki, onlar həyətdə bu velosipedi dəqiqədə bir silib-silib üfürür, zınqırovunu çala-çala "yüyən"indən tutub dövrələmə – ortadakı yekə su krantının ətrafında gəzdirirdilər. Əlbəttə ki, bunlar Nizami üçün çox az idi. Axırda günlərin bir günü velosiped onları küçəyə çıxartdı.

Küçə geniş bir dünya idi. Ucu-bucağı yoxuydu. Hətta hərdən – bu gün bu nə qədər qəribə görünsə də – bir-iki maşın da gəlib keçirdi evlərinin qabağından. Adamlar sağa gedirdilər, sola gedirdilər, danışıq səsləri, deyişmələr, gülüşlərin içindən doğma, əziz bir səs də gündə bir dəfə sıyrılıb ucalırdı, miss kimi zil bir səs: "Marooojnı!" Dondurmasatan məhlədən beləcə özünün əsl zəfər yürüşünü bu səsin müşayiəti ilə içindəki buz parçalarının üstünə, altına necə gəldi yığılmış meyvəli, qəhvəli, südlü dondurmalarla dolu təkərli dondurma arabasını itələyə-itələyə keçib gedərdi.

Yaddaşında daşlaşıb qalmış daha bir şey var idi. İsti yay günlərində qol-budaqlı, yaşıl yarpaqlı qoşa tut ağacının yarpaqları arasından küçəyə süzülən gün işığı. Göy üzündən keçib gedən günəş elə bil bu bir neçə işıq parçasını salıb itirib, yaddan çıxarıb gedirdi. Çünki günəş evlərinin başı üstündən çəkiləndə belə bu işıq parçaları hələ bir müddət yaşıl yarpaqların arasından öz süzülməklərində olurdular.

Vəssalam. Yuxu ilə görüş onu bu uzaq illərə aparırdı. Hə, bir məqam yaddan çıxdı. Küçəyə çıxdıqları o ilk gün Nizami elə birdən, nə mənə, nə sənə, velosipedinə minib bərk-bərk və tez-tez pedalları tərpədə-tərpədə, sağa, sola yırğalana-yırğalana odu hey gedib haralara çıxdı, gözdən itdi, bilinmədi, amma bir müddət sonra yenə göründü; bu dəfə velosiped daha tarazlı hərəkət edirdi. Gəlib düz onun yanında qəfildən saxladı velosipedi:

– Otur! – dedi. – İndi də sən sür.

– Yox. – O dedi. – Mən bacarmaram.

– Otur. – Nizami qətiyyətlə təkrar elədi.

Zorla onu velosipedə mindirib hər iki əli ilə tarazlığını saxlamağa kömək edə-edə (o isə yavaş-yavaş uzaqlaşırdı):

– İrəli, ancaq irəli bax, ayaqlarının altına baxma. İrəli…

Nizaminin səsi artıq çox arxada idi…

O gün yenə də adəti üzrə axşam saat 6-da gözlərini açdı. Bir an olur, adam bilmir ki, indicə ayrıldığın, uzaqlaşdığın yuxunun hələ içindəsən, yoxsa yox. Yavaş-yavaş özünə gəlirsən. Bax belə bir anda qəflətən o biri otaqdan tanış bir səs gəldi. Ruhu qədər tanış və doğma bir səs. O biri otaqda heç kim olmamalı idi. Amma o and içə bilərdi ki, bu səsi aydın şəkildə eşitdi. Anasının səsi idi:


– Kamal, bala, necəsən?

Bu, yəqin ki, bir təkan oldu. Həmən axşam köhnə məhləyə, vaxtilə yaşadıqları evin yanına getməyi qərara aldı. Düzdü, oradan köçəndən sonra

yenə nə isə onu oradan özünə tərəf ahənrubə kimi çəkirdi. Amma heç zaman buaxşamkı kimi dözülməz olmamışdı.

Aşağıdan burulub üzüyuxarı qalxdı. Köhnə evlərinin yanına çatanda artıq qaranlıq düşmüşdü. Bütün yolu günəş işığının çəkildiyi, qaranlığın isə hələ tam düşmədiyi bir vaxtda gəlmişdi. Evin qabağı, elə küçənin özü də (o biri tində, mağaza olan yerdə bir balaca işıq vardı, o işığı nəzərə almasaq) qaranlıq içində idi. O bu qaranlıqda iki şeyi ancaq seçə bildi. Tut ağaclarının ikisi də yox olmuşdu, onları kökündən mişarlamışdılar. Bir də ikinci mərtəbədəki balkonları artıq bağlı şüşəbənd deyildi, açıq balkon idi.

Uzaqdan o adamı görəndə ona elə gəldi ki, bir-birlərini tanıyırlar. Doğma nə isə var idi – duruşunda, bəlkə geyimində. Hər halda ona oxşayışı şübhə doğurmadı. Bir müddət uzaqdan-uzağa bir-birlərini seyr etdilər. Sonra ikisi də eyni vaxtda bir-birinə tərəf gəlməyə başladı. Qoşa tut ağacının mişarlanmış gövdələrinin ortasında üzbəüz durdular. Birdən yuxarıdakı mərtəbələrin hansı otağındansa işıq gəldi. Hər ikisi gözlərinə, üzlərinə düşən bu qəfil işıq topasından başlarını qaçırdıb yana çəkildilər. Qaranlıq olsa da, artıq üz-gözləri, saçları, burun-qulaqları bir az daha aydın görünməyə başlamışdı. Oxşarlığın dərəcəsi hər ikisinə əyan oldu.



– Kibritin olar? – İkinci adam zənlə baxıb birinci adamdan soruşdu. Səsinə bilərəkdən bir az laübalılıq qatdı.

O, əlini cibinə salıb alışqan çıxardı, ona uzatdı.

O, siqareti yandırmağa tələsmədi. Pencəyinin cibindən bir siqaret qutusu çıxarıb içindən birini götürdü, sonra qutunu ona sarı tutdu:

– Çəkirsən?

Könlü istəmirdi, ancaq bir siqaret də o götürdü. Qutunu eşələyəndə üstündəki adı oxuyub duruxdu, amma üstünü vurmadı. Siqaretin adı "Şipka" idi. Bolqar siqareti. Gənclik illərinin unudulmaz dadlarından biri.

– İndi bu siqareti tapmaq olmur.

Alışqanın işığı bir anlıq hər ikisinin üzünü yenə də bu qaranlığın içindən çəkib çıxardı. Siqaret yandırmaqla məşğul olsalar da, əslində, bu ani işıqda bir-birinin sifətini daha aydınca görmək istədiklərindən altdan-altdan, tələsik bir-birinin üzünə diqqət etdilər.

Odun işığı söndü. Siqaretlərini yandıra bilmişdilər. Bir müddət ikisi də susub ciddi-cəhdlə ciyərlərini siqaret tüstüsü ilə doldurmaqla məşğul oldu.

– Biz tərəflərdə xeyir ola? – O, nəhayət, soruşdu. Yaxın adamdan soruşan kimi soruşdu.

– Heç, elə-belə. Yol gedirdim…

Onun tüstü ilə dolu ağzından tüstünün öz üstünə bulud kimi alıb gətirdiyi qəribə bir səs çıxdı. Təxminən "belə de…" mənasına uyğun gələrdi.

– Mən elə bildim adam axtarırsan.

– Belə də… Buralarda bir tanış olurdu.

– Sən elə özün də tanış gəlirsən mənə. Adın nədi?

– Elə sən də… Mənim adım?

– Əlbəttə. Burda bizdən başqa adam var?

– Mənim adım… Kamal.

– Doğrudan? Adaşıq ki. Mən də Kamalam. Bizim məhlədə yaşayır axtardığın adam?

– Yox, heç kimi axtarmıram. Elə-belə tanış idi. Sən özün… buralarda yaşayırsan?

Cavab onu diksindirdi.

– O balkon mənimdi.

Əlini uzadıb qarşı tərəfdə ikinci mərtəbədəki tanış, amma açıq balkonu göstərdi.

Siqaretin var gücü ilə ciyərinə çəkdiyi tüstüsü onu boğdu, öskürdü.

– Çoxdan çəkmirsən, deyəsən,? – yeni tanışı soruşdu.

– Çoxdan, çoxdan… – o, cavab verdi.

Diqqətlə bir-birini süzdülər. Heç bilmədi ki, necə oldu belə bir təklif etdi:

– Mən üzüaşağı gedəcəkdim. İstəsən gedək mənimlə. Azdrama tərəfə.

– Gedək. – O tez razı oldu. Düşündü ki, bu yerdən uzaqlaşmaq lazımdı. Bu açıq balkonun üzbəüzündə daha dayana bilməyəcəyini anladı.

Mirzə Fətəli küçəsi ilə geri dönüb bir xeyli getdilər, Mirzağa Əliyev küçəsinə çatanda üzüaşağı döndülər.

– Aşağıda, Çadrovıda (Mirzağa Əliyev küçəsində) əntiqə pivnoy var. Mən elə ora gedirdim. Pivələyək?

– Getdik.

Üzüaşağı gəlib Azdramanı sol tərəfdə buraxdılar və elə tindəcə neçə-neçə illər bundan öncəki məşhur pivəxanaya çatdılar. O, nədənsə əmin idi ki, bu pivəxana artıq çoxdan sökülüb gedib, yerində isə poçtxana tikiblər.

– Şəhərdə yeganə yerdi ki, qışda pivəni çaynikdə isidib verirlər. İçmisən?

Əlbəttə içmişdi. Amma o zamanlar.

– İçmişəm, – dedi.

Həmən pivəxana idi ki, vardı. Piştaxta, stollar – hamısı öz yerində, balıq da hamankı şor balıq, bişmiş noxud da az qala hamankı idi.

– Mən əvvəl elə bildim… qızbazlığa gəlmisən bizim məhləyə. – O gülümsədi. Təbəssüm yaraşırdı ona.

– Yox.

– Nolar?! Olanda olur. Sən… şey eləmə. Nolar ki.

– Yol keçirdim…

– Əccəb eləyirdin.

– Dedim, görüm səni hardan tanıyıram. – Onun da üzünə xoş bir təbəssüm qondu. Ürəyində "deyəsən, mənə inanmır" düşündü.

– Yadına düşdü?

– Yox. Bəs sənin?

– Mənim də yadıma düşmədi.

Pivədən qurtum-qurtum içdikcə canlarına rahatlıq qarışıq bir yumşaqlığın keçməsini hiss etdilər. Amma balıq, deyəsən, çox duzlu idi.

– Duzu çoxdu, – o, təsdiq elədi.

– Sən hardasan? Yəni… harda işləyirsən?

– Mən?

– Burda bizdən başqa adam var? – O bayaq məhlədə, balkonun altında aldığı zərbəni qaytardı. Amma şuxluqla qaytardı. Ətrafa boylandı. O biri masada iki-bir, üç-bir əyləşənləri guya baxdı, görmədi.

– Mən özüm yazı-pozu adamıyam. Elmdi, ədəbiyyatdı… Belə də…

– Aaaaa… – O, əlində çəkdiyi siqareti söndürdü, ciddiləşdi. "Şipka" artıq pivə stəkanlarının, noxud, balıq qablarının arasında əzişmiş bir halda sürətlə arıqlamaqda idi. Qutudan özü kimi əzik bir siqaret çıxartdı. Barmaqlarının arasında ova-ova:

– Mən də nə zamansa istəmişdim yazı-pozu adamı olum, inanırsan?! Şeir-zad da yazırdım bir ara. Məktəbdə! Sonra isə…

Sonrasını ona elə gəldi ki, o bilir.

– … sonra isə həkim olmaq qərarına gəldim. – Sözünü fikirli-fikirli bitirdi.

O bilmədi ki, bu sözləri ilk dəfə gördüyü bu adama nə üçün danışır. "Yazı-pozu" sözü onu tərpətmişdi.

O isə "həkim" sözündən tutuldu. Özünün yeniyetməlik arzusu yenə yadına düşdü. Nizamini xatırladı. Xəstəxana palatasında ölümcül bıçaq yarasından tabsız-tavansız uzanıb ağır-ağır can verən ilk uşaqlıq dostu Nizamini. Haman gün idi. O, qərara gəldi ki, hökmən həkim olacaq.

– Ədəbiyyat deyirsən. Bu pivnoya vaxtilə bilirsən kimlər gəlib? – Onun gözləri məhəbbətlə işıqlandı. – Əlağa Vahid… Sənin özünün kitabın-zadın var?

Onunla danışmaq xüsusi bir ləzzət idi. Bilmirdi niyə, amma bu belə idi. Unudulmuş bir dad ağıza, dodağa, dilə necə qayıdırsa, bu görüş də onun üçün

həmən dad idi. Amma – onunla ədəbiyyat barədə heç danışmaq istəmirdi. Nə olur-olsun, təki ədəbiyyatdan danışmayaq. Ordan-burdan danışaq, uşaqlıqdan, qocalıqdan, məhlədən, şəhərdən, qızlardan… Tək bir ədəbiyyatdan başqa nədən istərsə. Özü də ona görə yox ki, məhz bu yeni tanışı, adaşı ilə ədəbiyyatdan danışmağı ona müsibəti-Kərbəla kimi gəlirdi. Yox, yox, bir də yox. Ümumən ədəbiyyat barədə danışmaq onun üçün həmişə məşəqqət idi və məşəqqətdən başqa bir şey deyildi.

Birinci sualı çoxmənalı bir tərzdə cavabsız buraxdı. Elə bildi ki, məsələ həll olundu. Ancaq növbəti sual onu az qala əsəbiləşdirdi:

– Ən çox sevdiyin yazıçı kimdi?

Heç bilmədi ki, nə üçün düzgün, səmimi cavab verdi. Yəqin, əsəbiləşdiyi üçün belə oldu. Ona elə gəldi ki, tanınmaz və əlçatmaz bir yüksəkliyin soyuq hənirtisi adaşının ədəbiyyat təşnəsini söndürər:

– Borxes! – cavab verdi və bununla ədəbiyyat söhbətini xətm eləmək istədi.

Bax elə bu an onu əməlli-başlı çaşdıran haman məqam baş verdi. Təəccübdən ağzı açıq qaldı. Heç gözləmədiyi halda adaşı qımışıb:

– Argentinalı Borxes… Xorxe Luis Borxes! – dedi.

Bunu o heç gözləmirdi. Əlağa Vahiddən bir sıçrayışda gəlib Borxesin yanında durasan. Adaşının üzünə baxdı. Özü də qımışa-qımışa. Həm qəribə idi, həm ağlasığmaz. Niyəsə birdən ona qarşısıalınmaz bir həvəs gəldi. Eləcənə ədəbiyyatdan danışmaq istəyi beyninə, canına hakim kəsildi. Özü də məhz onunla danışmaq istədi.

"Deyəsən, mənim Borxesi tanımağım onu heyrətə saldı". – O düşündü.

– Argentinalı Borxes… – O da təkrar elədi. Təəccübü hələ tam keçməmişdi.

– Niyə məhz Borxes? – adaşı sual dolu gözlərini onun üzünə dikdi.

– Yaxşı sualdı. Bilirsən, mənə elə gəlir ki, Borxes heç kimə bənzəmir. O birilər bir-birinə bənzəyirlər. Borxes isə yox. O birilər bir-birinə ona görə bənzəmirlər ki, onlar oxşar süjetlər yazırlar…

Nəfəsini dərdi, pivədən iki-üç qurtumu az qala həsrətlə içdi, bir siqaret yandırmaq istədi, amma fikrindən daşındı. Onun maraq dolu üzünə baxıb sözünə əvvəlki həvəslə davam etdi:

– … hə…, ona görə bənzəmirlər ki, oxşar süjetlər yazırlar. O birilər ona görə bir-birinə bənzəyirlər ki, ümumiyyətlə süjet yazırlar.

Yenə siqaret paçkasını əlləşdirdi. Paçkadakı son siqareti götürüb yenidən yerinə qaytarmaq istədi:

– Bu isə mənim üçün maraqsızdır. "Şipka" qaldı?

– Eybi yox, sən çək, buradan almaq olar. Alarıq.

Siqareti yandırdı. Dərin bir qullab vurdu. Artıq ona çox şey yavaş-yavaş əyan olmağa başlayırdı. Amma sual verməyə qorxurdu. Belə bir haldan qorxurdu ki, verəcəyi sualın cavabını o özü çoxdan bilir. Düşündü: "Gəlsənə belə bir təcrübə edim?! Görək düz tapmışam, ya yox?…"

– Sənin nə zaman həkimlik beyninə düşdü, yadındadı?

Və cavabı gözləmədən:

– Mərc gəlləm ki, bu, xəstəxanada olub, – dedi və pivə bokalını sağlığa qaldıran kimi qaldırıb təntənə ilə onun üzünə baxdı.

Yediyi noxud az qaldı onun boğazında qalsın, düşündü: "Hardan bilir?" Sonra ürəyi yerinə gəldi. Düşündü ki: "Həkimlik adamın yadına harda düşər, xəstəxanada düşər də…"

– Hardan bildin? – ani sükutdan sonra soruşdu.

– Xəstəxanada… Nizaminin ölümündən sonra.

– Sən… Nizamini tanıyırdın? – O artıq çaşqın deyildi, sonsuz marağını isə gizlətmək belə istəmirdi.

– Tanıyırdım. Sakit ol. Sakit ol, qulaq as. Qulaq as. Mən…

Amma sözünün davamını gətirmədi. "Nəyə lazımdı?" təəssüflə düşündü. Elə bil heydən düşdü. Uçan balkon və o balkonun içində özü gəldi durdu gözlərinin düz qabağında. Susdu.

– Düz deyirsən, Nizami ölən gün idi, mən bu fikrə gəldim. Həkim olmaq ən böyük arzum idi. Üç dəfə Tibb Universitetinə qəbula getdim, kəsildim. Başqa heç yer gözümdə deyildi. Niyə – bilmədim. Arzum ürəyimdə qaldı, anam özünə dərd elədi…

O, Nizaminin gözlərini xatırladı. Xəzər dənizinin suları kimi masmavi gözlərini.

Gözləri açıq qalmışdı. O isə heç cür anlaya bilmirdi ki, Nizaminin ata-anası, bacıları nə üçün birdən zar-zar ağlaşmağa başladılar. "O ki hələ ölməyib, hələ ölməyib. Gözləri axı hələ açıqdı". Beynindən ancaq bunlar keçirdi. Nəhayət, həkimlərdən biri əlini sürtüb Nizaminin gözlərini qapadı. Bu mavi gözlər son dəfə ona baxdı, lap uşaqlıqda velosiped sürdükləri vaxtdakı kimi "irəli, ancaq irəli bax" son dəfə səssiz-səmirsiz bu sözləri pıçıldadı və çox asanlıqla yumuldu.

– Mən də vaxt vardı, həkim olmaq istəyirdim. Amma heç vaxt bu barədə ciddi düşünmədim. İmtahan verməyə də getmədim.

– Mən isə getdim. – O hansısa məchul bir nöqtəyə gözünü dikərək fikirli-fikirli dilləndi. – Bəlkə də elə buna görə həyatım alınmadı. Bilirsən, – o dikəldi, – mən tez-tez bir yuxu görürəm…

Onun damarlarında az qala qanı dondu.

– …balkonumuzu görürəm. Tut ağaclarını, Nizamini, Nizaminin qırmızı-sarı velosipedini… Balaca uşaq idim. Balkonda sakit durmazdım, elə hey atdanıb düşərdim. Anam da hər dəfə deyərdi: a gedə, balkon uçdu, sakit ol. Bundan sonra yuxumda hər dəfə görürəm ki, balkon həqiqətən mənim təpik səslərimdən uçub küçəyə dağılır, anam hövlnak küçəyə qaçır, məni taxta-tuxtanın, dəmir parçalarının arasından həyəcan içində rəngi qaçmış halda çıxarmağa çalışır. "Kamal, bala, necəsən?" deyir. Səsi qulağımdan heç getmir.

– Qəribə yuxudu, – dedi və düşündü: "Tez buradan getmək lazımdır. Bura mənim yerim deyil".

O hiss elədi ki, adaşı yorğunlaşıb. Elə özü də artıq qəribə bir halda idi. Xəstəxana söhbəti iləmi, yoxsa pivə iləmi gələn qurtum-qurtum, cümlə-cümlə

gərginlik çıxıb canından hələ də getməmişdi, niyə, nə üçün – bu suallara cavabı yox idi.

– Gedək? – O soruşdu.

– Gedək. – O, cavab verdi.

Pivəxanadan çıxdılar. Məhzun bir yaz gecəsi idi. Şəhərdə havalar yavaş-yavaş istiləşməyə başlayır, adamlar ağır geyimlərini soyunurdu. Soyuq olmağına artıq soyuq deyildi, amma ağacların bəzisi yüngülvarı istiyə aldanıb tumurcuq açmağa hazırlaşırdı. Səni səndən yaxşı tanıyan adama necə nifrət edərsənsə, onlar da eynən o cür, ürəklərində bir-birinə nifrət, bir-birinin üzünə belə baxmaq istəmirdilər. Sağollaşmadan getməyi ikisi də beynindən eyni zamanda keçirdi. "Belə yaxşıdı". "Əlbəttə, belə yaxşıdı. Görəsən, kim kimin yuxusudu?"

Qəfildən… "Ah, unutdum", – deyə beynindən sürətlə bu fikir keçdi:

– Unutdum. Alışqanı unutdum. İndi gəlirəm… – deyərək o, pivəxanaya qayıtdı.

Nədənsə o da onun arxasınca getdi. İkisi də qayıdıb yenidən pivəxanaya girdi.


…Pivəxanadan çıxdılar. Məhzun bir payız gecəsi idi. Havalar üzü soyuğa doğru gedirdi, adamlar da başlamışdılar yavaş-yavaş plaş-paltoya keçməyə. Ağaclar kədərlə yarpaq və çiçəklərinə nəzər yetirir, yaxındakı şaxtalardan qoruna bilməyəcəklərini özlərinə dərd edirdilər. Səni səndən yaxşı tanıyan adamı necə sevərsənsə, onlar da – ürəklərində coşqun və anlaşılmaz məhəbbət – bir-birinin üzünə diqqət və qayğıyla baxdılar.

– Gedək bizə. Vallah düz deyirəm. Bizim ev yaxındadı.

– Yox, sağ ol. Gecdi daha. Çox xoş bir gecə oldu. Sağ ol. Özündən muğayat ol.

– Elə sən də özündən muğayat ol.

Yenə də həmən diqqət və məhəbbətlə bir-birinə baxdılar. Sonra möhkəm-möhkəm əl sıxıb ayrıldılar, hər biri dönüb öz yolu ilə çıxıb getdi.



QİSMƏT

Üz-üzə güzgülər
(Kamal Abdullanın hekayələrini necə oxumalı)

Məşhur əhvalatdır: əlini rəngdən-rəngə bulamış Pablo Pikasso İkinci Dünya müharibəsinin axır-axırında Aralıq dənizi sahilində yerləşən bir şəhərdə, orta əsrlərdən qalma bir qəsrdə özünə sığınacaq tapır. Şəkil çəkməyə kətan tapmayan, ona görə də içindəki sənət eşqini, yaratmaq ehtirasını öləziməyə qoymayan sənətkar qəsrdə əlinə keçən bütün qədim rəsm əsərlərini astarlayır və rəsmlərin əvvəlki mövzusuna sadiq qalmaq şərtilə həmin kətanlara öz variantlarını çəkir. Bu gün həmin qəsrdə həmin versiyaların ikisi də yanaşı nümayiş olunur.

İstanbulda, Ayasofya muzeyində də bunu görmək olar. Osmanlı-İslam memarlığının qazılan, qopub düşən yerlərinin altından Bizans-Xristian freskaları boy göstərir. Bu, tarixin fotoşopudur, ya da sənət terminiylə desək, palimpsest. Palimpsest – latın dilində "yenidən qazılmış" deməkdir, yəni ki, yeninin silinib getməyən köhnənin üstünə yazılaraq qatbaqat olduğu həqiqətlər toplusu. Beləliklə, Kamal Abdullanın hekayələrini çözmək, yozmaq, oxumaq üçün ilk açar sözü əldə etdik, demək, artıq bu güzgülü labirintlərə daxil ola bilərik.

***

Kamal Abdullanın Borxesə ithaf etdiyi "Adaşlar" hekayəsi argentinalı yazıçının "Borxes və Borxes" hekayəsi ilə intertekstual əlaqə üzərində qurulub. Bu hekayə üzərində xüsusi dayanmaq istəyirəm, çünki fikrimcə, bu hekayə Kamal Abdulla yaradıcılığı üçün proqram, manifest xarakterlidir. Bu hekayənin

həm strukturu, həm işarələri, həm də dil qatındakı oyunları postmodern sənətin bütün əsas cizgilərini özündə cəmləyib.

Hekayə günorta vaxtı eyni saatda yatıb eyni yuxunu görən və eyni saatda (6-da) yuxudan oyanan təhkiyəçinin dilindən nəql edilir. Gözləri Homerlə adaş olan Borxes hekayəni birinci şəxsdə yazıb, öz başına gəlmiş kimi; Kamal Abdulla isə üçüncü şəxsin dilindən danışır, başqasından eşitmiş kimi, müşahidə etmiş kimi. "Adaşlar" hekayəsinin hələlik adını bilmədiyimiz təhkiyəçisi birinci abzasdaca ilk baxışdan sadə, amma məsələnin məğzinə işıq salan açar bir cümlə işlədir: "Günorta yatanlara həmişə qəribə baxmışdı". Nədir bu cümlənin əhəmiyyəti? Bu sualın cavabını anası təhkiyəçiyə "necəsən" sualını verəndə cavablandıracağam.

Görülən yuxu, müəllifin yazdığı kimi, əslində, çox sadədir: təhkiyəçi özünü uşaqlıq, yeniyetmələk çağında köhnə evlərində, o evin küçəyə açılan bağlı balkonunda görür. Yuxunun özəlliyi budur ki, o, bu yuxunun içində indiki halını, yəni yuxunu görən orta yaşlı vaxtını unutmur, yuxunun yuxu olduğunu bilir. Müəllif qəribə şəkildə yuxunu meşə kimi təsəvvür edir, yuxunun dərinliyinə getdikcə yarpaqlar sıxlaşır, budaq budağa calanır. Təhkiyəçi yuxuda köhnə evlərindəki tozlu masanın üstünə adını yazır, elə bil, özünü keçmişin yadına salmaq istəyir (Vaqif Səmədoğlunun unudulmaz misralarını xatırla-yıram*:* "Tozlu masanın üstündə iki dirsək yeri, sənsizliyimin bərəlmiş gözləri…")

Yuxunun kulminasiyasında anası pıçıltıyla təhkiyəçiyə deyir: "Bəsdir, a bala, bu qədər atdanıb-düşmə daha. Balkon uçar. Sən istəyirsən ki, balkon uçsun?!"

Bu cümləni yadda saxlayın, çünki "balkonun uçmağı" məsələsi simmetrik şəkildə hekayənin ikinci hissəsində də əks-səda verəcək, amma başqa formada.

Təhkiyəçi oyananda yuxunun onda yaratdığı assosiasiyalar, suallar çoxalır. Məsələn, vaxtilə bir həyətdə yaşadığı, velosiped sürdüyü, sonra bıçaqlanıb ölən dostu Nizamini xatırlayır. Bir də düşünməyə başlayır: necə oldu ki, ədəbiyyatçı oldum, axı dostum öləndən sonra həkim olmaq istəmişdim.

Hekayənin bu yerində öyrənirik ki, təhkiyəçi filoloqdur, ədəbiyyat adamıdır, elə müəllifin özü kimi. Filoloqun eyni saatda yuxudan oyandığı səhnədə müəllif yazır: "Bir an olur, adam bilmir ki, indicə ayrıldığın, uzaqlaşdığın yuxunun içindəsən, yoxsa yox".

Bu implisit (üstüörtülü) eyham yuxu haqqında məşhur Çin pritçasını yada salır: "O, yuxuda kəpənək olduğunu gördü. Oyananda isə dəqiqləşdirə bilmədi ki, yuxuda adam olduğunu görən kəpənəkdir, yoxsa kəpənək olduğunu görən adam".

Sizə bir sirr açım: bu hekayə, əslində, yaradıcılığın, yazmağın özü haqqındadır. İnanmırsınızsa, yuxarıda söz verdiyim sualın cavabını açıqlayanda inanacaqsız. Filoloq oyanır və həm o, həm də biz dəqiq bilmirik ki, yuxu davam edir, ya yox. Birdən anasının səsi gəlir: "Kamal, bala, necəsən?" Bu, hekayənin ən gözlənilməz yerlərindən biridir. Məlum olur ki, təhkiyəçi müəlliflə adaşdır; üstəlik, qəribə bir effekt yaranır, sanki mətn özünə, öz müəllifinə, öz yazılma

prosesinə səslənir, özünü nişan verir, gerçəkliklə fiksiyanın arasındakı sərhəd yuxu ilə ayıqlıq arasındakı sərhəd kimi şəffaflaşır, yoxa çıxır. Bu sadə cümlə hekayənin tən yarısıdır, burdan o yana hekayənin ikinci hissəsi başlayır. Müəllif mətni elə ustalıqla qurub ki, hekayənin əvvəlindən də, axırından da bu cümləyə tərəf iki nəfər gəlir və onlar bu cümlədən sonrakı abzasda – köhnə məhlədə görüşürlər. Elə bil, iki güzgü üz-üzə qoyulur və sonsuzluq çoxalmağa başlayır.

Söz verdiyimiz kimi, anası təhkiyəçiyə səslənəndən sonra "Günorta yatanlara həmişə qəribə baxmışdı" cümləsinin əhəmiyyətindən danışaq və aydınlaşsın ki, niyə bu hekayə yazmağın özü haqqındadır.

Ziqmund Freydin məşhur bir məqaləsi var: "Yaradıcı yazıçılar və gündüz yuxuları" ("Creative writers and Day-dreaming"). Məqalədə Freyd təxminən belə suallar qoyur: yazıçılar bu qədər hekayə yazırlar, bəs bunun mənbəyi hardadır, istifadə etdikləri qaynaq nədir, onlar varlığından xəbərimiz olmayan duyğuların canlı təəssüratlarını yaratmaq üçün hansı metodlardan faydalanırlar? Freyd iddia edir ki, özünəməxsus bir dünya quran, ya da dünyanı öz xoşuna gələcək şəkildə yenidən tərtib edən uşaqlar oyun oynayarkən yaradıcı yazıçılar kimi davranırlar. Sonra uşaq böyüyür və oyun dünyasından aralı düşür, zaman keçdikcə özü də heyrətlənir ki, vaxtilə oyunlardan necə zövq alıb. Amma – Freyd deyir – insan təbiəti heç nəyi atmır, sadəcə bir şey başqa şeyin yerinə keçir. O, artıq oyun oynamasa da, xəyal qurmağa davam edir. Freyd gecə görülən yuxularla gündüz görülən yuxuları ayırır və gündüz görülənləri yaradıcı yazının metaforası kimi istifadə edir. Bu kontekstdə baxanda "Günorta yatanlara həmişə qəribə baxmışdı" cümləsinin gizlinləri bir az aydınlaşır, amma hələ tam yox. Tam olması üçün növbəti cümləni yanına əlavə etməliyik: "İndi isə özü hər gün öhdəlik götürmüş adam kimi eyni vaxtda yuxu ilə görüşə tələsirdi". Öhdəlik götürmüş kimi yuxular aləminə, oyun dünyasına, alternativ gerçəkliyə, yaradıcılıqla adaş, əkiz dünyaya tələsən təhkiyəçi (müəllifin hekayədəki alter eqosu), Freydin diliylə desək, gündüz yuxuları görür, yəni zamanlararası sərhədlərin itdiyi yerə can atır. Bu, elə yaradıcı yazının, yazmağın metaforasıdır.

Biz burada birinci abzasın sirrini açmaqdaykən hekayənin tən ortasında adaşlar artıq görüşüblər, amma onlara çatmaq elə də çətin deyil.

Adaşlar köhnə həyətdə, mişarlanmış tut ağaclarının qabağında görüşürlər. Cavan yaşlıdan soruşur ki, kibritin varmı? Yaşlı alışqan çıxarır. Bu "kibrit-alışqan" semiotikası şərhsiz şəkildə kimin hansı dövrə aid olmasını nişan verir: kibrit həm təhkiyəçinin, həm də, elə bil ki, sivilizasiyanın cavanlıq dövrüdür, alışqan isə əksinə. Bir də, əlbəttə, iki insan varsa, demək, iki tale var və bu mənada qoşa tut ağacının varlığı (həm də yoxluğu) köhnə həyətdə qətiyyən təsadüfi deyil.

Adaşlar bir-birinin adını öyrəndikdən sonra cavan yaşlıya öz balkonlarını göstərib onu diksindirir. Müəllif burada balkonun açıq olduğunu xüsusi vurğulayır: "…ikinci mərtəbədəki tanış, amma açıq balkonu göstərdi". Yazıçı bunu ona görə edir ki, uçmaqla bağlı olan bu açıq balkon keçmişdəki qapalı balkonun invariantıdır və bu, əbəs yerə belə deyil. Bir azdan uçmağa da, balkona da qayıdacağıq.

Adaşlar yaxınlıqdakı pivnoya gedirlər. Oradakı söhbətdən aydın olur ki, cavan həkim, yaşlı isə yazıçıdır; əslində, personajlar bir-birlərinin kim olduğunu bilirlər deyə onlarınkı sadəcə bildiklərini təsdiq etməkdir. Həkim yazıçıdan soruşur: "Ən sevdiyin yazıçı kimdir?" Yazıçı könülsüz də olsa cavab verir: "Borxes". Yazıçı görür ki, həkimliyi seçmiş variantı da Borxesi tanıyır və içində anidən onunla ədəbiyyatdan danışmaq istəyi yaranır. Növbəti sual gəlir: "Niyə məhz Borxes?" Bax bu sualın cavabında Kamal Abdullanın yazıçı kimi dünyagörüşü, estetik platforması gizlənib. Cavab belədir: "…Bilirsən, mənə elə gəlir ki, Borxes heç kimə bənzəmir. O birilər bir-birinə bənzəyirlər. Borxes isə yox. O birilər bir-birinə ona görə bənzəmirlər ki, onlar oxşar süjetlər yazırlar… O birilər ona görə bir-birinə bənzəyirlər ki, ümumiyyətlə süjet yazırlar".

Fikrimcə, öz və özgə qarşıdurması üstündə yazılan bu hekayə həm də yaradıcılığın, yazmağın özü haqqındadır. Çünki müəllif hekayəni ədəbiyyatı seçmiş Kamalın perspektivindən yazır.

Argentinalı yazıçının "Borxes və Borxes" hekayəsində də ədəbiyyatla bağlı mükalimə var, lakin oradakı mükalimədə cavan Borxes ədəbi mövqeyini belə izah edir ki, yazdıqları "alçaldılmış və təhqir olunmuş" kütlə üçündür. Buna görə də Borxesin hekayəsində Dostoyevskinin adı çəkilir. Yaşlı Borxes isə cavab verir: "Sənin istismar olunan əzabkeş kütlən mücərrəd anlayışdan başqa bir şey deyil. Var olan ayrı-ayrı fərdlərdir, əgər var deyilən şey doğrudan da varsa. "Sən bu gün artıq dünənki sən deyilsən", – bir yunan belə söyləyib". Bu da Borxesin estetik platformasıdır; o deyir ki, dinamik yaşayan (yeri gəlmişkən, Borxes üçün dinamizm əsasən daimi mütaliə və yazmaq demək idi) və öz dövrünün müasiri olan insan, məsələn, 60 yaşında öz 30 yaşı ilə görüşə bilsə, onlar iki yad, iki özgə insan olacaqlar.

Hekayə Borxesə ithaf edilib, Borxesin bir hekayəsinin motivləri əsasında yazılıb, onunla intertekstual əlaqə qurulub, mətnin içində də Borxesdən danışılır; bu üz-üzə qoyulmuş güzgü, iç-içə yığılmış matryoşka effektini izah etmək üçün növbəti açar anlayışa ehtiyac var: *mise en abyme***.** Kamal Abdulla esseistikasına xas bir fəndlə bir haşiyə çıxıb bu anlayışı izah edək.

Haşiyə. Üç-dörd il əvvəl Borxesin əsərlərini oxumağa girişmişdim. Onun mətnləri iki dəfə məni axmaq vəziyyətə saldı. Birinci dəfə bu vəziyyətə onun "Don Kixotun müəllifi Pyer Menar" hekayəsini oxuyanda düşmüşəm (sonradan bildim ki, tək deyilmişəm, bu da adama bir az təsəlli verir). Borxesin Pyer Menar adlı qəhrəmanı Servantesin "Don Kixot" əsərini yenidən yazmaq istəyir, amma başqa bir variantını yox, məhz elə Servantesin romanıyla sözbəsöz üst-üstə düşən bir variantını yazmaq istəyir. Belə çıxır ki, bu əsər həm o əsər olacaq, həm də yox. Borxes hekayədə Servantesin əsərindən bir parça ilə Menarın yazdığı bir parçanı müqayisə etmək üçün sitat gətirir; mən o sitatları, Allah bilir, neçə dəfə oxudum, amma arada heç bir fərq tapa bilmədim. Nöqtə-vergülünə qədər eyni şeylər yazılmışdı. Əvvəl düşündüm, bəlkə durğu işarələrində, sətir aralarında nəsə oyun var – yox imiş; sonra düşündüm ki, tərcümə səhvdir – bu da deyilmiş. Hər iki mətn parçası bir-birinin oxşarı, adaşı, əkizi idi. Ta Con Bartın postmodernizmin manifestlərindən sayılan "Tükən-

mişlik ədəbiyyatı" adlı proqram yazısı ilə tanış olana qədər bunun mənasını başa düşmədim. Bart məqalənin bir yerində yazır:

"Borxesin hekayəsi, əlbəttə, satiradır, lakin ideyanın intellektual dəyəri də var. Əvvəl də qeyd etmişdim, əgər Bethovenin "Altıncı simfoniyası" bu gün bəstələnsəydi, biabırçı bir şey olardı, nə bilim, bəlkə də olmazdı. Amma hardan-hara gəlib çıxdığımızın fərqində olan bir bəstəkar tərəfindən ironik məqsədlə ifa edilsəydi, biabırçı olmazdı. Bax onda bu əsər potensial olaraq yaxşı və ya pis, Endi Vorholun "Kempbelin şorba bankaları" kimi bir şey olacaqdı. Birinci nümunəni fərqləndirən odur ki, burada qeyri-sənət yox, keçmişdə sənət olmuş bir əsər yenidən istehsal edilir, buna görə də ironik şərh mədəniyyətə yox, daha çox birbaşa konkret incəsənət növünə və onun tarixinə yönəlmiş olur. Əlbəttə, faktiki olaraq kiminsə intellektual baxımdan keçərli nəsə deməsi üçün nə "Altıncı simfoniya"nı yenidən bəstələməyə, nə də Menar kimi "Don Kixot"u təzədən yazmağa ehtiyac var. İntellektual baxımdan yeni nəsə demək istəyirsə, Menarın romanı öz adına çıxması bəs edərdi… Borxesin əksərən estetik yox, metafizik əhəmiyyət daşıyan digər özünəməxsus fikirləri kimi, buradakı fikir də intellektual mənada ciddidir. Amma diqqət ediləsi vacib məqam odur ki, Pyer Menar kimi kitabı təzədən yazmaq nədir, Borxes "Don Kixot"u özünə belə aid etmir; bunun əvəzinə orijinal əsərlər yaratmağın çətinliyi və bəlkə də lüzumsuzluğundan bəhs edən fövqəladə dərəcə gözəl və orijinal bir bədii əsər yazır. Borxesin bədii qələbəsi ondan ibarətdir ki, o, intellektual tupiklə üz-üzə dayanmaqdan çəkinmir və bunu öz xeyrinə elə çevirir ki, nəticədə bəşəri bir əsər yarada bilir".

Borxes məni ikinci dəfə bir esse ilə çaşdırdı. Bu esseni bizim dilə təxminən "Fiksiya fiksiya içindəykən" ("When Fiction Lives in Fiction") adıyla tərcümə etmək olar. Bu essedə Borxes yazırdı ki, "Min bir gecə nağılları"nda əsas 602-ci gecədir, çünki bu qəribə gecədə sultan Şəhrizadın dodaqlarından öz hekayəsini eşidir, beləliklə, digər hekayələri də, öz hekayəsini də əhatə edən qəribə bir çərçivə yaranır, mətn əvvələ dartılır. Əgər Şəhrizad danışmağa davam etsə, min bir gecənin sonsuzlaşan, dövriləşən hekayəsinin içində qısılıb qalan sultan əbədi olaraq nağıla qulaq asmağa məcbur olacaq… "Min bir gecə nağılları"nda Şəhrizad müxtəlif hekayələr danışır, bu isə, elə bil ki, elə "Min bir gecə nağılları"nın öz hekayəsidir.

Qəribə məsələdir, bir mətnin içində o mətnin özü haqqında danışılır. Bu cür intellektual tapmacaları, oyunları sevən Borxes məni yenə nokauta salmışdı. Yadıma gəlir, necə həyəcanlandımsa, gecənin bir yarısı durub kitabxanamdan "Min bir gecə nağılları"nı tapdım, 602-ci gecəni açdım… və gördüm ki, orada belə bir əhvalat yoxdur. Önhökmlə əsəbiləşdim ki, bizim tərcüməçilər həmişə belə olublar, məsuliyyətsizdirlər, yenə nəyisə atıblar, gözdən qaçırıblar. Səhər rus və türk variantlarına baxdım, gördüm ki, orada da belə əhvalat yoxdur. Bu, Borxesin ağlasığmaz fantaziyasının məhsulu idi. Sonralar, məsələn, elə bu yazını yazarkən bəzi başqa mənbələrə də baxdım və məlum oldu ki, Borxes xeyli adamı aldadıbmış. Məşhur nəzəriyyəçi Todorov heç kitablara baxmadan Borxesə inanıb və həmin parçanı sitat gətirərək şərh edib. Bircə, deyəsən, Con

Bart aldanmayıb; o, zarafatla yazır ki, kitabda elə bir əhvalat yoxdur, amma arabir kitabı təzədən yoxlamaq lazımdır, Borxesdən nə desən çıxar!

Mise en abyme anlayışını daha da açmaq üçün, şübhəsiz, Borxesin oxuduğu və üstüörtülü xatırladığı Andre Jidin gündəliklərinə müraciət etməliyik: "Bir sənət əsərində xarakterlər kontekstində əsərin öz mövzusu ilə yerini dəyişdiyini görməyi çox sevirəm. Heç nə əsərin bütövlüyünü bundan daha yaxşı göstərə bilməz, yaxud əsəri daha yaxşı işıqlandıra bilməz. Az-maz fərqlə Dieqo Velaskesin "Meninlər" tablosunda olduğu kimi. Ədəbiyyata keçsək, Şekspirin "Hamlet" pyesinin içində bir pyesin göstərildiyi bir səhnə var…"

Mise en abyme – sonsuzluğa düşmək deməkdir; Andre Jid bu termini heraldikadan (möhür, emblem, nişanları öyrənən elm, gerbşünaslıq) götürüb. Jiddən və Borxesdən başqa bu məsələyə, xüsusilə Velaskesin "Meninlər" tablosu ilə bağlı şərhə Mişel Fukonun məşhur "Kəlmələr və şeylər" kitabının əvvəlində də rast gəlirik.

Burada artıq məsələnin məğzinə gəldik. Nədir bu tablonu bu qədər fərqli edən? Velaskesin tablosu kral IV Filipin və arvadının portretinin çəkilmə anını göstərir. Sənətşünasların fikrincə, bu tablo "rəsm sənətinin öz fərqinə varmasının" ifadəsidir. Bu tabloda Velaskes özü də əsərin içində var. Tabloda Kral Filip və arvadı rəssama poza verdikləri yerdən bizə baxırlar. Bir optik illüziya ilə bizə elə gəlir ki, onların gözündən rəsmə baxırıq. Fuko bunu yaxşı izah edir, yazır ki, rəssamın özünü rəsmin içinə yerləşdirməsi artıq rəsm sənətinin özünəqədərki dünyagörüşündən fərqli bir şeyi təmsil etdiyini göstərir. Elmdə olduğu kimi, sənətdə də, mədəniyyətdə də paradiqma dəyişikliyi baş verib. Ümumi qənaətə görə, sənət əsəri reallıqdakı nəyisə təmsil edir. Fuko isə deyir ki, bu tablo həmin klişenin dəyişdiyini, ya da dəyişəcəyini xəbər verən ilk əsərdir.

Velaskes sifarişçilərin rəsmini yox, rəsmin çəkilmə anını çəkib; biz bu gün XVII əsrdə çəkilmiş bu rəsmə baxanda kral ailəsindən çox rəsmi çəkən rəssamı və onun qabağında poza verən başqalarını görürük. Elə bil rəsmi çəkilən subyektlər güzgüdür, biz də rəssamı onların güzgüzündə görürük. Bu məqamda realist dünyagörüşü çat verir. Məsələnin maraqlı məqamı odur ki, tabloda rəssamın arxasında divarda asılan bir güzgü var, kral ailəsini həmin güzgüdən görürük. Sonradan ədəbiyyata da çox təsir edən bu məntiqlə yaradılmış əsərləri klassik realizmin süjet, dil və digər anlayışları ilə izah etmək gülməlidir.

Qayıdaq haşiyəyə. "Adaşlar"da da müəllif hekayənin içinə hekayənin özüylə bağlı, öz ədəbi dünyagörüşü, estetik platforması ilə bağlı məqamları qatıb, hekayənin ithaf edildiyi Borxes elə Borxesin hekayəsindəki situasiyaya uyğun şəkildə xatırlanıb…



İndi isə, söz verdiyimiz kimi, “uçmaq və balkon” məsələsinin gizli-aşkar simmetriyasına keçək. Burada isə başqa bir açar söz olan dekonstruksiyaya keçirik.

Dekonstruksiya nəzəriyyəsinin atalarından olan fransız filosof Jak Derridanın araşdırmaları əsasən dil və mətn üzərindədir. Derrida deyir ki, hər mətn xaos və paradosklar toplusudur, müəllifin məqsədi nə olur-olsun, ortaya çıxan mətnin həqiqi mənasını bilmək mümkün deyil. Derrida bu fikriylə məna və informasiya ötürücüsü kimi dili dekonstruksiyaya məruz qoyur, yazır ki, biz dilin nəyi ifadə etdiyini tam mənası ilə qavraya, danışarkən sözləri ən saf halda qarşımızdakına ötürdüyümüzü iddia edə bilmərik. Derridanın fikrincə, bu, dərin aldanış, illüziyadır. O deyir ki, ünsiyyət, kommunikasiya zamanı həmişə boşluqlar, pauzalar, yarıqlar yaranır, deməli məna, anlam özlüyündə tək, bir başına deyil, üstəlik, dil də, məna da daimi dəyişiklik içindədir. Sual verirlər ki, bəs nə etməli? Derrida cavab verir: “Mətnləri parçalara ayırın, içindəki müxtəlif mənaları saf-çürük edin”. Dilçilikdə buna təxminən “məna sapması” deyirlər. Orxan Pamukun “Qar” romanında Ka adıyla, “ka” sözüylə qurduğu oyunu xatırlayın, hər şey birmənalılıqdan çıxır, məna daim ertələnir…

Kamal Abdulla “Adaşlar” hekayəsində “uçan balkon” ifadəsi ilə bu cür dil oyunu qurur, sözün dibini qazır, onun mənaları ilə oynayır. Məsələ budur ki, bizim dildə “uçmaq” sözünün iki mənası var: biri göyə qalxmağı – uçmağı ifadə edir, digəri isə dağılmağı, sökülüb uçmağı. Müəllif hekayənin daxili strukturunu da bu sözün ikibaşlılığı üstündə qurub. Ədəbiyyatı seçən Kamalın yuxusunda

balkon göyə uçur, həkimliyi seçən Kamalın yuxusunda isə yerə çırpılır, uçub dağılır…

Hekayənin finalı da gözlənilməz, bir o qədər də gözəldir. Adaşlar pivəxanadan çıxıb gedirlər, amma müəllif bunu iki variantda yazır. Birinci variantda yaz fəslidir və müəllif gözlənilməz şəkildə bu variantı "nifrət" sözüylə işarələyib: "Pivəxanadan çıxdılar. Məhzun bir yaz gecəsi idi. Şəhərdə havalar yavaş-yavaş istiləşməyə başlayır, adamlar ağır geyimlərini soyunurdu. Soyuq olmağına artıq soyuq deyildi, amma ağacların bəzisi yüngülvarı istiyə aldanıb tumurcuq açmağa hazırlaşırdı. Səni səndən yaxşı tanıyan adama necə nifrət edərsənsə, onlar da eynən o cür, ürəklərində bir-birinə nifrət, bir-birinin üzünə belə baxmaq istəmirdilər. Sağollaşmadan getməyi ikisi də beynindən eyni zamanda keçirdi. "Belə yaxşıdı". "Əlbəttə, belə yaxşıdı. Görəsən, kim kimin yuxusudu?"

İkinci variantda isə fəsil payızdır və açar söz "sevgi"dir: "…Pivəxanadan çıxdılar. Məhzun bir payız gecəsi idi. Havalar üzü soyuğa doğru gedirdi, adamlar da başlamışdılar yavaş-yavaş plaş-paltoya keçməyə. Ağaclar kədərlə yarpaq və çiçəklərinə nəzər yetirir, yaxındakı şaxtalardan qoruna bilməyəcəklərini özlərinə dərd edirdilər. Səni səndən yaxşı tanıyan adamı necə sevərsənsə, onlar da ürəklərində coşqun və anlaşılmaz məhəbbətlə bir-birinin üzünə diqqət və qayğıyla baxdılar".

***

Zaman-zaman köhnə fotolara baxmağı, 190 nömrəli məktəb civarından burulub uşaqlığımın keçdiyi Mustafa Sübhi küçəsinə baş çəkməyi sevirəm, bir də bəzən köhnə videokasetlərdəki hansısa ailə məclisində dəcəllik edən, şeir oxuyan görüntülərimə baxıb gülməyi. O köhnə videogörüntülərdən birində atılıb düşə-düşə kameranın obyektivinə barmağımı vurur, həm məni çəkən kameraya, həm də obyektivdə əks olunan surətimə gülə-gülə sual verirəm: "Qismət, məni görürsən?" Və həmişə də cavab verirəm: "Görürəm, bəs sən necə, sən də görürsənmi məni?.."

Oktyabr

* * *

Oktyabrın 5-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Astara Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda konfrans keçirilib.

DQİDK-nın sədr müavini Gündüz İsmayılov Prezident İlham Əliyevin sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsinin İslam dünyasının həmrəyliyinə verilən böyük önəmin göstəricisi olduğunu bildirib. O, ölkəmizdəki tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, respublikamızda istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını vurğulayıb.



"İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" adlı konfransdan görüntü. Çıxış edir Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov

* * *

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi çərçivəsində respublikamızın 40, dünyanın 17 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni uğurla tədris edilir.

Bu yaxınlarda Yaponiyanın ən güclü beş universitetindən biri olan Hokkaydo Universitetində Azərbaycanın multikulturalizm modeli ilə bağlı müntəzəm dərslərə start verilib. Dərslər BBMM və Hokkaydo Universiteti Slavyan Avrasiya Araşdırmalar Mərkəzinin cari ilin may ayında əldə edilmiş razılaşması əsasında baş tutub. Fənni Hokkaydo Universitetində konfliktologiya elmləri üzrə PHD təhsili alan yaponşünas alim, Yaponiya

hökumətinin dövlət təqaüdçüsü Əlibəy Məmmədov tədris edir. Dərslər yapon dilində keçilir.



Yaponiyanın Hokkaydo Universitetində "Azərbaycan multikulturalizmi" fənninin tədris edildiyi auditoriyadan görüntü

* * *

Oktyabrın 10-da Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rana Azərbaycan Dillər Universitetində (ADU) həyata keçirilən yeni "Səfir saatı" layihəsi çərçivəsində universitetin tələbələri ilə görüşüb.

ADU-nun Tədris işləri üzrə prorektoru professor Əfqan Abdullayev səfiri universitetdə görməkdən məmnunluğunu bildirib. Hindistan səfirliyi ilə ADU arasında çox sıx və faydalı əməkdaşlığın olduğunu deyən professor tələbələrin bu görüşdən zövq alacaqlarına əminliyini ifadə edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə təşəkkürünü bildirən səfir rəhbərliyin səfirliklə universitet arasındakı əlaqələrin inkişafına dəstək və qayğısını yüksək qiymətləndirib. Səfir Sanjay Rana "Mahatma Qandi: həqiqət və qeyri-zorakılıq carçısı" mövzusunda məruzə ilə çıxış edib. O öz çıxışında Qandinin həyatının ilk illəri, Cənubi Afrikadakı fəaliyyəti, onun Hindistanın müstəqillik mübarizəsində, "Duz yürüşü"ndə və "Hindistanı tərk et" hərəkatındakı rolu, Hitlerə məktubu haqqında ətraflı məlumat verib. M.Qandinin fəlsəfi düşüncələri, "Qandinin tilsimi" haqqında danışan səfir onun "Qeyri-zorakılıq – Ahimsa" və "İstədiyin dəyişiklik ol!" ideyalarından bəhs edib. Səfir Qandinin mülki itaətkarlıq və bəşər qarşısındakı xidmətlərindən də söz açaraq onun təhsil haqqında fikirlərini tələbələrin diqqətinə çatdırıb.

Görüş tələbələri maraqlandıran sualların cavablandırılması ilə davam edib. Fəallıq göstərən tələbələrə səfirlik tərəfindən kitab hədiyyə olunub.

Sonda səfir S.Rana ADU-nun xatirə dəftərinə ürək sözlərini yazıb.

Qeyd edək ki, universitetdə "Səfir saatı" adlı yeni klub yaradılıb. Bu layihənin məqsədi ADU-ya gələn səfirlərin təkcə müvafiq mərkəzlərlə deyil, digər strukturlarla da əlaqələrinin qurulması və onların universitetdə mühazirələrlə çıxış etməsini təmin etməkdir. Hindistan səfirinin mühazirəsi bu layihə çərçivəsində həyata keçirilən ilk tədbirdir.



Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sanjay Rananın Azərbaycan Dillər Universitetinin "Səfir saatı"nda tələbələrlə görüşü

* * *

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə oktyabrın 13-də "İslam həmrəyliyi: Azərbaycan örnəyi" mövzusunda konfrans keçirilib.

Konfransda DQİDK-nın, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin rəhbər və məsul şəxsləri, dini icma və qeyri-hökumət təşkilatlarının təmsilçiləri, gənclər, ictimaiyyət nümayəndələri iştirak ediblər.



"İslam həmrəyliyi: Azərbaycan örnəyi" adlı konfransdan görüntü

DQİDK sədrinin müavini Gündüz İsmayılov bildirib ki, "İslam Həmrəyliyi İli" ilə bağlı Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev tərəfindən müvafiq tədbirlər planı təsdiqlənib. Həmin tədbirlər planına uyğun olaraq komitə silsilə konfrans, seminar və müşavirələr keçirir.

Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev ölkəmizdəki tolerant mühitdən söz açıb, islam həmrəyliyinin Azərbaycan örnəyinin və modelinin dünyada təbliğ olunmasının vacibliyini vurğulayıblar.

** * **

Oktyabrın 13-də Qəbələ Rayon Mədəniyyət Mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunada seminar-müşavirə keçirilib.

Dini icma sədrləri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyəti başçısının müavini Ətayə Osmanova rayonda həyata keçirilən dini maarifləndirmə tədbirlərindən, eyni zamanda, dini icmaların fəaliyyəti üçün yaradılan şəraitdən danışıb.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı çıxışında qeyd edib ki, Azərbaycan xalqı son dövrlərdə ateizm və mövhumat arasında ən doğru orta yolu formalaşdırır. Bu proses müstəqillik illərində dövlətin əsas prioritetlərindən birinə çevrilib. S.Salahlı bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən yürüdülən bu uzaqgörən siyasətin əsas mahiyyəti inanc dəyərlərimizin milli xüsusiyyətlərimizlə uzlaşdırılması və İslamın savaşa, məzhəblərarası konfliktlərə, cəmiyyətdə mənəvi durğunluğa sürüklənməməsidir. Ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nin təsadüfi olmadığına diqqət çəkən sədr müavini son 25 ildə bir çox istiqamətlər üzrə nümunələr, örnəklər yaradan ölkəmizdə İslamın zərərli və dağıdıcı təsirlərdən qoruyan mükəmməl Azərbaycan modelinin formalaşdığını deyib.




Qəbələ rayonunda "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda keçirilən seminar-müşavirədən görüntü

** * **

Oktyabrın 17-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdullayev İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari ilə görüşüb. Multikulturalizm sahəsində əməkdaşlıqdan söz açan K.Abdullayev bildirib ki, "Azərbaycan multikulturalizmi" fənninin tədris edildiyi universitetlərdən biri də İtaliyanın La Sapienza Universitetidir. ADU-nun bir çox xarici

universitetlərlə əməkdaşlıq etdiyini deyən rektor əlavə edib ki, bu əlaqələrin La Sapienza Universiteti ilə də davam etməsinə çalışacaq. İtaliyalı səfir isə öz çıxışında Bolonya Universitetində "Azərbaycan multikulturalizmi" fənninin tədrisini təşkil etməyin mümkünlüyünü və bu barədə həmin universitetin rektoruna məlumat verəcəyini bildirib.



Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullayevin İtaliyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Auqusto Massari ilə görüşü

* * *

Oktyabrın 24-də Naxçıvan Müəllimlər İnstitutunda ali məktəblər üçün nəzərdə tutulan "Azərbaycan multikulturalizmi" dərsliyinin təqdimat mərasimi olub. Tədbirdə çıxış edən institutun tədris işləri üzrə prorektoru Akif İmanlı artıq bir neçə ildir ali təhsil ocaqlarında multikulturalizm fənninin tədris edildiyini, "Azərbaycan multikulturalizmi" dərsliyinin bu fənnin tədrisində müəllimlər və tələbələr üçün böyük töhfə olduğunu bildirib.

Qeyd edək ki, ölkəmizin ali təhsil ocaqlarında tədris ediləcək "Azərbaycan multikulturalizmi" kitabı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilik Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullayevin və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər üzrə şöbəsinin baş məsləhətçisi, professor Etibar Nəcəfovun elmi redaktorluğu ilə hazırlanıb. Dərslik Azərbaycanın və xarici ölkələrin universitetlərində "Azərbaycan multikulturalizmi" fənnini öyrənən tələbələr, magistr və doktorantlar, həmçinin Azərbaycan multikulturalizmi modelinin aktual məsələləri ilə maraqlananlar üçün nəzərdə tutulub. Kitabın 40-dan çox müəllifi var, o cümlədən Azərbaycan vətəndaşı olmayan müəlliflər də bu kitaba əmək sərf ediblər. Dərslik Azərbaycan tarixi, ədəbiyyatı, fəlsəfə, hüquq, psixologiya, ölkəmizin müasir siyasəti, dili, etnoqrafiyası, beynəlxalq əlaqələri üzrə tanınmış alimlərin birgə səyi ilə hazırlanıb və üç bölmədən ibarətdir.

Əlavə edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyində "Multikulturalizm" jurnalının təqdimatı olub. Təqdimat mərasimində Yazıçılar Birliyinin sədri Asim Yadigarın, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin, BBMM Analitika şöbəsinin müdiri Rəşad İlyasovun, mərkəzin mətbuat xidmətinin rəhbəri Yadigar Məm-

mədlinin, "Multikulturalizm" jurnalının baş redaktorunun müavini Tahir Kazımlının, muxtar respublikada yaşayıb-yaradan şair və yazıçıların çıxışları dinlənib.



Naxçıvan Müəllimlər İnstitutunda ali məktəblər üçün nəzərdə tutulan "Azərbaycan multikulturalizmi" dərsliyinin təqdimat mərasimi. Çıxış edir institutun tədris işləri üzrə prorektoru Akif İmanlı

* * *

Oktyabrın 27-də Azərbaycan Dillər Universitetində (ADU) universitetin Beynəlxalq münasibətlər kafedrasının təşkilatçılığı ilə "Auditoriya+" proqramı çərçivəsində "Müasir beynəlxalq münasibətlərdə multikultural cəmiyyət" mövzusunda dəyirmi masa keçirilib.



Azərbaycan Dillər Universitetində "Müasir beynəlxalq münasibətlərdə multikultural cəmiyyət" mövzusunda keçirilən dəyirmi masadan görüntü

Kafedra müdiri, siyasi elmlər doktoru, dosent Aidə Yusifzadə müasir Azərbaycanda multikulturalizmin dövlət siyasətində mühüm rol oynadığını bildirib. Multikultural cəmiyyətin ölkəmizdə qədim dövrlərdən yarandığını qeyd edən A.Yusifzadə onun dövlətimizin milli-mənəvi və ümumbəşəri dəyərlərini əks etdirən ardıcıl bir siyasət olduğunu vurğulayıb.

Dəyirmi masada tələbələr tərəfindən müxtəlif regionlara xas multikultural dəyərlər barədə məlumat verilib, eyni zamanda tələbələr arasında multikulturalizm və tolerantlıqla bağlı keçirilən sorğunun videogörüntüsü təqdim edilib.

Tədbir qarşılıqlı fikir mübadiləsinin aparılması ilə davam edib.

* * *

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi çərçivəsində respublikamızın 40, dünyanın 17 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Oktyabr ayının sonlarından etibarən bu sıraya daha bir xarici universitet əlavə olunub. İsveçin Malmö Universitetinin Qafqazşünaslıq bölməsində Azərbaycanın multikulturalizm modeli ilə bağlı dərslərə başlanıb. Malmö Universitetində fənni Bakı Dövlət Universitetinin professoru Kazım Əzimov tədris edir. Dərslər ingilis dilində keçilir.



İsveçin Malmö Universitetində "Azərbaycan multikulturalizmi" fənninin keçildiyi auditoriyadan görüntü

Noyabr

* * *

Bakıda keçirilən "Gənclər arasında tolerantlıq, humanizm və sülhsevərlik prinsiplərinin təbliğ edilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları noyabrın 23-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) olublar.

MDB-yə üzv dövlətlərdən, o cümlədən Rusiya, Belarus və digər ölkələrdən gənclər təşkilatlarının nümayəndələrini, gənc alimləri və ekspertləri salamlayan BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov ölkəmizdəki multikultural mühit barədə qonaqlara məlumat verib. O bildirib ki, Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması

Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətin nəticəsidir.

Qonaqlar Azərbaycana səfərdən, beynəlxalq konfransda iştirakdan məmnun qaldıqlarını bildiriblər. Onlar Azərbaycandakı multikultural və tolerant mühiti yüksək qiymətləndiriblər.



"Gənclər arasında tolerantlıq, humanizm və sülhsevərlik prinsiplərinin təbliğ edilməsi" mövzusunda beynəlxalq konfransın iştirakçıları Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində

* * *

Noyabrın 15-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə Bakıda 16 Noyabr – Beynəlxalq Tolerantlıq Günü münasibətilə "Tolerantlıq örnəyi Azərbaycan" adlı konfrans keçirilib.



Beynəlxalq Tolerantlıq Günü münasibətilə keçirilən "Tolerantlıq örnəyi Azərbaycan" adlı konfransdan görüntü

DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev, Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Azərbaycan Respublikasında Roma Katolik Kilsəsinin nümayəndəsi Vladimir Baksa, Prezident yanında Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev, Avropa Yəhudilərinin Bakı icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili, Rus Pravoslav Kilsəsi Bakı və Azərbaycan Yeparxiyasının nümayəndəsi Dionisi Sveçnikov, Gürcü Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Rəşad İlyasov çıxışlarında tədbirin əhəmiyyətini vurğulayıblar. Onlar tolerantlığın gündəlik həyatımızda mühüm rolundan bəhs ediblər.

* * *

Noyabrın 16-da Beynəlxalq Tolerantlıq Günü münasibətilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil olunan tədbirdə Milli Məclisin deputatları, diplomatik korpusun nümayəndələri, elm, mədəniyyət xadimləri və dini icmaların təmsilçiləri iştirak ediblər.

BBMM Himayəçilər Şurasının sədri, Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdullayev tədbirdə çıxış edərək bildirib ki, ölkəmizdəki tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir: "Azərbaycanda dini və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımız bərabərhüquqludur və öz inancına görə azaddır. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir. Multikulturalizm Azərbaycanda həyat tərzi və dövlət siyasətidir. Multikulturalizmin və tolerantlığın alternativi yoxdur. Bu siyasətdən imtina etmək antisemitizmə, ksenofobiyaya, islamofobiyaya qucaq açmaq deməkdir. Azərbaycan dövləti öz vətəndaşını qorumaq, davamlı sabitliyi təmin etmək üçün multikulturalizm siyasətinə böyük önəm verir. Ölkəmizdə fəaliyyət göstərən ənənəvi dini icmaların rəhbərlərinin ötən il Tolerantlıq Günü münasibətilə dövlətimizin başçısı tərəfindən Fəxri diplomla mükafatlandırılması onlara göstərilən diqqətin bariz nümunəsidir. Bu il də Azərbaycanın multikulturalizm modelini ölkə daxilində və xaricdə təbliğ və təşviq edən şəxslərə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəxri diplomları təqdim olunub".



16 noyabr Beynəlxalq Tolerantlıq Günü münasibətilə təşkil edilmiş tədbirdən görüntü

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Hacı Fuad Nurullayev Azərbaycanda multikultural dəyərlərin və tolerantlıq ənənələrinin yaşının əsrlərlə ölçüldüyünü, ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların yüzillərlə qardaşcasına yanaşı yaşadığını vurğulayaraq deyib: "Azərbaycan dünyada çox az ölkələrdəndir ki, burada bütün dinlərə mənsub insanlar rahat yaşayırlar. Ölkəmizdə bütün dinlərin nümayəndələrinə eyni münasibət var".

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı deyib ki, bütün bunlar Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu strateji xəttin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin göstəricisidir: "Ölkəmizdəki tolerant və multikultural mühitin hazırkı səviyyəyə gəlib çatması Prezident İlham Əliyevin bu istiqamətdə apardığı dövlət siyasətinin – dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir".

Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein, Azərbaycan Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Fekete və Alban-Udi xristian dini icmasının sədri Robert Mobili çıxışlarında Beynəlxalq Tolerantlıq Gününün əhəmiyyətindən danışıblar. Qeyd edilib ki, hazırda dünyada tolerantlıq və multikulturalizm vadisi kimi tanınan Azərbaycanda bu günü böyük təntənə ilə qeyd etmək hər bir Azərbaycan vətəndaşının haqqıdır.

Tədbir Azərbaycan Dillər Universitetinin müxtəlif ölkələri təmsil edən Mədəniyyət mərkəzlərinin təşkilatçılığı ilə hazırlanan bədii proqramla yekunlaşıb.

* * *

Noyabrın 28-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Goranssonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Görüşdə BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov qonaqlara mərkəzin fəaliyyəti, ölkəmizdə hökm sürən multikultural mühit haqqında məlumat verib.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində İsveçin Dini İcmalara Dəstək üzrə Dövlət Agentliyinin sədri Ake Goranssonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş

O bildirib ki, Prezident İlham Əliyev multikulturalizmin qorunub saxlanmasına böyük önəm verir: "Azərbaycanda tolerantlıq mühitinin hazırkı səviyyəyə gəlib çatması dövlətimizin başçısının apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir. Multikulturalizm Azərbaycanda dövlət siyasətidir, həyat tərzidir. Azərbaycan öz multikultural və tolerant yaşam tərzi ilə dünyaya nümunədir".

Görüşdə iştirak edən Azərbaycan Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev yəhudilərin ölkəmizdəki həyat tərzi barədə məlumat verib. O, Azərbaycanda bütün millətlərin və dinlərin nümayəndələri kimi, yəhudilərin də sülh, qardaşlıq şəraitində yaşadıqlarını bildirib.

Ake Goransson Azərbaycan kimi çoxmillətli, çoxmədəniyyətli, multikultural və tolerant bir ölkə ilə tanışlıqdan məmnun olduğunu bildirib. O, Azərbaycandakı müxtəlif dini icmaların sıx əməkdaşlığının, dostluğunun təqdirəlayiq olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan öz nümunəsi ilə digər ölkələri həvəsləndirir və bu təcrübədən istifadə olunması zəruridir. Qonaq Azərbaycanda "Multikulturalizm İli"ndən sonra "İslam Həmrəyliyi İli"nin elan olunmasını da müdrik addım kimi dəyərləndirib.

Görüşdə Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Elnur Əfəndiyev iştirak ediblər.

* * *

Noyabrın 30-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) yeni nəşrlərin təqdimatı olub.

Əvvəlcə "Alban Apostol kilsəsi: tarixi baxış (VI Dəyirmi masa)" nəşrini tədbir iştirakçılarına təqdim edən BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov bu nəşrin əhəmiyyətindən söz açıb, mərkəzin son illər gördüyü işlərdən danışaraq sözügedən tədbirin də qurumun təşəbbüsü ilə həyata keçirildiyinə diqqət çəkib.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində yeni nəşrlərin təqdimat mərasimindən görüntü

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin arxiv sənədləri şöbəsinin baş məsləhətçisi, tarix elmləri doktoru Həcər Verdiyevanın moderatorluğu ilə reallaşan "Dəyirmi masa"da bu cür nəşrlərin əhəmiyyətindən, onların ölkəmizin tarixini öyrənmək baxımından faydasından söz açılaraq vurğulanıb ki, baş redaktoru akademik Kamal

Abdullayev olan "Alban Apostol Kilsəsi: tarixi baxış" kitabı Azərbaycan tarixinin reallıqlarına işıq tutur, ölkəmizin multikultural dəyərlərini dünya ictimaiyyətinə çatdırmaq baxımından xüsusi önəm daşıyır. Azərbaycan tarixinin bir hissəsi olan Alban Apostol Kilsəsinin de-fakto və de-yure bərpası bu irsə, ölkəmizin tarixinə sahib çıxmaq istəyən kənar qüvvələrin önünə sədd çəkir. Alban Apostol Kilsəsinin tarixindən söz açan natiq deyib ki, bu kilsə patriarx, avtokefal, sonradan isə monofizit olub. Alban kilsəsinin əsası apostollar tərəfindən qoyulub, kilsə patriarxlar tərəfindən idarə edilib. Bu kilsənin yaranması eramızın I əsrində Qüdsdən yola çıxmış apostolların, ilk növbədə Hindistandan Qafqaz Albaniyasına gəlmiş və Ordubadda Alban kilsəsinin əsasını qoymuş Varfolomeyin və apostol Faddeyin şagirdi, Kiş (Gis) kilsəsinin təməlini qoymuş Yeliseyin adı ilə bağlıdır.

Tədbir çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Mübariz Xəlilovun "Albaniyanın tarixi, etno-mədəni hüdudları: qərb istiqaməti" kitabının da təqdimatı keçirilib.

Dekabr

* * *

Dekabrın 6-da Naxçıvanda "İslam Həmrəyliyi İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" mövzusunda konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidənin önünə tər güllər düzüb, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlarla tanış olublar.

"Araz" Dövlət Qəbul Evində keçirilən konfrans müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlanıb.



Naxçıvan Muxtar Respublikasında keçirilmiş "Ümummilli Lider Heydər Əliyev dini həmrəyliyin yaradıcısıdır" adlı konfrans iştirakçılarının xatirə şəkli

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov konfrans iştirakçılarını salamlayıb, təşkilatçılara təşəkkürünü bildirərək deyib: "Dini dözümlülük və həmrəylik, milli mənəvi dəyərlərə qayıdış yaşadığımız dövrün əsas məsələlərindəndir. Zaman keçdikcə daha aydın görünür ki, mənəvi dəyərləri bərpa etmədən, dini həmrəylik yaratmadan sabitliyə nail olmaq mümkün deyil. Əgər mənəvi dəyərlər bir xalqı birləşdirirsə, dini dəyərlər ölkələri və xalqları birləşdirir. Xalqımızın Ümummilli Lideri Heydər

Əliyev bununla bağlı deyirdi: "İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir".

Daha sonra Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein tədbirdə çıxış ediblər.

Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev bildirib ki, Heydər Əliyev dühası min illər bundan sonra da Azərbaycanı xoş gələcəyə aparan yola şəfəq salacaq: "Heydər Əliyev siyasi məktəbinin əsasında həmrəylik, birlik və dostluq dayanırdı. Dahi şəxsiyyətin şah əsəri olan müstəqil Azərbaycan bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir".

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, Ümummilli Lider Heydər Əliyevin Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə dünya azərbaycanlılarının həmrəyliyinin əsasını qoyması və müstəqillik illərində ölkəmizdə yaşayan bütün xalqların birliyinin ifadəsi olan azərbaycançılığı dövlətçilik ideologiyası səviyyəsinə qaldırması onun bəşəriyyət qarşısındakı xidmətləridir. Eyni zamanda, dövlət başçısının rəhbərliyi ilə multikulturalizmin, tolerantlığın və dini həmrəyliyin möhkəmləndirilməsi sahəsində görülən işlər ölkəmizdə daxili sabitliyi təmin etməklə yanaşı, həm də bəşəri həmrəyliyə Azərbaycanın verdiyi töhfəni aydın şəkildə ifadə edir.

* * *

Dekabrın 15-də Azərbaycan Dillər Universitetində (ADU) "Multikulturalizm" ədəbi-bədii, elmi-publisistik jurnalının təqdimat mərasimi keçirilib.

Multikulturalizm Elmi-Tədqiqat Laboratoriyasının elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Əli Fərhadov "Multikulturalizm" jurnalı haqqında tədbir iştirakçılarına məlumat verib. O, Prezident İlham Əliyevin çıxışlarına diqqət çəkərək, multikulturalizmin Azərbaycanda sadəcə dövlət siyasəti olmadığını, eyni zamanda xalqımızın tarixən yaşatdığı bir ənənə olduğunu vurğulayıb.



"Multikulturalizm" jurnalının Azərbaycan Dillər Universitetində təqdimatı

Azərbaycan ədəbiyyatı kafedrasının dosenti Elmira Mustafayeva 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin multikulturalizm siyasətinin davamı olduğunu söyləyərək, jurnalın bu istiqamətdə fəaliyyətini yüksək qiymətləndirib. O, jurnalın nəşr olunmuş hər üç sayından sitatlar gətirərək maraqlı məqamlara toxunub.

"Multikulturalizm" jurnalının baş redaktoru Fəxri Uğurlu çıxışında jurnalın Azərbaycanda əsrlərdən bəri formalaşmış tolerantlıq ənənələrini təbliğ etmək, ölkəmizdə hökm sürən multikultural mühitə töhfə vermək məqsədilə nəşr olunduğunu vurğulayıb. O, jurnalın rubrikaları və bölmələri haqqında tələbələrə ətraflı məlumat verib.


Sonda tələbələrin sualları cavablandırılıb və mövzu üzərində diskussiya aparılıb.

***

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı (Bakı, "RS Poliqraf" MMC, 528 səhifə) işıq üzü görüb. Kitabda yer almış sitatlar Prezident İlham Əliyevin AZƏRTAC tərəfindən yayılmış nitqlərindən, çıxışlarından, müsahibələrindən götürülüb və oxuculara Azərbaycan, rus və ingilis dillərində təqdim olunub.

Kitabın ideya müəllifi Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, məsləhətçisi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi – şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor Əli Həsənovdur. Kitab Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi, fəlsəfə üzrə elmlər doktoru, professor Etibar Nəcəfov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev, AZƏRTAC İnformasiya Agentliyinin baş redaktoru, siyasi elmlər üzrə fəlsəfə doktoru Cavid Bədəlov və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin şöbə müdiri Sərxanbəy Xuduyev tərəfindən tərtib olunub.

Oxuculara təqdim olunan bu kitabda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü ildən bəri müsahibə və çıxışlarında yer almış multikulturalizmin Azərbaycan modeli haqqında dəyərli fikirləri toplanıb. Həmin fikirlər ölkəmizdə multikulturalizmkulturalizmkulturalizm, tolerantlıq, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişaf etdirilməsi sahəsində həyata keçirilmiş işlərdən, layihələrdən, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə bu sahələrdə qazanılmış nailiyyətlərdən xəbər verir. Akademik nəşrdə bir sıra Qərb ölkələrində islamofobiyanın, antisemitizmin, ksenofobiyanın və dözümsüzlüyün digər formalarının baş qaldırması haqqında məlumat verilir, bəzi Avropa ölkələrində multikulturalizmin gözdən salındığı qeyd olunur, bütün ölkələrdə etnik-mədəni müxtəliflikl ərin düzgün tənzimlənməsinin, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsinin, ümumiyyətlə, multikulturalizm sahəsində Azərbaycanın qazandığı səmərəli təcrübənin dünya ölkələrində tətbiq olunmasının zəruriliyi vurğulanır.



Azərbaycanın multikultural mənzərəsi
Мультикультуральный портрет Азербайджана
The multicultural view of Azerbaijan




Qazax rayonundakı Avey monastırı (və ya Müqəddəs Sərkiz monastırı) V əsr



Tovuz rayonundakı Şah Abbas məscidi, XVI əsr

Azərbaycanın multikultural mənzərəsi
Мультикультуральный портрет Азербайджана
The multicultural view of Azerbaijan



Gədəbəy rayonundakı Mahrasa məbədi, III-IV əsrlər



Ağstafa rayonundakı Keşikçidağ monastırı, VI əsr

"Multikulturalizm" təqdim edir:
QƏRB BÖLGƏSİNİN RƏNGİ

UCALIQDAN DOĞULAN SÖZ *(N.Əbdülrəhmanlı)* **103**

Şair CAVAD
İÇİNDƏ 104
SÖYLƏSİN 104
AY ÇİÇƏK DƏRƏN 105

Məmməd DƏMİRÇİOĞLU
Sevda quluyam, azmışam 106
Mənə gələn nə səsdi? 106
Könül, qanlar çiçəklədin 106

Barat VÜSAL
TOXUMLUQ BUĞDA 107
OXUYAN YUVA 108
SAXLA 108

Məzahir HÜSEYNZADƏ
GERİYƏ BAXANDA 109
ATALAR ÖLMÜR 110
NƏ YAXŞI 111

Bəhlul ATAXALLI
SAXLADI SƏNİ 112
GƏLİRƏM 113

Namazalı PAŞA
DÜNYANIN 114
QAL İNDİ 114
A DAĞLAR 115
OLMASA 115

İbrahim İLYASLI
O SEVDALI ÇAĞLAR YADINDADIMI? 116
MƏNİ BU QƏLƏMDƏN QORU, İLAHİ 117

Hacı Məhəmməd ASTANBƏYLİ
Tanınmayanlardı təzə 118
Gözəlsən, dünya, bilirəm 118
Susub yaşıl yarpaqlar 118
Sən yenə bombalamboş 118
Bu da bizim nöqtəmiz 119
Bu sənsizlik günüdü 119
Sus demirəmmi sənə? 119
Yoox.., heç bu da sözdümü 119

Gəray GÖYYURD
BU NECƏ OLDU? 120
ZAMANIN YUN DARAĞINDA 121
BU GÖZƏLLİYİ 121

Ramiz KƏRƏM
YENƏ BU AXŞAM 122
BİR DƏ GƏLSƏM BU DÜNYAYA 123
KÖHNƏ KİŞİLƏR 123

Elbariz MƏMMƏDLİ
ÖMÜRLƏ VAXT ARASINDA 124

AĞRI 125
Vasif SÜLEYMAN
ÇATINCA 126
TƏRƏFİMDƏ 126
OLURSAN 127
Fərhad QOŞQARLI
DÜNYADIR 128
AXTAR 128
Saleh QURBANOV
AY SARI ÜZÜKDÜR 129
DİLƏ TUTUM BU SƏHƏRİN MEHİNİ 130
Saqif QARATORPAQ
ETİRAF 131
Bu gecə də duz basdım köhnə yaramın üstə 132
Ehtiram İLHAM
GET-GEDƏ 133
ORUCUYAM 133
QARDAŞLAR 134
Aydın İBRAHİMOĞLU
MƏNİM MUĞAMLARIM 135
XƏBƏRİN YOXDUR 136
İsa Cavadoğlu
AZƏRBAYCAN 137
ÜŞÜDÜ 138
Mübariz QARAGÖZLÜ
GÖRÜM NƏ ÇIXACAQ 139
SAZA-SÖZƏ UMUDDUYAM 139
Rüfət AXUNDLU
GECƏLƏR 140
DEDİLƏR 140
Sahib ASLANZADƏ
DEYİMMİ? 141
DİZİNİ DAŞ APARAN OĞLAN 141
Səhlədar HİDAYƏTOĞLU
ATLILAR 142
DAĞLAR 143
Tamella POLADLI
GÖYÇƏYƏ-GÖYÇƏYƏ 144
TANIYIR 144
Üzeyir MƏHƏRRƏMLİ
NECƏ ÖYRƏDİM 145
MƏNİ ŞUŞADA BASDIRIN 145
Yunis ORUCLU
SÖZ 146
Zaur SAHİL
Göylərdən tökülən qar dənələri 147
İki günlük dünyanı 147
Hikmət ORHUN
Xublar məclisinə təşrif buyurub 148
Bu yerlərin bağçasından keçilməz 148
Vaxt yetirər, meyvələri ballanar 149
Nə gözəlmiş biz tərəfin havası 149
Mövlud MÖVLUD
ÇƏTİRSİZ *(hekayə)* 150

UCALIQDAN DOĞULAN SÖZ

Hərdən mənə elə gəlir ilk bədii söz şəhərlərin tünlüyündə yox, başı buludlara çatan dağlar qoynuna sığınmış obalarda yaranıb. Könlü riqqətə gələn Allah bəndələrindən kimsə dan yeri ağaranda, yaxud qürub vaxtı o ucalıqlarda üzünü ənginliyə tutub öz yaşantılarını ifadə eləməklə hisslərinə sığal çəkib.

Bəlkə bu səbəbdəndi ki, insan dağlarla, dərələrlə, çaylarla, meşələrlə – təbiətin gözəl mənzərəsilə üz-üzə gələndə poetik söz demək, mahnı oxumaq, kükrəyən duyğularını bu yolla ovutmaq istəyir...

Cürbəcür iqlim qurşaqlarının kəsişdiyi, bir çox millətlərin, etnik qrupların, mədəniyyətlərin yan-yanaşı mövcud olduğu məmləkətimizdə də yönünü hayana tutsan, təbiətin şəhdi-şəkərini canına çəkmiş, könlü sözlə dolu adamlarla rastlaşırsan. Dağ yamacında sürü otaran çobanın, öz torpağını əkib-becərən kəndlinin, ruzisini alın tərilə qazanan dəmirçinin, kənd məktəbində dərs deyən müəllimin... ürəyinin sarı siminə toxunmağa bəndsən – qəlbini qarşında halal süfrə kimi açır, səni bayatı, gəraylı, qoşma, müxəmməs, qıfılbəndə qonaq eləyir, bir də baxıb görürsən ki, xəzinə üstünə gəlib çıxmısan...

Məmləkətimizin qərb hissəsində, Gəncə – Tiflis aralığında yerləşən obalarımız da bu baxımdan istisna deyil. Qazax, Ağstafa, Tovuz, Şəmkir, Daşkəsən, Gədəbəy rayonlarının hansı guşəsinə üz tutsan, aşıq ədəbiyyatından bəhrələnmiş söz ustadlarının yatırına, o yatırı hələ də yaddaşlarında yaşadan, həm də öz sözünü söyləyən, sinəsi şeiriyyatla dolu, sözü-söhbəti baldan şirin adamlara rast gələrsən. Kimi dindirsən, Molla Pənah Vaqifdən, Səməd Vurğundan, Osman Sarıvəllidən, Azaflı Mikayıldan, Məmməd İsmayıldan, Kəmsavad Məhəmməddən, Şair Cavaddan... şeir söyləyər, bayatı, gülməcə, rəvayət, əfsanə danışar, ustadların yaratdıqlarından söz açar. Belə məqamlarda özünü onların yaddaşına borclu sayır, Sözün yaşarılığına bir daha inanırsan.

Bir çoxları artıq respublika miqyasında tanınıblar, yaradıcılıqları qəzet-jurnallara, ekran-efirə yol tapıb, internet saytlarında dərc olunub, kitabları nəşr edilib. O yaradıcı adamların dilindən qopanları, qələmindən çıxanları oxuyanda ilk növbədə adamı təbiətlə daimi təmasdan doğan, ümumiyyətlə, yaradıcılığın ilkin şərtlərindən biri sayılan səmimiyyət havası vurur. Meqapolis sıxıntılarından uzaqda, ancaq könül yükünü yüngülləşdirmək diləyilə söylənən söz də qəlbimizə buna görə dərhal yol tapır, rəğbətimizə səbəb olur.

Oxucularımıza təqdim elədiyimiz bu söz yatırı da o yurd yerlərimizdə yaşayıb-yaratmış və indi də yaşayıb-yaradanların araya-ərsəyə gətirdiklərindən seçmələrdir. Əminik ki, bu nümunələr səmimiyyəti ilə könüllərə xoş hava gətirəcək.

Nəriman Əbdülrəhmanlı



Şair CAVAD
(Daşkəsən)
(1898-1967)

İÇİNDƏ

On səkkiz min aləm, külli-kainat,
Bir nizamdır bir iqrarın içində.
Gecəsi-gündüzü öz qaydasında,
Yazda cənnət, qışda narın içində.

Kimi əziləndi, kimi əzəndi,
Kimi üryan gəzir, kimi bəzəndi.
Haqq-nahaqqı Xaliq özü sezəndi,
Cənnəti var novbaharın içində.

Qul Cavad, həyatın axırı fani,
Ədalət hakimi sidq ilə tanı.
Bir nəzərdə görür küllü-cahanı,
Pənahımdır dar məzarın içində.

SÖYLƏSİN

Məclisə varanda elə yaxşı dur,
Qoy sənin adını ellər söyləsin.
Gələcək nəsilə nəsihətim var,
Yadigar sözümü dillər söyləsin.

Oturanda səliqəli, düz otur,
Tərbiyə biləndən tərbiyə götür.
Mərifət bağında qızılgül bitir,
Ətrini gətirsin, ellər söyləsin.

Atanın, ananın saxla yolunu,
Özündən böyüyün soruş halını.
Cavad sıxar elə şəxsin əlini,
Dastan olsun, yüz min illər söyləsin.

AY ÇİÇƏK DƏRƏN


Adı bəlli Xoşbulağın dağında
Nədi sənin adın, ay çiçək dərən?
Bir dəstə gözəl var solu-sağında,
Nədi sənin adın, ay çiçək dərən?

Seyr edirsən bu dağları gəzməyə,
Lalədən, nərgizdən dəstə düzməyə.
Şairəm, istərəm tərif yazmağa –
Nədi sənin adın, ay çiçək dərən?

Qızlar gedib, niyə dalda qalıbsan?
Dal gərdənə səkkiz hörük salıbsan.
Lalədən, nərgizdən dəstə alıbsan,
Nədi sənin adın, ay çiçək dərən?

Nobaharda bu dağların yazısan,
Həm gözəlsən, gözəllərin gözüsən.
Söylə görüm, hansı bəyin qızısan,
Nədi sənin adın, ay çiçək dərən?

Dəstə bağla bu dağların gülündən,
Sən kimi gözəllər assın telindən.
Mən Şair Cavadam ayrım elindən,
Nədi sənin adın, ay çiçək dərən?



Məmməd DƏMİRÇİOĞLU
(Qazax)
(1951-2015)

* * *

Sevda quluyam, azmışam,
Sevginə tuş eylə məni.
Sıx köksünə, sal könlünə,
Qəfəsdə quş eylə məni.

Neynirəm şəkəri, qəndi,
Neynirəm şəhəri, kəndi...
Mənim işim könülnəndi,
Könül ver, nuş eylə məni.

Qərq oldum sevda sehrinə,
Baxma qəhr olmuş təhrimə.
Qonaq gəl könül şəhrimə,
Gəl də bihuş eylə məni.

***

Mənə gələn nə səsdi?
Of... "yahu", "yahu" derlər.
Ovçu nişangahında
Mələyir ahu derlər.

Yön verə mövlam bizə,
Bulunaq közdən-közə.
Bizdə durulan sözə
Sözlərin ahı derlər.

Girək eşqin şalına,
Dönək Yunis halına,
Bu yolların quluna
Şahların şahı derlər.

***

Könül, qanlar çiçəklədin,
Çatlayan nar oldunmu heç?
Eşq ilə sevdaya vardın,
Bir kəsə yar oldunmu heç?

Verən bu dünya mülkünü,
Gələr bir gün alan günü.
Nəfsinə qul olan günü
Utanıb xar oldunmu heç?

Çiçək açır – solum deyə,
Sular axır – dolum deyə,
Bağlarda bar olum deyə
Dağlarda qar oldunmu heç?

Solan güllər solmaq deyil,
Dolan göllər dolmaq deyil,
Yaşamaq var olmaq deyil,
Dünyada var oldunmu heç?



Barat VÜSAL
(Qazax)

TOXUMLUQ BUĞDA

Əlini vurmasın qoy ona yetən,
Hər vaxt ələ düşməz, hər vaxt tapılmaz.
Əzizim, toxumluq buğdadı vətən,
Ancaq hara gəldi buğda səpilməz!
Qoyulub göz üstə öpülməlidir,
Onsuz çörək itər, onsuz el itər.
Oğul ürəyinə səpilməlidir,
Oğul ürəyində cücərib bitər.
Yaxşı gör hüsnündə bu yeri-göyü,
Onun nə minnəti, nə qılığı var.
Üzündə-gözündə anam bükdüyü
Halal kündələrin ağ işığı var.
Onsuz bir kəsin də təhnəsi dolmaz,
Onsuz gül də açmaz, bülbül də ötməz.
Əzizim, hər buğda toxumluq olmaz,
Əzizim, hər buğda ürəkdə bitməz!
Oğul ürəyində, oğul qanında
Nəsildən nəsilə keçir əbədi.
Ölüm ayağında bir qocanın da
Toxumluq buğdadır ilk vəsiyyəti.
Onu qürur sayıb nur sayanların
Qəlbi qürurlanıb, gözü nurlanıb.
Toxumluq buğdası olmayanların
Həmişə xəlbiri göydə fırlanıb.
Hər yetən anaya qəlb ana demir,
Adəm də keçməyib buğda sözündən.
Səndən su istəmir, günəş istəmir,

Günəşi özündən, suyu özündən!
Bilək, ağzımızda daddı bu buğda,
Hər vaxt ələ düşməz, tapıla bilməz.
Namusdu, qeyrətdi, addı bu buğda,
Ancaq hara gəldi səpilə bilməz!

OXUYAN YUVA

Uçub bülbül yuvası,
Özü hanı görəsən?
Hansı namərd uçurub
Bu yuvanı görəsən?
Kim günahla barışır,
Kim günahı unudur?
Qaranquşun qarğışı,
Durnanın ahı tutur.
Ancaq eşitməmişəm
Bülbül qarğış eyləyib.
Üstünü kəsdikcə qəm
"Alqış! Alqış!" söyləyib.
Üşüdüm ha üşüdüm,
Dağdan alma daşıdım.
Ay bülbül yuvasını
Uçuranlar, eşidin!
Əyirib otu bir-bir,
İlmə-ilmə toxuyur.
Bülbül qarğış edəmmir,
Uçmuş yuva oxuyur...

SAXLA

Çən-dumanı dağlara,
Dağları çənə saxla!
Öz qəbir yerindən keç,
Ölüb itənə saxla!
Saf eylə ürəyini,
Sərf eylə köməyini.
Bir tikə çörəyini
Yoldan ötənə saxla!
Tanrıya salam yetir,
Gör ki, yaşamaq nədir.
Könlü özünə götür,
Ömrü Vətənə saxla!



Məzahir HÜSEYNZADƏ
(Şəmkir)

GERİYƏ BAXANDA

Ruzigar başıma qar ələyib, qar,
Dözümdən yapışıb sal dayanmışam.
Məni axtaranda tapmağa nə var,
Dərdimin dalında daldalanmışam.

Daş üstə daş qoyub ucaltdım göyə,
Yollara bircə daş diyirləmədim.
Evimiz var idi baş girləməyə,
İşimdə-gücümdə baş girləmədim.

Gözümün içində duran dünənim
Nisgildən qalmadı, qəmdən qalmadı.
Taleyin tufanı çalxadı məni,
Əlimin tutalğac yeri qalmadı.

Başımın üstündə şimşək çaxanda
Mən imdad dilədim bircə dözümdən.
Çiynimə taleyin yükü çıxanda
Tələbəliyim də düşdü gözümdən.

Darlıq eləyirdi papaq da mənə,
Ac kölgəm sürünüb yer yalayırdı.
Qənim kəsilmişdi yarpaq da mənə,
Düşəndə başımdan qapazlayırdı.

Tərslik eyləyirdi sərt illərimiz,
Elə bu xislətlə öyünürdülər.
Möhtacı olduğum şitillərimiz
Arxayın-arxayın böyüyürdülər.

Kədərin bircəsi, ərki idim mən,
Nə desəm edirdi, hamısı çin-çin.
Döyülə-döyülə bərkiyirdim mən,
Döyülə-döyülə sınmamaq üçün.

ATALAR ÖLMÜR

Bir qəfil şıdırğı yağışa düşdüm,
Qopdu hıçqırığı kədər selinin.
Ölümün adını çox eşitmişdim,
Bu dəfə üzünü gördüm ölümün.

Bir ulduz axırdı ömrün göyündə,
Elə bil soğulub tükənirdi qan.
Dünyanın ən ağır yükü çiynimdə,
Yollar əyilirdi ağırlığımdan.

O qədər dolmuşdu, göllənmişdi ki,
Qəm-kədər sarıdan gözlər tox idi.
Göz yaşı yollara çilənmişdi ki,
Qəbristan yolunun tozu yox idi.

Mən idim sevinci ölən, üzülən,
Bu da qəm küləyi, kədərin ətri.
Göz yaşım deyildi axan, süzülən,
Gözüm tökülürdü atamdan ötrü.

Kövrək xasiyyəti pilədən-pilə,
Can qurban edərdi adamdan ötrü.
Sən demə adamlar bir yana, hələ
Ölüm də ölürmüş atamdan ötrü.

Nisgilim misrama, sözümə sığmır,
Harda göməşidi sevincim, nəşəm?
Kiçik şəkillərin gözümə sığmır,
Ay ata, şəklini böyütdürmüşəm.

Səkkiz qat torpağa enibdi kökü,
Torpağa belə kök atan ölməyib.
Ölüm ürəyimə girib görsün ki,
Atalar ölməyir, atam ölməyib.

NƏ YAXŞI

Nə yaxşı qarşıma çıxdın, nə yaxşı,
Yolları mənsizmi görmüşdün belə…
Bəhanə eyləyib sürüşkən qışı
Kimiydi qoluna girmişdin belə.

Qar yağdı, bir gizlin yalan ağardı,
Ağardı yalançı sevirəm sözün.
Qar yağdı, bu dünya yaman ağardı,
Guya ki, bu qardan qamaşdı gözün.

Qorxdum baxışlarım yollarda dona,
Heyif gözlərimə, bu nə qubardı.
Sən torpaq olsaydın əgər, mən səma,
Həmin gün aləmə alov yağardı.

O çinar neyləyər yoluna çıxsa,
Başında buludlar qaşını çatıb.
Yaxşı ki, torpağa bağlıdır, yoxsa
Səni ayaqlardı bir addım atıb.

Əlvida deyirəm, soruşma niyə,
Ona bax, çinar da gizlətmir kini.
Sənin buz qəlbini görk olsun deyə
Asıb budağından sırsıra kimi.

Bu yolda bir istək dönübdür buza,
Bu qarda kimsəsiz qaldı məhəbbət.
Sən o gün sürüşüb yıxılmadınsa,
Mənim ürəyimdən yıxıldın, fəqət…



Bəhlul ATAXALLI
(Gədəbəy)

SAXLADI SƏNİ

Ay mənim dərdli bülbülüm,
Güllərmi saxladı səni?
Tufanmı kəsdi yolunu,
Yellərmi saxladı səni?

Sən gecikən peymanımsan,
Tərsinə axan qanımsan!
Mənim azmış ceyranımsan –
Çöllərmi saxladı səni?

Sənsiz bitərmi tələşım,
Daş üstə qalarmı daşım!
Ay sonam, ay yaşılbaşım,
Göllərmi saxladı səni?

Çoxaldıqca düzü əyən
Azalır yaxşını öyən.
Ünvanıma hədyan deyən
Dillərmi saxladı səni?

Sən mənim dinim-imanım,
Boy göstər, sənə dolanım.
Yollarına qurban canım,
Yollarmı saxladı səni?

Səbrim yoxdu, talamışam,
Köksümdə od qalamışam.
Günü aya calamışam,
İllərmi saxladı səni?

Ruhu incəm, qəlbi şüşəm,
Gözləməkdən üzülmüşəm.
Ay boynubükük bənövşəm,
Kollarmı saxladı səni?

Niyə gəlib çıxmayırsan,
Yollarmı saxladı səni?
Tufanmı kəsdi yolunu,
Yellərmi saxladı səni?..

GƏLİRƏM

Korun-korun nə yanırsan,
Görüb tüstünə gəlirəm.
Bilirəm, zalım tənhalıq
Durub qəsdinə, gəlirəm.

Yenə sular duru axmır,
Başımda şimşəklər çaxmır,
Bu aramsız yağış-yağmur
Dəyib şəstinə, gəlirəm.

Necə sirmiş bu yer, bu göy,
Kimə doğma, kimə ögey.
Elə baxma durub key-key
Eşqin süstünə, gəlirəm.

Harda qaldı o şuxluğun,
Yordu məni donuqluğun.
Yetər bunca soyuqluğun,
Alış, istinə gəlirəm.

Doymuşam ahdan-nalədən,
Bu tənbehdən, bu tənədən.
Həmdəm olsan mən taledən –
Bəxtdən küskünə, gəlirəm.

Ömür şirin, həyat gözəl,
Öncə puçur, sonca xəzəl.
Qürrələnmə, vaxtsız əcəl,
Özüm üstünə gəlirəm.



Namazalı PAŞA
(Daşkəsən)
(1942-2015)

DÜNYANIN

Ömr edib, dolanıb milyon il belə,
Sirri nədi, bilən yoxdu de hələ.
Öz dərdi var, gətirməyib heç dilə,
Gəl açmayaq yarasını dünyanın.

Bu dünyanın öz içində yağı var,
Sinəsində zaman çəkmiş dağı var.
Hara getsək, qarası var, ağı var,
Vətən seçək harasını dünyanın?

Namazalı, dərdi necə tən bölək,
Dünya qədər niyə dözmür bu ürək?
Dövran sürüb nə yaşadıq, nə görək,
Necə bilək vəfasını dünyanın?

QAL İNDİ

Keçən keçib, bu qəm nədi, ay könül,
Salmamışam təzə bir yol, sal indi.
Girməmişəm aşıq olub məclisə,
Çalmamışam, götür sazım, çal indi.

Neçə bahar keçdi, gülün dərmədin,
Qış da olub, şaxta-boran görmədin.
Cavanlığın necə keçdi, bilmədin,
Əl uzadıb yana-yana qal indi.

Namazalı, vaxt ötüb, dövran keçir,
Tələsir, elə bil, bu zaman keçir.
Salmır saya, qızlara bax, yan keçir,
Dayanmısan niyə belə lal indi?

A DAĞLAR

Nə sitəm eyləyir, eyləsin zaman,
Var gümanım sizə dönəm, a dağlar.
Enməyəm zirvədən ta yorulunca,
Dərdi-qəmi siznən böləm, a dağlar.

Qıy vura qartalın, zilə baxam mən,
Dərəm bənövşədən, telə taxam mən.
Şimşək olub qayalara çaxam mən,
Alışanda çətin sönəm, a dağlar.

Doymamışam, gözüm qalıb daşında,
Düşərdim sellərə yaz yağışında.
Namazalı olsa neçə yaşında,
Siz varsız, çətin ki öləm, a dağlar.

OLMASA

Gülməz üzü təbiətin,
Fəsillərdə yaz olmasa.
Dağılarmı könül qəmi,
Bir məclisdə saz olmasa?

Yaraşıqdı qaşda teli,
Xoş yerişi, incə beli.
Ürəklərə çatmaz yeli,
Gözəllərdə naz olmasa.

Namazalı oldu aşıq,
Çəmən-çiçək gül qarışıq.
Oğullara nə yaraşıq –
O evdə ki qız olmasa.



İbrahim İLYASLI
(Qazax)

O SEVDALI ÇAĞLAR YADINDADIMI?

O sevdalı çağlar yadındadımı, –
Bir mən igidiydim, bir də sən gözəl.
Dünyada mənə tay dəli yoxuydu,
Yoxuydu dünyada sənə tən gözəl.

Bə heç demirsənmi hardadı görən
İpək tellərinə nərgizlər hörən?..
Səniydin onlara yaraşıq verən,
Nə çiçək gözəldi, nə çəmən gözəl.

Sevgi bir yol gələr adama haqdan, –
Sənin divanənəm elə o vaxtdan.
Gözümə ağ gəlib yola baxmaqdan,
Ürəyə xal düşüb, saça dən, gözəl.

Mən ömür sürmədim – vaxtdı, uzatdım,
Elə sənsizliklə başımı qatdım.
Göynəyə-göynəyə əlliyə çatdım, –
Gülə-gülə ölləm, öl desən, gözəl.

Gör mən nə saymışam, fələk nə sayıb –
Dönüb sənə baxmaq sayılar ayıb...
Aradan qırx igid ömrü adlayıb, –
Mən həmən dəliyəm, sən həmən gözəl!

MƏNİ BU QƏLƏMDƏN QORU, İLAHİ

Küfr mənlik deyil... Əstəğfürullah!
Sənə can atıram, sənə, ilahi!
Şeytan bardaş qurub ürəyimizdə,
Aman vermir gələk dinə, ilahi!

Burdan daşlayırsan, o yandan çıxır,
Ordan təpinirsən, burda hazırdı.
Dünən gözlərimlə gördüm, masamda
Əyləşib yerimə şeir yazırdı.

İşə yüyürürsən – iş yerindədi,
Dükana girirsən – vitrindən baxır.
Meyxanadan qovub rədd eləyirsən,
Məscidin önündə qarşına çıxır.

Gah əziz dost kimi girir qollara,
Gah qarşı səngərdə top dalındadı.
Gah dilənçimisal çıxır yollara,
Gah milyonermisal qul halındadı.

Bir əli göydələn saraylar tikir,
Bir əli ehmalca qazır altını.
Söyürəm, əlimdən özgə nə gəlir,
Hərçi-pətərinin yeddi qatını.

Elə qucaqlayıb yer kürəsini,
Bir küncü-bucağı çıxmır yadından.
Şərqdə müharibə alovlandırır,
Qərbdə dil-dil ötür "barış" adından.

Yoxmu bu gedişin dönüşü, yoxmu,
Yoxmu bu gərdişin sonu, ilahi?!
Bu şeirdə şeytan barmağı varsa,
Məni bu qələmdən qoru, ilahi!



Hacı Məhəmməd ASTANBƏYLİ
(Qazax)

* * *

Tanınmayanlardı təzə,
Bütün tanışlar köhnədi.
Təzədi ən kiçik ürək,
Ən böyük başlar köhnədi.

Varlıq bütöv-bütöv gələr,
Ovçu ağlayar, ov gülər.
Təzədi bütün sevgilər,
Bütün savaşlar köhnədi.

Köklən küləkdəki səsə,
Köhnəlməz min il də əsə.
Öldürrəm, bir adam desə
Bu çopur daşlar köhnədi.

* * *

Gözəlsən, dünya, bilirəm,
Gözəlsən gül adamına.
Şirinsən, dünya, bilirəm,
Şirinsən bal adamına.

Olsa da hər bağın İrəm,
Mənlik deyil, niyə girəm.
Genişsən, dünya, bilirəm,
Genişsən çöl adamına.

Mənə nə – salın, saçaqlan,
Mənə nə – öpül, qucaqlan...
Köpəklərinə acıqlan,
Hürməsin yol adamına.

* * *

Susub yaşıl yarpaqlar
Yayın günortasında.
Bir səs dönür, dolanır
Bağların arasında.

Deyirsən Elə elə,
Olmayır Elə, Elə.
Deməyə nə var, hər kəs
Söyləyir elə, elə...

Tapıldı axtarılan,
Ancaq axtaran hanı...
Qoy indi də axtarsın
Tapılan axtaranı...

* * *

Sən yenə bombalamboş,
Sən yenə təmbələmtək.
Yenə yenidən başla,
Yenə bir bəsmələ çək.

Yenə yenidən başla,
Başla, yenə də başla,
Başla.., ağılla, başla,
Başla.., nə çıxar görək.

Qaçaq geri, yetişək,
Əlləlləşə tutuşaq,
Hara getdi o uşaq,
Əlində pendir-çörək...

* * *

Bu da bizim nöqtəmiz,
Bitdik, qurtardıq daha.
Vardıq, yoxlarımızın
Sonuna vardıq daha.

Yoxuydu heç nəyimiz,
Yox oldu sona qədər.
Durub ehtiyat üçün
Sayaqmı ona qədər.

Hər "yox" yerindədirmi,–
Gəl bir daha yoxlayaq.
Yoxolmuşlarımızı
Yaxşı-yaxşı saxlayaq.

* * *

Bu sənsizlik günüdü
Nə gündüz var, nə gecə.
Sıralanır dalbadal
Neylədik? Niyə? Necə?..

Bu da sənli günümüz,
Halam bütün hallara.
Sualam cavablara,
Cavabam suallara.

Sənsizliyin yanında
Yoxluq lap balacaymış.
Sənsizliyin yanında
Varlıq bapbalacaymış.

* * *

Sus demirəmmi sənə?
Daha susmuşam.
Qürublar tanımadı
Səni bu axşam.

Sus, sus, deyirəm, anla.
Aha.., susmuşam, aha...
Bütün savablarımız
Döndü günaha...

Sus, sus, sus dedim sənə,
Daha lalam, bax..
a – a – a, a – a – a – a,
a – a – a, a – a aaax...

* * *

Yoox.., heç bu da sözdümü,
Aah! Qürublar, qürublar.
Hardan bildiniz, bizim
Qəlbimizi qırıblar.

Yoox., yoox., bu da sözdümü,
Aah! aah! Ey yaşlı gözlər.
Bircə yol ağlatmağa
Fürsət tapmadıq bizlər.

Yoox., yoox., yoox., sözdümü ki,
Aah! aah! aah! könülcüyüm.
Bir daş göstər, gedim də
Başımı döyüm, döyüm...



Gəray GÖYYURD
(Gədəbəy)

BU NECƏ OLDU?

Eşqin nişanına, bərəsinə mən
Ov kimi gəlmirdim, bu necə oldu?
Bu pak duyğuları heç kimsə ilə
Paylaşıb bölmürdüm, bu necə oldu?

Ürəyim daşlaşıb olmuşdu qaya,
Min-min gözəlləri salmırdım saya.
Məhəbbət adlanan gözəl bəlaya
Sinəmi gərmirdim, bu necə oldu?

Çoxdan unutmuşdum sevməyi, çoxdan,
Sənin məhəbbətin yarandı yoxdan.
Mən heç bir gözəlin, düzü, nə vaxtdan
Dərdindən ölmürdüm, bu necə oldu?

Sevginlə mənimtək bəxti yeyini
Baya yetirib də yıxdın öyünü.
Səni mən bu qədər sevəcəyimi
Özüm də bilmirdim, bu necə oldu?

Elə alışmışam, istəməm sönəm,
İstəməm bir daha göylərdən enəm.
Bəlkə sən biləsən, mənim bir dənəm,
Mən səni sevmirdim, bu necə oldu?

ZAMANIN YUN DARAĞINDA

Didim-didim didilir hey,
Aranır ürəyim mənim.
Zamanın yun darağında
Daranır ürəyim mənim.

Ömrün qırıq ələyindən
Dərd-qəm ələnir un kimi,
Bu dərdlərin darağında
Ürək daranır yun kimi.

Pilə-pilə duyğularım
Üst-üstə qalanır belə.
İy ucunda ipə dönür,
Uc-uca calanır belə.

Günlər cəhrətək fırlanır,
İyi qəlbimə toxunur.
Bu iplərdən ilmə-ilmə
Şeirim-sözüm toxunur.

Didim-didim didilərək
Ürəyim aranır belə.
İynə ucundan keçirəm –
Şeirim yaranır belə.

BU GÖZƏLLİYİ

Balıqtək çırpınır donun içində,
Torda saxlamısan bu gözəlliyi.
Adamı yandırır odsuz-ocaqsız, –
Qorda saxlamısan bu gözəlliyi?

Çiçəkli yaylaqdı, gül açan yazdı,
Xəyalım qoynunda dolandı, azdı.
Təptəzə qar kimi ağdı, bəyazdı, –
Qarda saxlamısan bu gözəlliyi?

Bəmbəyaz sinəyə tökülübdü tel,
Görmüşəm, ürəyim olubdu tel-tel.
Ay zalım, üstündən əsməyibdi yel, –
Harda saxlamısan bu gözəlliyi?..



Ramiz KƏRƏM
(Gədəbəy)

YENƏ BU AXŞAM

Yenə gözlərimə buludlar gəlir,
Qoy örtüm qapını, kimsə bilməsin.
Ağlayıb yatacam yenə bu axşam,
İşdi, yatanacan qəfil ölməsəm.

İşdi, yatanacan qəfil ölməsəm,
Fikrimdən, kim bilir, nələr keçəcək...
Yenə həmin üzlər, həmin şəkillər,
Könlü ağlar, gözü gülər keçəcək.

İlahi, yuxuma haram qat bir az,
Başımı qarışdır, bir az gec yatım.
Yaddan çıxardığın yalan qalıbsa,
Elə indi göndər, başımı qatım.

Səni aldatmıram, İlahi, vallah,
Mənim qardaşım var, mənim bacım var.
Özun bilirsən ki, şükürdaram mən,
Bircə aldanmağa ehtiyacım var.

Bircə aldanmağa ehtiyacım var,
Bircə aldananda rahat yatıram.
Mən bilən, aldanmaq günah sayılmaz,
Günah sayılırsa, nahaq yatıram.

Aglayıb yatacam yenə bu axşam,
İlahi, günahsa, keç günahımdan.
Ömür mənimdisə, baş açammıram
Nə keçən günümdən, nə sabahımdan...

BİR DƏ GƏLSƏM BU DÜNYAYA

Bir də gəlsəm bu dünyaya,
Gələrdim yalquzaq kimi.
Dərdlərimi göy üzüylə
Bölərdim yalquzaq kimi.

Yad olardı minnət sözü,
Qoruq-qaytaq, sərhəd sözü.
Öz sirrimi təkcə özüm
Bilərdim yalquzaq kimi.

Hər ləkəni silmək olmur,
Qismət nədi, bilmək olmur.
Adam kimi ölmək olmur, –
Ölərdim yalquzaq kimi.


KÖHNƏ KİŞİLƏR

Sizin ürəyiniz dağ kimi idi,
Bizim ürəyimiz yarpaq kimidi.
Sizin başınızda papaq var idi,
Bizim baş-gözümüz çılpaq kimidi.

Bəxtiniz gətirdi tez doğuldunuz,
Düşdünüz dünyanın duru vaxtına.
Dirilib gəlsəniz dil deyərsiniz
Siz çəkən arxların quru vaxtına.

Yaxşı ki, vaxtında çıxıb getdiniz,
Oğlunuz-qızınız yetim qalsa da.
Yaxşı ki, getdiniz üzüsuluykən,
Dünyadan əl çəkmək çətin olsa da.

Köhnə kişilərdən oxu, deyirik –
Sifariş veririk aşığa hərdən.
Köhnə kişilərə oxşa, deyirik –
Nəsihət veririk uşağa hərdən.



Elbariz MƏMMƏDLİ
(Şəmkir)

ÖMÜRLƏ VAXT ARASINDA

Nə qədər ümidin yolu yarımçıq,
Sinəmdə əzabın gözləri açıq.
Dünya ürəyimlə düz gəlmir nəsə,
Sevinci əlçatmaz, duyğusu qıcıq;
Qalmışam ömürlə vaxt arasında.

Otuz il arxada ilk məhəbbətim,
Dönüb çağırmağa çatmır cürətim.
Zirvədən quruyan dağ çayı kimi
Kəsilib harayım, çağlayam çətin;
Qalmışam ömürlə vaxt arasında.

Elə üstələyib haram halalı,
Gözlərə təpilir dünyanın malı.
Gərdişə baxanda içim üzülür,
Dilimdə cavabsız sorğu-sualım;
Qalmışam ömürlə vaxt arasında.

Belə olmayıb ki, yaranış əzəl,
Nəfs doğulalı qiymətlidir ləl.
Daha məhəbbətə köklənmək olmur,
Məni bağışlasın sevdiyim gözəl;
Qalmışam ömürlə vaxt arasında.

AĞRI

Bu kənd niyə belə dəyişib, Allah,
İtirib özünü bu kənd beləcə.
Yaxşı nəyi vardı yaddaşda qalıb,
Öldürüb özünü bu kənd beləcə.

Təzə kişilərin ovqatı başqa,
Çoxunun əllidə beli bükülüb.
Təbiət qarğışa düşübdü sanki,
Meşələr budanıb, bağlar sökülüb.

Bu kəndin taleyi dərdlərə qalıb,
Vaxt vardı bu torpaq aşıb-daşardı.
Alnının tərilə ocaq quranlar
Burda ömür sürüb yüzü aşardı.

Sinəsi dağlanıb bomboz torpağın,
Sanki təbiətdən öc alıbdılar.
Torpağın qədrini bilən kişilər
İndi qəbristanda yurd salıbdılar.

Sürülər haylanmır
örüşə sarı,
Obaşdan səhərin bağrı sökülmür.
Bu kəndin başına dərd-azar yağır,
Çoxdandı bərəkət, ruzi tökülmür.

Ayağı yer tutan yurddan qaçaqdı,
Cavanlar qürbətdə gün keçirirlər.
Uzanır vədəli toyların vaxtı,
Qızların könlünə dərd köçürürlər.

Barmaqla sayılır torpaq adamlar,
Əkin yerləri də tala-taladı.
Anlamaq istəmir təzə kişilər –
Torpaq əzəmətdi, torpaq qaladı.

Göylər də buluddan açılmır nəsə,
Amma göyə yağır, torpağa yağmır.
Urvatdan düşəli yurdlar, ocaqlar,
Nə arana yağmır, nə dağa yağmır.

Bu kənd niyə belə dəyişib, Allah,
Dönüb qəm püskürən qəmli adaya.
Yurdu dərd əlinə verən cavanlar
Keflə qulaq asır "Serenada"ya.

Yetər, qol çırmayın, cumun
torpağa,
Bu ki əmanətdi, təzə kişilər.
Qaytarın bu yurdun ucalığını,
Qılmayın torpaqla məzə, kişilər.



Vasif SÜLEYMAN
(Şəmkir)

ÇATINCA

Bir ömrə dəyərdi tək səni sevmək,
Sevərdim imana, dinə çatınca.
Uzaqdan baxanda mələksən, mələk,
Misraya dönürsən mənə çatınca.

O dünya varımdır, bu dünya yoxum,
Yanımda nə qardaş, nə bacı, qohum…
Bəlkə harayını eşidər ruhum,
Halımı sorarsan yenə, çatınca.

Birdən sən gəlincə çiçəklər solar,
Barı son anımda ləngimə, nolar…
Onsuz da mələklər aparmış olar,
Sən gəlib mən adda qəmə çatınca.

TƏRƏFİMDƏ

Günəşmi nur salır dörd bir yanıma,
Yox... Yox… Üzün gülür hər tərəfimdə.
Gendən boylanıram Tanrı payına,
Nə olsun dayanıb yer tərəfimdə…

Birimiz divanə, birimiz dəli,
İndi bizim üçün hər şey təsəlli.
Aşikar olanım ellərə bəlli,
Pünhan nağılımsan sirr tərəfimdə.

Səssiz harayımı indi kim duyar
Budurmu dediyin əlçatmaz röya…
Görürsən, bir yanda bu boyda dünya,
Təkcə sən durubsan bir tərəfimdə.

OLURSAN

Elə sən boydadı dünya dediyin,
Gözümdə-könlümdə hər an olursan.
Adın çəkiləndə dönərgəm dönür,
Adım çəkiləndə viran olursan.

Tanrı yazdığına neyniyəsiyəm,
Bu boyda saflığın divanəsiyəm.
Mən bu məhəbbətin azan səsiyəm,
And içmək istəsəm, Quran olursan.

Haqqın dərgahından keçdi, ələndi,
Canım bu sevdaya çoxdan bələndi.
Vədəsiz bu sevgi haqdan gələndi,
Bəs niyə sən mənə haram olursan?..



Fərhad QOŞQARLI
(Daşkəsən)

DÜNYADIR

Başımız qarışıb vara-dövlətə,
Əzabı çox, dərdi kalan dünyadır.
Bir loxma çörəklə, bir qiymə ətlə
Tamahı tələyə salan dünyadır.

Bir ana dayanıb bir cığır üstə,
Oğlunu gözləyir qulağı səsdə.
Gül bağda ağlayır, bülbül qəfəsdə
Ayrılıqdan qisas alan dünyadır.

Baş açmaq olmayır əməllərindən,
Göz yaşı süzülür sevinc yerindən.
Hamını keçirib öz xəlbirindən,
Bircə-bircə yola salan dünyadır.

Məzar daşlarını oxudum bir-bir,
Yazılan yazılar qəmdir, kədərdir.
Fərhad, bu əcəl də bir bəhanədir,
Cavanlığa qənim olan dünyadır.

AXTAR

Öyrənmək istəsən dəyərli kəlam,
Sən onu ağsaqqal sözündə axtar.
İnsanda əlamət səbəbsiz deyil,
Nuru nənələrin üzündə axtar.

Ağlayırsan ata-ana dərdini,
Söyləyirsən yana-yana dərdini.
Ana həsrətini, ana dərdini
Bir yetim körpənin gözündə axtar.

Bülbüldən küsübdü gülün budağı,
Bülbülün naləsi aşdı bu dağı.
Nakam məhəbbətin çəkdiyi dağı
Kərəmin külündə, közündə axtar.

Şair Fərhad, dostluq etsən birinə,
Biri etibarlı, bir də biri nə?
Könüllər bənzəməz biri-birinə,
Dostluğa inamı özündə axtar.



Saleh QURBANOV
(Daşkəsən)

AY SARI ÜZÜKDÜR...

Ay sarı üzükdür, yuxun ağ örtük,
Oyat barmağını, üzükdən keçir.
Bəlkə də bəxtindən günəş boylana,
Köçür ayrılığı, özündən köçür…

Çəkmə saçlarına ağ əllərini,
Əlində saçının qarası qalar.
Uzaqda görünən ilğımlardımı?
Sökmə ulduzları, yarası qalar…

Yuxuna büründü, üşüməz axşam,
Aylı gecələrlə yatar xəyalın.
Səni axtarmağa qarışıb başım,
Birdən yaddaşımdan itər xəyalın.

Gözümdə çırpınan buludlar qəmdi,
Yoluma səpilən ağ yağışa bax!
Səni ki qəlbimdə qoyub gəlmişəm,
Bəs kimi gəzirəm? – Allah, huşa bax!

Səmadan asılıb ulduzlar göz-göz,
Yenə ürəyimi qaranlıq boğur.
Kirpiklər saxlamır göz yaşlarımı,
Yağır sənsizliyə, eləcə yağır...

Üstümə hər yandan gəlir ayrılıq,
Özüm də bilmirəm necə ağlayım?
Gündüz buludlardan göz yaşı alım,
Sənin həsrətini gecə ağlayım...

DİLƏ TUTUM BU SƏHƏRİN MEHİNİ

Dilə tutum bu səhərin mehini,
Desin kimdir o kəkliyin sirdaşı?
Bəndə düşüb pıçıltısı çəmənin,
Canım arı, çiçəklərə sirr daşı.

Qamçılandı buludların su bəxti,
Gözlərindən damcı-damcı su baxdı.
Göy qurşağı göy üzünə suvaqdı,
Suya batdı qayaların yaddaşı.

Quzeylərin gözə dəymir sazağı,
Geri döndüm, duman kəsdi qabağı.
Güzgü gəzən, darandığın bulağı
Göy sinədə əldən saldı bir naşı.

Üzüm güldü, zirvələrdən qar baxdı,
Mürgü döyür çiçəklərin bar vaxtı.
Yaşıl budaq nişanlanmış barmaqdı,
Ağ çiçəklər üzüyünün ağ qaşı.

Şimşək döydü, çay səsində boğuldu,
Göy təpələr harayına yığıldı.
Sal daşa bax, sehirlənmiş nağıldı,
Xatirədir o yamacın sal daşı.



Saqif QARATORPAQ
(Ağstafa)

ETİRAF

Şəhid sevgilərin məzarı üstə
Baxıb qan qoxuyan çiçəklərinə
İnana bilmirəm ölmədiyimə.

Sırtıq küçələrin döngələrində,
Çılpaq nəğmələrin yataqlarına,
Boyalı, boyasız dodaqlarına
Boylananların
baxıb gözlərinin işartısına,
baxıb üzlərinin qışqırtısına,
ütülü, qardan ağ köynəklərinə,
inana bilmirəm ölmədiyimə.

Sığınıb yağışda çətirlərinə,
Öpüb xanımların əlcəklərindən
Ötürdüm bir axşam evlərinəcən,
baxıb gözlərinin dərinliyinə,
baxıb boynubükük ürəklərinə,
inana bilmirəm ölmədiyimə.

Papaqlar başları aparıb gedir,
Papaqlar başları qoparıb gedir,
Düşüb ümidlərin ayaqlarına,
Keçib tamahların nizələrinə.
Baxıb bu dünyanın adamlarına,
Baxıb gül libaslı ədalarına,
Bir də qana batmış ətəklərinə,
inana bilmirəm ölmədiyimə!

***

Bu gecə də duz basdım köhnə yaramın üstə,
Keçmişin qapısına bir qara lent bağladım.
Bir ümidi saxladım ötən gündən xatirə,
Nə var yığıb bir küncə, üstünü torpaqladım.

Yaddaşın dəftərindən pozdum son ünvanı da,
Kimsə tapmasın deyə buraxmadım bircə iz...
Sevgiləri aldadıb verdim şirin yuxuya,
Ürəyimi götürüb çıxdım səssiz, xəbərsiz.

Baş götürüb gedirəm, bir yoldu, bir də mənəm,
Bir də yerində sayan urvatsız ayaqlarım.
Gedirəm, kimsə görmür, göz yaşımda itmişəm,
Bir dua pıçıldayır min ildi dodaqlarım...

Dincimi almaq üçün dayanıram arada,
Hərdən bir az söykənib alnımın yazısına.
Bir xəyal çəkir məni, bəlkə elə sərabdı,
Eh... qoşulub gedirəm könlümün arzusuna.

Çox ağladım, bilmirəm... duzsuzlaşdı ömür-gün,
Bilə-bilə durmuşam bəlkə də öz qəsdimə...
O qədər dolaşaram, bir gün xəbərim olmaz,
Qəfil gəlib çıxaram öz yasımın üstünə.



Ehtiram İLHAM
(Tovuz)

GET-GEDƏ

Atilay üçün

Ehtiyacdandımı, ya yaşdandımı,
Azalır başımda ağıl get-gedə.
Mən yaşadığımdı cəhənnəm özü,
Bitir cənnət haqda nağıl get-gedə.

Gözümü açandan gözüm yaşdadı,
İşim ələmanda, qaçhaqaçdadı.
Nə ki niyyətim var, zaman xışdadı,
Arzum uzaqlardan baxır get-gedə.

Dünyada qalası dünya malıdı,
Tanrı sevdasıdı, haqq amalıdı.
Oğul atasına oxşamalıdı, –
Sənə oxşayıram, oğul, get-gedə.

ORUCUYAM

Çox da ki, çəməni çiçək-çiçəkdir,
Dərib qoxlamaram, gül orucuyam.
Elə odlandırıb, közüm qalmayıb –
Bir ocaq yerində kül orucuyam.

Könlümə arzular dolandan bəri
Bircə istəyimi görmədim diri.
Şeytanın əlinə verib günləri,
Aylar tamarzısı, il orucuyam.

Yenə bürüyübdü dağlarını çən,
Torpağı tökülən qanla ölçülən.
Bütövlük istəyən bir halal Vətən,
Halallıq diləyən el orucuyam…

QARDAŞLAR

Haçandı küsüb-inciyən
İlhamım üzümə baxdı.
Şeir yazmaq istəmirdim,
Bir işdi əlimdən çıxdı –
Yazın ömrümə, qardaşlar.

Qanımı sümürüb içən
Fələklə öcüm çatmırsa,
Yetmirsə heç nəyə əlim,
Heç kimə gücüm çatmırsa,
Kəsin ömrümü, qardaşlar.

Mən elə Allah bəndəsi –
Tanrının xəbəri olmaz.
Nə gəlir, qoy mənə gəlsin,
Kimsəyə xətəri olmaz,
Yazıq ömrümə, qardaşlar.

Gördünüzmü hardan gəlib,
Yol aldı hara güzarım?
Qazdığınız quyu ki var,
Qoy olsun axır məzarım –
Qazın ömrümə, qardaşlar.



Aydın İBRAHİMOĞLU
(Ağstafa)

MƏNİM MUĞAMLARIM

Bizə babalardan qalmış yadigar,
Onlartək közərib, alışıb tarım.
Düşmən də dindirib, dost da dindirib,
Yenə öz dilində danışıb tarım.

"Rast"ın xallarında neçə min aləm,
Zildə "Yetim Segah" ürək yandırır.
"Şur" da bir çeşmədir, tökülür dən-dən,
Dördrəngli "Çahargah" nələr andırır.

"Heyratı" düşmənə meydan oxuyur,
"Zabul" təsəllidir ah-amanlara.
"Qatar" arzulardan çələng toxuyub
Sevinc bəxş eləyir biz insanlara.

"Rahab" titrəyişdir qız çöhrəsində,
Nakam ürəkləri yaman çağladır.
Köhnə həyatının məğrur səsində
"Hicaz" qəlb göynədir, qəlbi ağladır.

"Dilkəş" nalə çəkər, fəğan eyləyər,
"Şikəstə" şikayət, qəmdir, kədərdir.
"Şüştər"i dindirsən nələr söyləyər,
Düşmənlərə kini dağlar qədərdir.

“Humayun”la “Segah” şirin bir avaz,
Hər kim ki eşitsə, ayaq saxlayır.
“Bayatı-Şiraz”la açılıbdır yaz,
Onun sədasında həyat çağlayır.

Muğamlar dövlətim, muğamlar varım,
Qəlbə təsəllidir, eşqə qanaddır.
Muğamlar namusum, muğamlar arım,
Ruha qida verən canlı həyatdır.

XƏBƏRİN YOXDUR

Ay qəlbi saf, dodağı bal,
Özündən xəbərin yoxdur.
Gözü dəniz, qaşı hilal,
Gözündən xəbərin yoxdur.

Tellərini dara, gözəl,
Qəlbə saldın yara, gözəl.
Üzü al, tel qara, gözəl,
Üzündən xəbərin yoxdur.

Eşqin badəsini içdim,
Bahar olub qəlbə köçdüm.
Küçəmizdən gəlib keçdin,
İzindən xəbərin yoxdur.



İsa CAVADOĞLU
(Tovuz)

AZƏRBAYCAN

Hüsnümü əks edən aynamdır Xəzər,
Təbiət yaxama mirvari düzər,
Süfrəyəm, üstümü hər nemət bəzər,
Barlı-bərəkətli Azərbaycanam!

Libasım yamyaşıl, bağlı-bağatlı,
Aranım maşınlı, yaylağım atlı,
Payızı nəğməli, toylu-büsatlı,
Yazı təravətli Azərbaycanam!

Bakı – qaynar qəlbim, dünya mayağı,
Sumqayıt göylərin polad dayağı,
Bulud Daşkəsəndən durur aşağı, –
Füsunkar xilqətli Azərbaycanam!

Qədim Göyçə eli, Borçalı, Qazax...
Tovuzu, Şəmkiri aç varaq-varaq,
Naxçıvan, Şamaxı, Göyçay, Qarabağ...
Mehriban, ülfətli Azərbaycanam!

Könlün nə istəsə var, istə, verim,
Yayın istisində qar istə, verim,
Bahar bayramında nar istə, verim,
Hər nazı-nemətli Azərbaycanam!

Ecazkar kamanım, tarım, sazım var,
Döyünən ürəyim, min bir arzum var,
Qüdrətli övladım, oğlum, qızım var,
Namuslu, qeyrətli Azərbaycanam!

Nizami dühalı, Babək xəyallı,
Nəsimi vüqarlı, Vaqif kamallı,
Koroğlu nərəli, Vurğun amallı,
Mehdi cəsarətli Azərbaycanam!

Vüqarlı başımdır ağ saçlı Qafqaz,
Əyilməz qolumdur Kür ilə Araz,
Göygöl dodağımdır, dindir, qulaq as,
Min şirin söhbətli Azərbaycanam!

Odlar ölkəsidir əzəldən adım,
Mən oddan doğuldum, odla yaşadım,
Hər bir əməlimlə oda oxşadım,
Odlu, hərarətli Azərbaycanam!

Üçrəngli bayrağım, zəfər nişanım,
Günbəgün ucalır şöhrətim, şanım.
Haqqım var hər zaman dostları anım,
Nurlu, sədaqətli Azərbaycanam!

ÜŞÜDÜ

Sənin nəfəsinmiş odum-ocağım,
Sənsiz buz bağladı, otaq üşüdü.
Ah çəkdim, bəlkə də ahım isidə,
Ahım qırov oldu, çıraq üşüdü.

Bir Lələ koması mənim timsalım,
Səndən ayrılalı fənadır halım.
Nə qədər yandırdım, yenə, a zalım,
Oda yana-yana ocaq üşüdü!

Lələk qələmini batırıb qəmə,
İsa bu həsrəti aldı qələmə.
Hicran sözü elə soyuqmuş demə,
Qələmin ucunda varaq üşüdü.



Mübariz QARAGÖZLÜ
(Qazax)

GÖRÜM NƏ ÇIXACAQ

Taleyimi varaqladım,
Dedim, görüm nə çıxacaq...
Arzuları şana-şana
Didim, görüm nə çıxacaq...

Ağrıların axarına,
Ağrıların ağırına,
Ağrıların axırına
Gedim, görüm nə çıxacaq...

Yüküm dağlar qədərdi də,
Vallah, bəlkə betərdi də!
Öyrəşmişəm, bu dərdi də
Udum, görüm nə çıxacaq...

Bu dünyanın üzündən də,
Ömrün-günün tezindən də,
Lap ölümün gözündən də
İtim, görüm nə çıxacaq...

İçimdəyəm, tapın məni,
Üyüm-üyüm çapın məni.
Beləcə də səpin məni,
Bitim, görüm nə çıxacaq...

SAZA-SÖZƏ UMUDDUYAM

Keşiyimdə durub hələ,
Bir ulduza umudduyam.
Falım bilər! Demirəm ha
Çoxa, aza umudduyam!

Düşdüyüm yol budur, görək!
İşıq düşür seyrək-seyrək.
Gedim, yolçu yolda gərək,
Həmən izə umudduyam.

Qoy sürünüm ona sarı,
Qoy sarılım sarım-sarım.
Əzəl-axır etibarım,
"Qara saza" umudduyam!

Öz suyuma yoğrulmağı,
Öz adımnan çağrılmağı,
Mən təzədən doğulmağı
Şerə-sözə umudduyam!



Rüfət AXUNDLU
(Ağstafa)

GECƏLƏR

Bu nə hikkə, bu nə zorluq, bu nə ah,
Hayqıraraq gah əl açır sənə, gah
Bilə-bilə asi çıxır, ay Allah,
Yaranışa üsyan edir gecələr.

Dərdsizlərə qapısını bağlayır,
Yatanlara ağı deyir, ağlayır.
Yuxusunu boxçasında saxlayır,
Həsrətini yorğan edir gecələr.

Acıları aram-aram dindirir,
Arzuları ulduz-ulduz söndürür.
Qanadını pillə-pillə endirir,
Yalqızları mehman edir gecələr.

Aşkar-aşkar inad edir, pəs etmir,
Qorxu sevir, sükut sevir, səs etmir.
Qısa ömür yaşamağı bəs etmir,
Xəyalları qurban edir gecələr.

Hər şər işin sonu xeyir, yazıram,
Ruh düşünür, ürək deyir, yazıram.
Yatmamışam, görür şeir yazıram,
İlhamımı peşman edir gecələr.

DEDİLƏR

Allah, sənə sığındım,
Quru lafdır, dedilər.
Qaçdım, yenə sığındım,
Necə safdır, dedilər.

Olmadım zərrə məyus,
Qalmadım nəfsə məhbus.
Adıma "qara kabus",
Nainsafdır, dedilər.

Demədilər öndəyəm,
Sən olmuşam, Səndəyəm.
Dedim, nankor bəndəyəm,
Etirafdır dedilər.



Sahib ASLANZADƏ
(Şəmkir)

DEYİMMİ?

Cuna çəkdi ağ dumandan başıma,
Dağ ürəkli bu dağlarım, deyimmi?
Xalı sərdi gül-çiçəkdən qarşıma,
Min soraqlı bulaqlarım, deyimmi?

Məni görcək həyalandı bənövşə,
Sal qayalar bir dayaqdı bu ərşə.
Əl uzatsam çatarammı günəşə –
Cökə, palıd ayaqlarım, deyimmi?

Elə dedim, kimsə məni qınadı,
Qonur daşlar əllərimdə xınadı.
Bir qulaq as, təbiət də bənnadı,
Leysan yağış barmaqları, deyimmi?..

DİZİNİ DAŞ APARAN OĞLAN

Məmməd Araza

Dizini daş apardı,
Gözünü yaş aparmadı.
Şalvarından dizi çıxmadı,
çıxmadı…
Neynim…

Payını "qardaş" apardı,
Dərdini aparmadı.
Dərdi sözə-soya baxmadı,
baxmadı…
Neynim…



Səhlədar HİDAYƏTOĞLU
(Qazax)

ATLILAR

Yaxşı kişilər yaxşı atları minib getdilər...
El deyimi

Atlılar çapardı bu yer üzündə,
Yaman atağızlı atlılar vardı.
Dünya da yəhərə bənzərdi onda,
Dünya da elə hey yırğalanardı.

Atlılar, atlılar, bəyim atlılar,
Şahinim atlılar, leyim atlılar,
Çapanda qədlərin əyən atlılar,
Bircə dözmədilər boyun əyməyə!

Atlılar, atlılar, bəyim atlılar,
Atları yellərdən yeyin atlılar,
Atları əyninə geyən atlılar,
Çapdılar haraya, haya, köməyə.

Çapdılar döyüşə, çapdılar hərbə,
Çapdılar yağıya vurmağa zərbə.
Döndülər bayrağa, döndülər gerbə,
Döndülər yəhərdə qanlı köynəyə.

Atların başına papaq atdılar,
Səbrinə, hirsinə qapaq atdılar.
Bu yağış atlılar, torpaq atlılar
Qoymadı yurdda bir ocaq sönməyə.

Çıxanda bicliyi qoca dünyanın,
Olanda qapısı baca dünyanın,
Düşməyib dalınca bica dünyanın,
Onlar qıymadılar bir söz deməyə.

Getdilər, eləcə çıxıb getdilər,
Sellərtək, sular tək axıb yetdilər.
Bizlərə birtəhər baxıb getdilər,
Getdilər nağıla, mifə dönməyə.

Atlılar atlara uyub getdilər,
Bu yerdən, bu göydən doyub getdilər.
Hərəsi bir qadın qoyub getdilər,
Qalıb yer üzündə qara geyməyə.

DAĞLAR


Günəş çıxdı düzünüzdən,
Duman getdi gözünüzdən,
Qoyun mən də üzünüzdən
Öpüm, ay dağlar, ay dağlar.

Çəmənlərin naxış kimi,
Bir ilahi baxış kimi,
Qoynunuza yağış kimi
Hopum, ay dağlar, ay dağlar.

Güney güllü, quzey qarlı,
Üzüm gülsün bir az barı.
Küsüb getmiş arzuları
Tapım, ay dağlar, ay dağlar.

Göy meşədə əlvan tala,
Adam ölə, orda qala.
Qəbrim üstə güldən qala
Yapın, ay dağlar, ay dağlar.

Səhlədaram, eşqim dərin,
Mənasıyam göyün, yerin,
Mənə də bir qaya verin
Çapım, ay dağlar, ay dağlar!



Tamella POLADLI
(Qazax)

GÖYÇƏYƏ-GÖYÇƏYƏ

Qoy calansın şair ömrüm,
Günüm Göyçəyə-Göyçəyə.
Boylanıram pəncərədən,
Yönüm Göyçəyə-Göyçəyə.

Köhlən yola yatacaqmı,
Arzular baş tutacaqmı,
Allah, görən çatacaqmı
Ünüm Göyçəyə-Göyçəyə?

Doğulmuşam el-obada,
Yuva quram sərt qayada.
Dayanam arxam Polada,
Önüm Göyçəyə-Göyçəyə.

Arzuda dönəm xəyala,
Xəyalda çatam vüsala.
Havada dönəm qartala,
Enəm Göyçəyə-Göyçəyə.

İzin almışam ölümdən,
Hər nə çıxsa yaz dilimdən.
Tamellayam, tut əlimdən,
Dönüm Göyçəyə-Göyçəyə.

TANIYIR

Ürəyimə dəymə belə,
Məni oba-el tanıyır.
Nəzər salsan bu mahala,
Həkim, şair, bil, tanıyır.

Sanma yaddır mənə Qazax,
Mənə sənsən məndən uzaq.
İstəyirsən gəl yazışaq,
Məni əhli-dil tanıyır.

Məlhəmdi dərdə gülüşüm,
Bahardı, yazdı gəlişim.
Alçaqlarla yoxdu işim,
Məni zirvə-zil tanıyır.

Tamella çəkər firqəti,
Dildə gəzər söz-söhbəti.
El içində var hörməti,
Lilparını lil tanıyır.



Üzeyir MƏHƏRRƏMLİ
(Ağstafa)
(1974-2004)

NECƏ ÖYRƏDİM

Dəli bir şimşək ol, gözlərimdə çax,
Qəmimdən boşalıb, sevincimdən ax.
Məndən dilədiyin istəyə bir bax,
Mən sənə sevməyi necə öyrədim?

Könlümü üşüdən sazaq deyilsən,
Mənə mənim qədər uzaq deyilsən.
Sən körpə deyilsən, uşaq deyilsən,
Mən sənə sevməyi necə öyrədim?

Sınıq təbəssümün gülüş deyil ki,
Hər görüş mən deyən görüş deyil ki,
Məhəbbət bir sığal, öpüş deyil ki...
Mən sənə sevməyi necə öyrədim?

Dinmirsən, sevgini dilindən tutum,
Saçını oxşayım, belindən tutum.
Yazı yazmırsan ki, əlindən tutum,
Mən sənə sevməyi necə öyrədim?

Bu gizli sevgidə hekayət nədir,
Kədərə bükülü səadət nədir?
Heç özüm bilmirəm məhəbbət nədir, –
Mən sənə sevməyi necə öyrədim?

MƏNİ ŞUŞADA BASDIRIN

O dağlardan külək gəlir,
Üzümüzə ələk gəlir,
Geci-tezi öləsiyəm,
Ürəyimdən dilək gəlir,
Şuşada basdırın məni.

Vaxtsız ölsəm, söz yaymayın,
Qərib ömrü puç saymayın.
Şuşam geri dönməyincə
Məni torpağa qoymayın,
Şuşada basdırın məni.

Düşmənim sürünsün deyə,
Dumana bürünsün deyə,
Zirvədə qartallar ölür,
Hər yandan görünsün deyə
Şuşada basdırın məni.

Bəsdir, daha qəm ağ olar,
Qəmlə sınıb, solmaq olar.
Öldük Təbrizsiz, Göyçəsiz,
Şuşasız ölmək dağ olar,
Şuşada basdırın məni.



Yunis ORUCLU
(Tovuz)

SÖZ

Dünyadan nə anlar, nə öyrənərdik,
Olmasa danışıq, olmasaydı söz?
Başqa canlılartək yalnız yem üçün
Çalışardıq, bizdən qalmasaydı söz.

Olmazdı mənası varlığın, yoxun,
Olmazdı mənası nə azın-çoxun,
Olmazdı nə uzaq, nə də ki, yaxın,
İnsanın beyninə dolmasaydı söz.

İnsan düşünməzdi, insan anmazdı,
Yaxşılıq, yamanlıq nədir, qanmazdı.
Çayda su donmazdı, ocaq yanmazdı,
Qəlbə isti, soyuq salmasaydı söz.

Olmazdı halallıq-haramlıq bilmək,
Olmazdı incimək, ağlamaq, gülmək,
Olmazdı düşünmək, dərd çəkib ölmək,
Toxunub, ürəyi çalmasaydı söz.

Bilərdik ilk həyat nə zaman olub,
Nə nədən yaranıb, ya nədən solub,
Dünya neçə dəfə boşalıb, dolub, –
Yunis, yazılsaydı, solmasaydı söz!



Zaur SAHİL
(Qazax)

***

Balalarıma

Göylərdən tökülən qar dənələri
Atılan topların qəlpələridir.
Atalar, analar heç qorxmasınlar,
Onları qoruyan körpələridir.

Layla bir duadır, körpə eşidir,
Dönüb Tanrısına təşəkkür edir.
Hamı gələ-gələ dünyadan gedir,
Onları qoruyan körpələridir.

Bütün musiqilər qavala gəlir,
Ömür bir cavabdır, suala gəlir,
İnsanlar gündə bir zavala gəlir,
Onları qoruyan körpələridir.

***

İki günlük dünyanı
bir günlük yaşaya biləydim,
Ürəyimdə qalan sevgimi
balalarımın ürəyinə
daşıya biləydim.
İstəmirəm sevgimi
özümlə məzara aparım,
Bilirəm, sevgimin təsirindən
təkcə onlar
məzarıma əyiləcək.
Hər zaman balalarımı
düz görmək istəyirəm,
Məndən sonra dünyada
iz görmək istəyirəm.



Hikmət ORHUN (Qul Hikmət)
(Qazax)

***
Xublar məclisinə təşrif buyurub
mən səni görmüşəm başda birinci.
Ağılda, kamalda hamıdan qabaq,
hüsndə, camalda, huşda birinci.

Dərd-azar canını hələm almasın,
xəta səni məndən iraq salmasın.
Şübhələr könlünə mehman qalmasın,
şeytanı içindən dışda birinci.

Dodağı qönçəsən, boyu bəstəsən,
hörüklərin yığ gərdəndə dəstə sən.
Bir gün həsrətindən ölən istəsən,
varıb Qul Hikməti xışda birinci.

***
Bu yerlərin bağçasından keçilməz,
səhər-səhər gül dalında şeh durar.
Sərin-sərin yırğalanar yoncalar,
ta obaşdan tellərində meh durar.

Gilasları yaşılmolar, almolar,
armudları şəkərmolar, balmolar.
Yelləndikcə bəhsə girər almalar,
qopub düşən dillərində "ah" durar.

Nə yoruldun Qul Hikmətin sözündən?
bəs nə yazım bu bağların yazından?
Tərpənəndə yer çatlayar nazından,
sanasan ki, yuxusundan şah durar.

***

Vaxt yetirər, meyvələri ballanar,
tapdaq olar budaqları bağların.
Yaxşı-yaxşı dost-tanışa açılar,
geniş-geniş qucaqları bağların.

Doğulandan işim şaha qulluxdu,
yad bəlləndim, könlüm, gözüm doluxdu.
Baxtı döndü, yarpaqları soluxdu,
güllük idi qabaqları bağların.

Qul Hikmətnən bir danışın, bir gülün,
durar hamı pişvazında bir gülün.
Avazına qonaq elər bülbülün,
əcəb olar sabahları bağların.

***

Nə gözəlmiş biz tərəfin havası,
quşlar uçar, gül dalına gül gələr.
Çathaçatnan daşlar oynar yerindən,
çaylar axar, arxı dolu sel gələr.

Adam baxıb camalına vurulu,
gözəlinin pişvazında durulu.
Qara saçı dal gərdəndə hörülü,
bədən şux tökülmüş, incə bel gələr.

Qul Hikmətim bu yerlərdə darılmaz,
bir qaydadı, şaha hesab sorulmaz.
Yad əlindən mənə arxa durulmaz,
ha çağırsam, harayıma el gələr.



Mövlud MÖVLUD
(Qazax)
(1989-2017)

ÇƏTİRSİZ

(hekayə)

Yağış səhərəcən yağsın şəhərə,
Hamının dərdini yusun aparsın.
Quşlar qonaq gəlsin mavi Xəzərə,
Balıqlar evinə yosun aparsın.
Qismət

Bakıya yağış yağır. Yadıma Qazaxın yağışlı günləri düşür.

Ötən əsrin 96-cı ilində, iyulun axırlarında rayon məscidində işa namazını bitirib, gecə zikrləri edirdik.

Birdən göy guruldadı, şimşək çaxdı, şıdırğı yağış başladı.

Hamımız evə necə gedəcəyik deyə dərdləndik. Bircə cübbəli, saqqallı nəqşibəndilər öz aləmlərində idilər:

Hələ ləng-ləng ləngəm...

Hələ ləng-ləng ləngəm...

İməkləyə-iməkləyə qonşumuz Məhəmmədə yaxınlaşdım. Məhəmməd onda universitetə hazırlaşırdı.

Əksər Qazax gəncləri kimi, o da abituriyentlik dönəmini mömin-liklə keçirirdi. Sakitcə qulağına əyildim:

– Maqo, məni evə ötürərsən?..

– Qorxursan?

– Yox eyy, darıxıram. Tək getmək istəmirəm.

– Yaxşı, apararam... Avara...

Əlini atıb saçlarımı qarışdırdı.

Zikrimizi bitirib məsciddən çıxdıq. Yağış güclənmişdi. Məhəm-məd qolumdan tutub "qaçdıq" dedi. Addımlarımızı yeyinlədib təzəcə uzaqlaşırdıq ki, qonşumuz Kamalın arxadan bizi çağırdığını eşitdik:

– Dınqış (Vay dədəm vay, sirr açıldı! Yaxşı, boynuma alıram: uşaqlıqda məni belə çağırırdılar), məni də gözləyin, dərdiş!..

– Tez elə. Suya batdıq...

Kamal ikicə addım atmışdı ki, ayağı sürüşdü. Arxası üstə yerə dəydi. Çığırıb ağlamağa başladı. Onu tələsdirdiyimə peşman oldum. Ağlamsınıb Məhəmmədə yalvardım:

– Qurvan olum, ay Maqo, kömək elə...

Məhəmməd əyilib onu ayağa qaldırmaq istəyəndə Kamal daha bərkdən ağladı:

– Dəyməyin, dəyməyin!.. Qırıldı ayağım... Qırıldı!..

– Ə, boş-boş danışma. Qırılmaq nədi?

– Yox əə, Məhəmməd, mən bilirəm, ayağım qırıldı.

Kamalın göz yaşı selləmə yağışa qarışmışdı:

– Mən öləcəm, papam-mamam yetim qalacaq.

Məhəmməd güldü:

– Dəli olma, dur ayağa, ağlama, kişisən!..

Birtəhər Kamalı ayağa qaldırıb evə apardıq. O, yol boyu ağladı.

Təpədən-dırnağa suya batmışdıq. Ağlağan dostumuzu birtəhər kiridib evlərinə ötürə bildik.

Daha yağışdan qorxumuz yoxdu, islana bildikcə islanmışdıq, su-yumuz süzülə-süzülə yavaş-yavaş evə sarı üz qoyduq.

Evimizə ötürəndə Məhəmməd məni bağrına basıb, ağ fəsimin altından çıxan tellərimdən öpdü.

Vədələşdik ki, sabah saat 6-da görüşüb sübh namazına birlikdə gedək. Məhəmməd üzünü çevirib getmək istəyəndə arxasınca səsləndim:

– Maqo!

– Hə...

– Mən qorxmurdum eyy, "prosto" darıxırdım. Ona görə sənlə gəlmək istədim.

Məhəmməd güldü:

– Bilirəm. Bilirəm. Get evə, get yat. Sabah sübhə duracaqsan.

***

Bakıya yağış yağır. Yadıma Qazaxın yağışlı günləri düşür.

2005-ci ilin avqustu idi. Namaz məni təzəcə atmışdı. Oxuduğum kitablar başımı xarab eləmişdi.

Mənəvi böhran keçirirdim.

Hər gün rayonun avaralarına qoşulub vurmağa gedirdim. Səhərə kimi qumar oynadığımız olurdu.

Sevdiyim qızla gündə dalaşırdım. Nə edəcəyimi bilmirdim. Bir dəfə yenə yağışlı bir gündə vurub qıza zəng elədim, telefonda ağzımın qatığını dağıtdığıma görə "adboy" verdi.

Bugünkü kimi yadımdadır: ağappaq uzunqol köynəyimi şalvarımın üstünə atıb qızgilin məhləsinə getdim.

Damağımdakı siqaretin məni daha da kədərli göstərdiyini düşünürdüm. Gedib düz qızgilin eyvanının altında dayandım:

– Qərənfiii

«RS Poliqraf» MMC-nin mətbəəsində çap olunmuşdur.

Çapa imzalanıb: 28.02.2018. Ofset çap. Ofset kağızı.
Format: 70x100 1/16. Həcmi 9,5 ş.ç.v. Tiraj: 1000 nüsxə.
Qiyməti razılaşma yolu ilə.

"RS Poliqraf" MMC
Bakı şəh., A.Məmmədov küç., 113
Tel./faks (+994 12) 437 08 20